**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# "AZƏRBAYCAN RESPUBLİKASINDA İŞSİZLİYİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ"

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Abasova Aygün Xaləddin qızı**

**BAKI – 2019**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**__________________imza**

**“___” ____________ 2019-cu il**

# “AZƏRBAYCAN RESPUBLİKASINDA İŞSİZLİYİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı: Menecment 060407**

**İxtisaslaşma: Menecment (sahələr üzrə)**

**Qrup: 232**

**Magistrant**

**Abasova Aygün Xaləddin qızı**

**___________________imza**

**Elmi rəhbər**

**i.e.n., dos. Hüseyn Afaq Camaləddin qızı**

**_____________________imza**

**Proqram rəhbəri**

**i.ü.f.d., b/m Şamxalova Samirə Oqtay qızı**

**_____________________imza**

**Kafedra müdiri**

**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**

**_____________________imza**

**BAKI – 2019**

# MAİN DİRECTİONS OF STATE REGULATİON OF UNEMPLOYMENT İN THE REPUBLİC OF AZERBAİJAN


## Summary

**The actuality of the subject: The likelihood that global economic crisis could have negative impact on our country, which could lead to decline in dynamics of economy, areduction in production volumes and ultimately decrease in jobs, has become subject of debate.**

**Purpose and tasks of the research: Main goal of research is to determine the skills that are important for our country by studying the experience gained in the world of unemployment, success stories and indicators.**

**Used research methods: In research processsystematic and comparative analysis, logical summarization and grouping methods, and practices from developed countries have been used.**

**The information base of the research: The information materials of research have been used by the President, decrees and orders adopted by Milli Majlis, Ministry of Economy, Ministry of Labor and Social Protection of Population, State Statistics Committee, and others.**

**Restrictions of research: There is no information about status of unemployments.**

**The results of the research: Main directions of employment and unemployment state regulation are establishment of balance between demand and supply in labor market, creation of search and information system capable of finding job-seekers more quickly, to facilitate economic development of regions, to increase level of income, to increase share of oil revenues to human capital.**

**Scientific-practical significance of results: Theoretical significance of dissertation work is that studies, analyzes, and conclusions made during writing of research reveal how deep employment and poverty problems are related to other areas of economy.**



**Keywords: unemployment, economically active population, employed population, labor market, workforce.**

# MÜNDƏRİCAT

**GİRİŞ**.....................................................................................................6

**I FƏSİL.İŞSİZLİYİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNƏ DAİR NƏZƏRİ-METODOLOJİ YANAŞMALAR**.....................................................**10**

1.1 İşsizliyin elmi-nəzəri əsasları............................................................10

1.2 İşsizliyin növləri və ölçülməsi metodikası.........................................23

1.3 İşsizliyin dövlət tənzimlənməsi mexanizmləri...................................32

**II FƏSİL.AZƏRBAYCANDAİŞSİZLİYİN DÖVLƏT TƏNZİMLƏN-MƏSİNİN VƏZİYYƏTİ**..............................................................................**37**

2.1 Ölkəmizdə işsizliyin cari vəziyyətinin təhlili.....................................37

2.2 İşsizliyin tənzimlənməsi üzrə həyata keçirilən dövlət proqramları və normativ sənədlərin icra vəziyyəti.........................................................................45

2.3 İşsizliyin aradan qaldırılması üçün institusional dəyişikliklər və informasiya resurslarından istifadə vəziyyəti...................................................58

**III FƏSİL. İŞSİZLİYİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİİSTİQAMƏTLƏRİ.............................................. 63**

3.1 Struktur işsizliyin aradan qaldırılması sahəsində həyata keçirilən dövlət tədbirlərinin təkmilləşdirilməsi...................................................................63

3.2 Regional işsizlik və gənclər arasında işsizliyin aradan qaldırlması yolları.......................................................................................................72

**NƏTİCƏ VƏ TƏKLİFLƏR**.......................................................................87

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT** .........................................................90

**ƏLAVƏLƏR................................................................................................ 94**

**Şəkillərin siyahısı.................................................................................... 96**

**Qrafiklərinsiyahısı.................................................................................. 96**

**Cədvəllərin siyahısı ................................................................................ 96**

# GİRİŞ

**Mövzunun aktuallığı:** İstənilən fəaliyyətin uğurlu inkişafı ilk növbədə yüksək ixtisaslıvə peşəkar kadr heyətinin mövcudluğundan asılıdır. Əhalinin ölkəmizin qanunvericiliyinə zidd olmayan, şəxsi və ictimai tələbatlarının ödənilməsi ilə bağlı olan və bir qayda olaraq qazanc gətirən hər hansı bir fəaliyyətlə məşğul olması onların yaşayış mənbəyi olub, sosial əmin-amanlığın mühüm şərtlərindən birini təşkil edir. Əmək qabiliyyətli əhalinin işsiz qalması cəmiyyətdə bir çox sosial-iqtisadi problemlərin yaranmasına səbəb olur. Buna görə də əmək qabiliyyətli əhalinin işlə təmin edilməsi qarşıda duran mühüm vəzifələrdən biri hesab olunur. Dövlət bazar iqtisadiyyatı şəraitində bir tərəfdən kütləvi işsizliyin yaranmasına yol verməmək üçün müəyyən tədbirlər görməli, digər tərəfdən iqtisadiyyatda baş verən struktur dəyişiklikləri ilə əlaqədar artıq olan işçi qüvvəsinin yeni işlə təmin edilməsinə şarait yaratmağa çalışmalıdır. Bu zaman ölkədə və regionlarda işsizlik səviyyəsinin və ona təsir edən amillərin müəyyən edilməsi və tənzimlənməsi,insan resurslarının səmərəli idarə edilməsi, o cümlədən kadrların seçilməsi, hazırlanması, işə qəbul olunması, yerləşdirilməsi və yerdəyişməsi, karyera yüksəlişinin planlaşdırılması, peşəkarlıq səviyyəsinin artırılması, habelə bu fəaliyyətin təkmilləşdirilməsi üzrə tədbirlərin həyata keçirilməsi, bu istiqamətdə bir sıra normativ sənədlər qəbul edilməsi və ya təkmilləşdirilməsivacib məsələlərdən biridir.Əmək ehtiyatlarından daha dolğun istifadə etmək və əhalinin səmərəli məşğulluğunu təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 oktyabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)" təsdiq olunmuş, Məşğulluq Strategiyasının reallaşdırılmasını təmin edən Dövlət Proqramı hazırlanmış və bu sənəd cənab Prezidentin 2007-ci il 15 may tarixli sərəncamı ilə təsdiq edilmişdir.Müvafiq normativ sənədlərin icrasıişsizliyin aradan qaldırılması istiqamətləri üzrə yeniiş yerlərinin açılması, həmin yerlərə kadr ehtiyatını təmin etmək və əhalinin işsizlik problemlərini həll etmək vəzifəsini qarşıya qoyur. Son

illər ölkə başçısı tərəfindən yeni, daimi iş yerlərinin açılmasını diqqətdə saxlaması bu prosesin uğurla həyata keçirildiyini təsdiqləyir.

İqtisadi inkişafın istənilən mərhələsi üçün xarakterik olan işsizlik problemi daim dövlətin diqqətində olsa da nəzərə almaq lazımdır ki, işsizliyin və onun nəticələrinin tənzimlənməsi üçün vasitələr sosial-iqtisadi əlaqələrin inkişafı ilə bərabər təkamül edir.Son dövrdə iqtisadiyyatın dinamikasının, istehsal həcmlərinin azaldılmasına və nəticədə iş yerlərinin azalmasına səbəb ola biləcək qlobal iqtisadi böhranın ölkəmiz üçün mənfi təzahürü ehtimalı müzakirə obyekti olmuş və ölkə iqtisadiyyatı üçün işsizlik problemini n artmasına yol verməmək məsələləri aktual olaraq daha çox gündəmə çıxarılmışdır. Bu vəziyyət işsizliyin və onun yaratdığı sosial və iqtisadi nəticələrin tənzimlənməsi üçün yeni, elmi əsaslı istiqamətlərin inkişaf etdirilməsini, işsizliyin analitik araşdırılmasına yeni yanaşmaların formalaşmasını tələb edir ki, bu da magistr dissertasiya işinin mövzusunun aktuallığını bir daha təsdiqləyir.

**Problemin qoyuluşu və öyrənilməsi səviyyəsi:** Milli iqtisadi inkişafın təmin edilməsində işsizlik problemləri ilə əlaqədar müxtəlif alimlər tədqiqtlar aparmaqla çoxsaylı monoqrafiya, dərslik və dərs vəsaitləri, elmi məqalələr dərc etmişdir. Bu sahədə dünyanın məşhur iqtisadçı alimlərindən - məşğulluq, əmək bazarının formalaşması və işləməsinin ümumi problemləri üzrə A.Smit, D.Ricardo, T.R.Maltus, K.Marks, A.Marşall, A.Piqu, M.İ.Tuğan-Baranovski, A.V.Çayanov, V.P.Vorontsov, V.Leontyev və digərlərinin, işsizliyin qaynaqları və səbəbləri, məşğulluq tənzimləmə vasitələri C.M.Keyns, R.Harrod, M.Spence, G.Bekker, D.Minzer, T.Şulz, D.Gibbs, V.Ouken, O.Toffler, A.Fillips, M.Fridman, F.A.Hayek, P.M.Solou, L.A.Kostin, B.M.Genkin, L.O.İlyina və digərlərinin xidmətləri böyükdür. Yerli alimlərdən Z.Ə.Səmədzadə, A.A.Nadirov, Ş.Muradov, Ə.X.Nuriyev, N.İmanov, M.Q.Meybullayev, I.N.Alıyev, I.A.Kərimli, T.Ə.Quliyev, S.I.Səfərov, G.A.Əzizova, R.Ş.Muradov, A.Ş.Şəkərəliyev, və digərlərini qeyd etmək olar. Tədqiqatçılar əmək bazarı, işsizlik problemlərinin müxtəlif aspektlərini araşdırmaqla diqqəti cəlb edən nəticələr əldə etmişlər. Lakin işsizliyin aradan

qaldırılmasının müsir informasiya və bilik iqtisadiyyatının, postindustrial inkişaf tipində rolu və davamlı inkişafı təmin etmə baxımından reallaşmasında tənzimlənmə mexanizm və vasitələrinə dair xüsusi tədqiqatlara ehtiyac var. Odur ki, davamlı inkişafa keçid şəraitində işsizliyin tənzimlənmə məqsədi,vasitələri məsələlərinin tədqiqi əsas vəzifə kimi qarşıya qoyulmuşdur və bu siyasətin əsas istiqamətlərinin dövlət tərəfindən idarəedilməsi və tənzimlənməsinin elmi-metodoloji cəhətdən əsaslandırılmasına ehtiyac duyulur.

**Tədqiqatın məqsəd və vəzifələri:** İşsizliyin tənzimlənməsi ilə bağlı dünyada toplanmış təcrübə, müvafiq metodlar, göstəricilər sistemi öyrənilərək onların respublikamız üçün əhəmiyyət kəsb edən inkişaf meylləri müəyyənləşdirilməlidir.

Daha ətraflı aşağıdakı məsələlər tədqiq olunmalıdır:

- Ölkəmizdə işsizliyin cari vəziyyətinin təhlili aparılmalı;
- İşsizliyin tənzimlənməsi üzrə həyata keçirilən dövlət proqramları və normativ sənədlərin icra vəziyyəti araşdırılmalı;
- İşsizliyin aradan qaldırılması üçün instusional dəyişikliklər və informativ resurslardan istifadə vəziyyəti müəyyənləşdirilməli;
- Struktur işsizliyin aradan qaldırılması sahəsində həyata keçirilən dövlət tədbirlərinin təkmilləşdirilməsi üzrə təkliflər verilməli;
- Regional işsizlik və gənclər arasında işsizliyin aradan qaldırlması yolları ilə bağlı tövsiyyələr irəli sürülməli.

**Tədqiqatın obyekti və predmeti**: Tədqiqatın obyekti kimi milli iqtisadiyyat götürüləcəkdir.

**Tədqiqat metodları:** Tədqiqatda sistemli və müqayisəli təhlil, məntiqi ümumiləşdirmə və qruplaşdırma metodlarından, inkişafda olan və inkişaf etmiş ölkələrin təcrübələrindən istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası:** İnformasiya bazası kimi Prezidentin qəbul etdiyi fərman və sərəncamlar, Milli Məclisin qəbul etdiyi qanun və digər normativ aktlar, hökumət və dövlət orqanlarının, o cümlədən, İqtisadiyyat Nazirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Dövlət Statistika Komitəsinin

məlumatları və bir sıra yerli və xarici iqtisadçı-alimlərin əsərləri, gündəlik mətbuat materiallarından istifadə edilmişdir.

**Tədqiqatın məhdudiyyətləri:** İşdən çıxanların işsiz statusu alan zaman onların məcburi işsiz olmasını əks etdirən heç bir statistika yoxdur, əksər hallarda iş yerləri ərizə ilə tərk edilir. Bu da məcburi işsizliklə bağlı statistikanın aparılmasında çətinlik yaradır.

**Nəticələrin elmi-praktiki əhəmiyyəti:** Dissertasiyanın elmi-praktiki əhəmiyyəti aparılan araşdırmalar, analizlər, müqayisələr, eləcə də işin yazılması zamanı işsizliyin yüksək səviyyədə olmasının iqtisadiyyatın digər sahələri ilə necə dərindən bağlı olmasındadır.

**Dissertasiya işinin strukturu və həcmi:** Disertasiya işi giriş, üç fəsil, nəticə və təkliflərdən, əlavələrdən və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Ümumi 96 səhifədən ibarətdir.

# I FƏSİL. İŞSİZLİYİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNƏ DAİR NƏZƏRİ-METODOLOJİ YANAŞMALAR

## 1.1.İşsizliyin elmi-nəzəri əsasları

Müasir dövrdə dünyada müşahidə olunan qlobal problemlərdən biri işsizlikdir. 2017-ci ildə dünya üzrə işsizlərin sayı 192 milyon olmuşdur ki, bu da dünya əhalisinin 5,6%-i qədər idi (bax: şəkil 1).

**Şəkil 1: 2017-ci ildə dünya üzrə işsizliyin vəziyyəti**






**Mənbə:**http://databank.worldbank.org/data/reports.aspx?source=2&series=SL.UEM.TOTL.ZS&country

Beynəlxalq Əmək Təşkilatının proqnozlarına görə, 2018-2019-cu illərdə də işsizlik yüksək olaraq qalacaq. Məlumdur ki, 2017-ci ildə iqtisadi artım ekspertlərin gözləntilərini üstələdi, lakin BƏT-in "2018-ci ildə dünyada məşğulluq

və sosial müdafiə perspektivləri" müəllifləri qeyd edirlər ki, qlobal iqtisadiyyatın uzunmüddətli perspektivləri çox əlverişli deyil (http://www.ilo.org/global/about-the-ilo/newsroom/news/WCMS_615590/lang--en/index.htm).

2017-2018 illərin müsbət meyillərini, BƏT inkişaf etmiş ölkələrin əmək bazarlarının yüksək dərəcələri ilə bağlayır. Proqnoza əsasən, bu ölkələrdə 2018-ci ildə işsizlik 0,2% azalmalıdır və 5,5% təşkil edəcəkdir. Eyni zamanda, inkişaf etməkdə olan ölkələrdə, məşğulluğun artımı işçi qüvvəsinin artımından geri qalacaq.

Problemin səbəbini aydınlaşdırmaq məqsədi ilə ilk növbədə, "işsizlik nədir?" sualına cavab verməyə çalışaq.

Bazar iqtisadiyyatının inkişafının və funksionallığının qorunmasını təmin edən əsas amillərdən biri iqtisadi cəhətdən faəl əhalidir. İqtisadi cəhətdən fəal şəxslər iki yerə bölünməkdədir: -məşğul şəxslər; -işsiz şəxslər.

**Məşğul şəxslərə** istənilən ödənişli işdə çalışanlar, eləcə də, müxtəlif səbəblərdən (tətil, məzuniyyət, xəstəlik) işə çıxmayan şəxslər aiddir.

**İşsiz şəxslərə** hazırda işi olmayan, iş axtarışında olan iş faəliyyətinə yararlı şəxslər aiddir. Burada əsas məsələ, şəxsin işinin olmaması deyil, iş axtarışında olmasıdır.

İşsizlərə aşağıda qeyd edilən kateqoriyalara uyğun şəxslər aid edilir:

a) İşləməyən şəxslər;

b) İş axtaran şəxslər;

c) İşə başlamağa hazır olan şəxlər.

İşsizləri aşağıdakı qruplara ayırmaq mümkündür:

1. Qismən məşğulluq. Rəsmi statistika yarım iş günü məşğul əhalini tam məşğul əhali kimi nəzərə alır. Bəziləri öz seçimi əsasında qismən məşğulluğu seçir, digərləri tam iş günü ilə çalışmaq istəyir, lakin uyğun iş tapmadıqda qismən məşğulluğu seçmə məcburiyyətində qalır, bir başqaları isə tam iş günü üzrə iş fəaliyyətinə tələbatın azalması və ya olmaması səbəbindən yarım iş günü üzrə iş fəaliyyətini davam etdirir.

2. İş tapmağa ümidini itirmiş şəxslər. İşsiz sayılmaq üçün fəal iş axtarışında olmaq lazımdır. Fəal iş axtarışında olmayan şəxslər **“işçi qüvvəsinə daxil olmayan şəxslər”** qrupuna aid edilir. İş burasındadır ki, bəzi insanlar müəyyən müddət ərzində fəal iş axtarışında olub, lakin iş tapmadıqda, iş tapmağa ümidini itirir və işçi qüvvəsi sıralarından çıxır.

3. Yalnış informasiya. Bəzi insanlar fəal iş axtarışında olmadıqda belə, sorğular zamanı iş axtarıb tapa bilmədiklərini qeyd edirlər. Bu zaman onlar “işçi qüvvəsinə daxil olmayan şəxslər” kimi deyil, işsiz şəxslər kimi qeydiyyata alınır v işsizlik müavinəti alırlar.

Yuxarıdakı bölgüdən göründüyü kimi, işsizlərə yalnız işləməyən şəxslər deyil, həmçinin iş yerlərini könüllü olaraq tərk edənlər, yeni iş tapmağa cəhd edənlər də daxildir.

İşsizlik, ictimaiyyətin hər bir fərdinə öz təsirini göstərən sosial-iqtisadi bir fenomendir. İşsizliyin iqtisadiyyatının xarakteri kimi bir çox nüansları var. Belə ki, aşağı işsizlik səviyyəsi ölkədə yoxsulluğu gizlədə bilər. Lakin işsizlik əhəmiyyətli səviyyədə olan ölkələrdə iqtisadi inkişaf yüksək səviyyədə müşahidə edilə bilər. O da məlumdur ki, işsizlik və sosial müavinətlər olmayan ölkələrdə - insanlar etibarsız və qeyri-sabit bir işə razılaşır. Yaxşı inkişaf etmiş sosial müdafiə sistemi olan ölkələrdə isə insanlar uyğun və ya istədikləri işi gözləyə bilər. Buna baxmayaraq, yüksək və davamlı işsizlik resursların səmərəsiz bölgüsünü göstərir.

İşsizlik həm sosial, həm iqtisadi problemdir. O, sosial problem olaraq, həyat tərzini, yaşayış imkanlarını çətinləşdirir, iqtisadi problem kimi isə maddi resursların artıq məsrəfinə gətirib çıxarır, insanların maddi rifahının aşağı düşməsi ilə nəticələnir.

Araşdırmalardan məlum olur ki, iqtisadi ədəbiyyatlarda işsiz, yaxın keçmişdə iş axtaran və işə başlamaq üçün hazır olan şəxslərdir. İşsiz iş itirilmiş və ya işdən könüllü ayrılan insanlardır. Həmçinin işsiz iş axtarmayan, lakin gələcək iş barədə razılığı alan insanlardır.

“İşsizlik kimi yaşlı 15 və yuxarı olan əmək qabiliyyətli, muzdla işləməyən və öz-özünü işlə təmin etməyib, lakin ödənişli iş üçün əlçatan olan və ya bu istiqamətdə addımlar atan əhalinin faizidir” (http://hdr.undp.org/sites/default/files/hdr_2016_report_russian_web.pdf).

Müxtəlif mənbələrdə işsizliyə yanaşma tərzi fərqlidir və biz onlardan bir neçəsini qeyd etmək istərdik.

*İşsizlik – bazar iqtisadiyyatının ayrılmaz bir hissəsdir. İşsiz əhali dedikdə, əmək qabiliyyəti yaşına çatmış, işləməyən və qanunvericiliklə müəyyən edilmiş müddətdə iş axtaran şəxslərdən ibarət olan əhalinin bir hissəsi nəzərdə tutulur. İşçi qüvvəsinin bir hissəsinin (iqtisadi cəhətdən fəal əhali) məhsul və xidmətlərin istehsalında iştirak etməməsi işsizlik sosial-iqtisadi fenomeninə gətirib çıxarır* (Оукен В., 2005:s. 314).

*İşsizlik – ölkənin işləmək istəyən iqtisadi cəhətdən fəal əhalisinin az və ya çox bir hissəsinin iqtisadi səbəblərdən məşğulluğunun olmamasıdır. Nəzəri olaraq işsizlik işçilər və işəgötürənlər arasında insanın təbii hüququ olan işləmək hüququnun, iş qabiliyyətinin həyata keçirilməsi baxımından əlaqəni ifadə edən sosial-iqtisadi bir kateqoriyadır* (http://www.e-qanun.az/code/7).

Rus iqtisadçı-alimi A.Popova görə, “işsizlik – işçi qüvvəsinin (iqtisadi cəhətdən fəal əhalinin) məhsul və xidmətlərin istehsalı ilə məşğul olmayan hissəsini bildirən sosial-iqtisadi məhfumdur. Məşğul əhali ilə işsizlərin sayının cəmi ölkənin işçi qüvvəsini formalaşdırır. İşçi qüvvəsinə olan tələb təklifdən az olduqda işsizlik yaranır”(Попов А., 2005).

Nəhayət İ.Romanenko bildirir ki, işsizlik – iqtisadiyyadın elə bir vəziyyətidir ki, orada əmək qabiliyyəti olan, işləmək istəyən insanlar ixtisasına görə uyğun iş və yaxud ümimiyyətlə iş tapa bilmir (Романенко И., 2000). Uyğun (layiqli) iş dedikdə, işçinin təhsilinə, kvalifikasiyasına, iş təcrübəsinə və işçi bacarığına cavab verən, işçinin yaşadığı coğrafi əraziyə yaxın olan və tələb olunan ixtisasın ortalama səviyyəsinə uyğun olan iş növü nəzərdə tutulur. Bununla bağlı BƏT baş direktoru Qay Rayder (Guy Ryder): "Dünyada işsizlik dərəcəsi sabitləşsə də layiqli iş defisit olaraq yüksəkdir: qlobal iqtisadiyyatda kifayət qədər iş yerləri yaradılmır. Əlavə səylərə ehtiyac var, işi olanlar üçün iş şəraitinin yaxşılaşdırılması, artımın

nəticələrinin ədalətli paylanmasını təmin etmək lazımdır" deyə bildirib. (https://www.ilo.org/moscow/news/WCMS_483128/lang--ru/index.htm).

İqtisadiyyatda işsizlik aşağıdakı rolları oynayır:

**1. İşçi qüvvəsinin ehtiyyatı;**

**2. Əmək haqqı səviyyəsinin artırılması;**

**3. Sosial sanitar rolunun oynanılması (şəffaf kadr seçimi).**

Məşhur amerikalı iqtisadçı A. Oukenin fikrincə, işsizliyin faktiki səviyyəsi onun təbii səviyyəsindən artıq olduqda, cəmiyyət ümumdaxili məhsulun enməsini müşahidə edir. İşsizliyin faktiki səviyyəsinin təbii səviyyəsinə nisbətən 1% artması ümumdaxili məhsulun 2,5% azalması deməkdir (Ouken qanunu) (ОукенВ., 2005).

İşsizlik məhfumunu səciyyələndirən kateqoriyalar aşağıdakılardır:

1) İşdən azadolunma nəticəsində iş yerlərini itirən şəxslər;

2) İş yerlərini könüllü olaraq tərk edən şəxslər;

3) Müəyyən fasilədən sonra əmək bazarına üz tutan şəxslər; 4)Əmək bazarına ilk dəfə müraciət edən şəxslər.

Əmək bazarı – tələb və təklifin qarşılaşdığı məkandır. Əmək bazarı cəmiyyətin iqtisadi və sosial-siyasi həyatına vacib təsir göstərən sahədir. Əmək bazarında işçi qüvvəsinin dəyəri qiymətləndirilir, əmək şəraiti, əmək haqqının məbləği, təhsil almaq imkanları, məşğulluğun təminatı, kvalifikasiya artımı imkanları və s. müəyyən edilir.

Əmək bazarının tənzimlənməsinin əsas şərti işəgötürənlər ilə işaxtaranların maraqlarının üst-üstə düşməsidir. Əmək bazarında cari vəziyyət qiymətləndirə bilmək və sonra yaranacaq şəraiti öncədən təxmin edə bilmək vacibdir.

İşsizliyin səbəblərinin öyrənilməsində müxtəlif nəzəri yanaşmalar mövcuddur. Bunlardan ən geniş yayılmış olanları aşağıdakılardır:

1. Klassik nəzəriyyə (J.Seyin yanaşması)

2. Marjinalizm (U.S Jevonsun tədqiqatı)

3. Əhali çoxluğu (maltusçuluq nəzəriyyəsi);

4. Texniki tərəqqi və texnoloji inkişaf (“texnoloji işsizlik” nəzəriyyə);

5. Kapital yığımı prosesi (marksist nəzəriyyəsi);

6. Bazar tələbi qıtlığı (Keynsin "tam məşğulluq" nəzəriyyəsi);

7. Monetarizm (M. Fidmenin yanaşması)

8. Neoklassik sintez (P. Samuelsonun yanaşması)

9. İnstitusionalizm (C.Gelbreytin yanaşması)

10. Məşğulluğun kontrakt (müqavilə) nəzəriyyəsi (D.Qordon, M.Beyli və K.Azariadisin yanaşması)

11. Əmək haqqı səviyyəsinin yüksək olması ("azad sahibkarlıq" nəzəriyyəsi).

İqtisadiyyat çərçivəsində işsizliyin ilk əsərləri və ideyaları 18-ci əsrə və **klassik** siyasi iqtisadiyyatın nümayəndələrinə aiddir. Sey birbaşa qeyd edirdi ki, dövlətin hərəkətləri ("bir növ müharibə, bir sıra yeni gömrük qanunları"), bir qayda olaraq, kütləvi işsizliyin səbəbi olur(РоманенкоИ., 2000). Eyni zamanda əmək bazarında birbaşa dövlət müdaxiləsinin və işsizləri dəstəkləmək üçün birbaşa tədbirlərin ("müvəqqəti pul köçürmələri heç bir şeyə gətirib çıxarmayacaq - yalnız fəlakət başlanğıcının vaxtını təxirə salacaq") səmərəsizliyi bildirilirdi. Eyni zamanda, Sey tərəfindən əmək bazarında aktiv dövlət siyasətinin müəyyən tədbirlərinin faydalılığı, məsələn, sənayenin inkişafını stimullaşdıran yeni iş yerlərinin yaradılması, qəbul edilirdi. Lakin klassik məktəbin nümayəndələri tsiklik işsizlik anlayışını rədd edir və alternativ olaraq, azad bazarın "görünməz əl"i vasitəsilə işsizliyə və resursların tam istifadə edilmədiyinə əvvəlcə əmək haqqının azaldılması və sonra məşğulluğun artımı hesabına tez reaksiya verdiyini bildirirlər(Фишер С., Дорнбуш Р., Шмалензи Р., 1993).

Erkən **marjinalizm** çərçivəsində təbii işsizlik dərəcəsi kimi bir anlayış yaradılmışdır. U.S Jevonsun bu sahədə təqdiqatları diqqəti çəkir. O, son tətbiq edilən əməyin mənfi təsirini ilə tətbiq edilən əməyin sonuncu vahidinin gətirdiyi faydanın müsbət təsirini müqayisə etdi. U.S Jevons qeyd edir ki, tarazlıq əldə olunandan sonra işi davam etdirmək qeyri-qənaətbəxşdir - bir insanın istehsal edə biləcəyi əlavə məhsul əlavə səylərin yorğunluğunu kompensasiya etmir(Lewis P., 2004).

**Maltusçuluq nəzəriyyəsi** ingilis iqtisadçı alimi T.F. Maltusun adı ilə adlandırılıb. O, 1798-ci idə yazdığı "Əhali qanunu haqqında təcrübə" əsərində bildirir ki, işsizliyin və kütlələrin yoxsulluğunun səbəbi əhalinin sayının istehlak məhsullarının istehsalı ilə müqayisədə daha sürətli artmasıdır. Əhalinin sayı həndəsi proqressiyada artır, istehlak məhsulları isə arifmetik. Bu səbəbdən dünyada həddən çox insan yaşamaqdadır. Bunun həll yolu isə müharibələr, epidemiyalar, doğumun dövlət tərəfindən nəzarətə alınmasıdır. Tələbə əsaslanan nəzəriyyəyə görə məhsul və işçilərə ümumi tələbatın artması ilə dövri işsizlik aradan qaldırıla bilər. Bununla belə, sonda iqtisadiyyat "inflyasiya maneəsi" ilə qarşılaşır ki, bu da digər işsizliyin törəməsinə səbəb olur.

Digər geniş yayılmış nəzəriyyə isə işsizliyin əsas səbəbinin texniki tərəqqi olduğunu bildirən **"texnoloji işsizlik"** nəzəriyyəsidir. Bu nəzəriyyənin əsası 1954-cü idə Vyanada keçirilmiş diskussiyalar zamanı qoyulmuşdur. Keçirilən diskussiyaların əsas mövzusu "Tam məşğulluğun təmin edilməsinin vasitə və yolları" idi.

Qərb iqtisadiyyat ədəbiyyatında işsizlik – resursların istifadəsinin iqtisadi məqsədəuyğunluğunu və səmərəliliyini əks etdirir. Bu, əmək bazarında struktur qeyribərabərliklə xarakterizə edilən işsizliyin təbii səviyyəsi ilə sübut edilir (Грязнова А., Чечелева Т., 2004).

**Marksist nəzəriyyəsi** də öz növbəsində işsizliyin əsas səbəbini bunda görür. Sabit sərmayənin (kapital – avadanlıq) cəm məbləği, dəyişən sərmayənin (canlı əmək) cəm məbləğindən daha sürətli artır. Deməк, istehsal prosesinin mexanikləşdirilməsi və avtomatlaşdırılması sonda işsizliyə gətirib çıxarır. Bu yanaşmaya əsaslanaraq, XIX əsrdə "Kompensasiya nəzəriyyəsi" meydana gəlmişdir. Bu nəzəriyyənin tərəfdarlarının fikrincə maşınların istehsalın bir sahəsindən sıxışdırdığı işçilər digər sahələrdə iş qüvvəsinə olan əlavə tələbin ödənilməsi yolu ilə kompensasiya edilir.

İşçi qüvvəsinə olan tələbin azalması iş yerlərində çalışan işçi sayının azalmasına və yekunda istehsal edilən istehlak məhsullarının və onlara olan

tələbatın azalmasına gətirib çıxarır. Bundan başqa sərmayənin yenilənməsi yeni müstəvidə həyata keçir, bu isə öz növbəsində işçi qüvvəsinə olan tələbatın azalmasına gətirir. Marksist nəzəriyyəsinə görə işsizlik təsadüfi bir hadisə deyil, sərmayə artımın nəticəsidir. Marksist nəzəriyyəsinin əksinə, qərb iqtisadi nəzəriyyəsi mal və xidmətlərin yaradılması prosesində istehsalın bütün amillərinin bərabər iştirakı olan canlı əməyin rolunu təsvir edir. Bu o deməkdir ki, bütün subyektlər istehsal prosesində iştirak edir, milli məhsulun və milli gəlirin yaranmasında öz töhfəsini verir və bunun müqabilində müvafiq mükafat almaq hüququna malik olurlar. Öz növbəsində, hər bir iştirakçı bərabər hüquqlara malik olur, bu isə istehsal prosesində istismarın qarşısını alır. Başqa sözlə desək, marksizm, işsizliyin səbəbini kapital yığımı prosesində görür.

İşsizlik konsepsiyası əhalinin artması ilə səciyyələndirilir. Marksist məşğulluq nəzəriyyəsinə əsasən, əhalinin artması fenomeni təklif edilən işçi sayının işçi qüvvəsinə olan tələbatdan çox olduğu zaman yaranır. Daha çox kapitalizm dönəmində yaranan işçi qüvvəsinin artıqlığını, başqa sözlə ifadə etsək "rezerv işçi orudusunu" K. Marks "əhalinin artması fenomeni" adlandırmışdır.

Müasir ədəbiyyatda geniş yayılmış nəzəriyyələrdən biri də C.M. Keynsin **"tam məşğulluq" nəzəriyyəsidir**. Məşhur ingilis iqtisadçısı C.M. Keyns özünün "Məşğulluq, faiz və pulun ümumi nəzəriyyəsi" kitabında kapitalist iqtisadiyyatında məşğulluq səviyyəsini yeni tərzdə təqdim etmişdir. Onun fikrincə kapitalizmdə tam məşğulluğa zəmanət verən heç bir işlək mexanizm yoxdur. Belə qənaətə gəlinmişdir ki, tam məşğulluq qanunauyğun hal deyil, əksinə təsadüfi hadisədir. Kapitalizm heç də sonsuzadək iqtisadi rifahı təmin edən və öz-özünü tənzimləyən sistem deyil. Kapitalizmin "öz-özünə inkişaf etdiyini" guman etmək doğru deyil. Keynsin fikrincə, işsizlik – müvəqqəti fenomendir və onu aradan qaldırmaq mümkündür. İşsizliyin səbəbi – məhsullara olan tələbatın onlara olan təkliflə müqayisədə az olmasıdır. Bu insanların tədarük psixologiyasından irəli gələn bir amildir. Bu isə nəticədə istehsal həcminin azalmasına, realizə edilməmiş məhsul kütləsinin və işsizliyin artmasına gətirir. İşsizlik səviyyəsini dövlət tənzimlənməsi

ilə azaltmaq mümkündür və bunun üçün sərmayələrin artırılması, bank faizlərinin azaldılması, vergilərin aşağı salınması lazımdır.

Keynsin istiqamətini inkişaf etdirən J. Stiqlitz, vergi yükü artdıqca əmək təklifinin azaldığı asılılığa diqqəti çəkir (Стиглиц Дж., 1997). İşsizliyin qarşısını almaq üçün bir tədbir kimi, istehlakçı tələbatının azalmasına kompensasiya kimi dövlət tələbatının artırılması və dövlət xərclərinin artması qeyd edilir. Faiz dərəcəsini və multiplikatorun təsirindən istifadə edərək özəl investisiyaların stimullaşdırılması təklif edilmişdir. Müvafiq maliyyə siyasətinin həyata keçirilməsinin zəruriliyi vurğulandı.

Qeyd edək ki, neoklasik və Keynsin nəzəriyyələri arasındakı münaqişə hökumət siyasətinə böyük təsir göstərmişdir. Hökumətə qarşı olan meyl işsizliyin və dövlət qulluğu, dövlət işi yerlərinin artırılması ilə işsizliyi azaltmaq və aradan qaldırmaq, həm də iş axtaran şəxsin yeni bir karyeranı nəzərdən keçirmək və başqa bir şəhərə keçmək üçün təşviq edilməkdədir.

*XX əsrin 70-ci illərin sonlarında Keynsçi nəzəriyyədə boşluqların olması ortaya çıxdı. Qərbin inkişaf etmiş ölkələrində bu dövrdə staqflasiya fenomeni aşkar edildi - eyni zamanda işsizlik və inflyasiyanın əhəmiyyətli artması müşahidə olundu. Keyns nəzəriyyə çərçivəsində bu fenomen açıqlana bilmədi. Ona alternativ klassik istiqamət çərçivəsində iqtisadi nəzəriyyənin inkişafının davamı oldu. Ən diqqət çəkənlər arasında mövcud monetaristlər və yeni Avstriya iqtisad məktəbi oldu. Monetaristlər "təbii işsizlik nisbəti" haqqında fərziyyə təklif edirlər ki, 4-5% -lik işsizlik iqtisadi cəhətdən məqbul və "təbii" sayılmalıdır*(Scuilli D., Gerhardt U., Etzioni A., 1996:s.302). F.A. Hayek və Avstriya İqtisad Məktəbinin başqa nümayəndələri hökumətin faiz dərəcələri azaltmaqla pul siyasətinə müdaxilə etməsinin bazarın səmərəli cavab üçün imkanlarını azaltdığını, işsizliyin daha da kəskinləşdirəcəyini qeyd edirlər. Yeni Avstriya məktəbinin nümayəndəsi F.A. Hayek, dövlət məşğulluğunu tənzimləmənin mənasız olduğunu qeyd etdi, qısa müddətdə məşğulluğun artmasına gətirib çıxarır. Dövlətin məşğulluğun dəstəklənməsində rolu, onun fikrincə, "məlumat və biliklərin yayılmasına", yəni iş qüvvəsinin mobilliyininartırılmasına yönəlməlidir (Хайек Ф., 1992).

Neoklasik nəzəriyyənin inkişafında ən son tendensiyalardan biri D.F. Mut və R. Lukas tərəfindən hazırlanmış rasional gözləntilər nəzəriyyəsi idi. Onlar qeyd edirlər ki, hökumətlər yalnız nominal dəyişənləri (inflyasiya və digərləri) təsir edə bilərlər, lakin onlar istehsal və məşğulluq kimi real dəyərlərə münasibətdə gücsüzdürlər. Buna görə, antitsiklik siyasətə yer yoxdur.

Keynsin yanaşması və neoklasik nəzəriyyə arasındakı qarşıdurma neoklasik sintezin ortaya çıxmasına - bu iki tendensiyanı barışdırmaq cəhdlərinə gətirib çıxardı. Neoklassik sintezin ən görkəmli nümayəndələrindən biri olan P. Samuelson, işsizliyin baş verdiyi səbəblərə görə friksion, struktur və dövrü işsizliyə bölməyi təklif etdi (Самуэльсон П., 2008).

İnstitusionalizm məktəbin əsas məqsədi işçi qüvvəsinin strukturunda və müvafiq əmək haqqı səviyyələrində peşəkar və sektörel fərqlərin təhlilinə əsaslanır. C.Gelbreyt (J. Galbraith) kimi bir institusionalistin fikrincə, "işsizliyin konsepsiyası illər ərzində keçmiş və mənasını daha da itirir", çünki cəmiyyətin tərkibində sadə əməyi olan insanlar struktur və texnoloji dəyişiklik nəticəsində işsizlər sırasına daxil olur, məsələn, onların gündəlik işi avtomatlaşdırılır (Гэлбрейт Дж., 2004). İnstitusionalizmin nümayəndələri sosial proqramların genişləndirilməsini, təhsilin dövlət himayəsinə verilməsini, səhiyyə, ekologiya, habelə effektiv məşğulluq xidmətlərinin yaradılması və inkişafını, işəgötürənlər və həmkarlar ittifaqları arasında şərait və əmək haqqı haqqında müqavilənin tətbiqinin təkmilləşdirilməsini müdafiə edir. Beləliklə, dövlətin əmək bazarının tənzimlənməsinin rolu ilə bağlı mövqeyinə gəldikdə, onlar Keynsçilərə daha yaxındırlar.

Məşğulluğun kontrakt (müqavilə) nəzəriyyəsi. 1970-ci illərin ortalarında D.Qordon (D.Gordon), M.Beyli (M. Bailey) və K. Azariadis tərəfindən demək olar ki, eyni zamanda inkişaf etdirilmişdir. Əlaqənin müqavilə təbiəti subyektləri əmək bazarı ilə əlaqələndirir.

Keynsdən fərqli olaraq, **“azad sahibkarlıq”** nəzəriyyəsi kortəbii bazar mexanizminin tərəfdarıdır və işsizliyin əsas səbəbini əmək haqqının yüksək olması

ilə izah edir. Bu nəzəriyyəyə əsasən, əmək haqqının artırılması məşğulluğun və işçilərin sayının azalmasına, bu isə öz növbəsində işsizlyə gətirib çıxarır. Bu nəzəriyyənin tərəfdarlarından biri Kembric Universitetinin professoru A. Piqudur. Onun çıxardığı nəticələr bunlardır:

1. İstehsal prosesinə cəlb olunmuş işçilərin sayı ilə əmək haqqı səviyyəsi arasında əks mütənasiblik mövcuddur. Yəni, əmək haqqı nə qədər yüksək olarsa, məşğuluq da bir o qədər aşağı olar;

2. 1914-1918-ci illərdəki Birinci Dünya Müharibəsi dövrünə qədər əmək haqqı işçilər arasında gedən azad rəqabət əsasında formalaşmış, hamının iqtisadi cəhətdən məşğul ola bilməsinə imkan verən səviyyədə qərarlaşmışdır;

3. Birinci Dünya Müharibəsindən sonrakı dövrdə həmkarlar ittifaqlarının rolunun artması və işsizlik müavinətlərinin verilməsi əmək haqqının yüksəlməsinə gətirib çıxarmışdır, bu isə öz növbəsində işsizliyin səbəblərindən birinə çevrilmişdir;

4. Əhalinin tam məşğulluğunu təmin etmək üçün verilən əmək haqqı səviyyəsini aşağı salmaq zəruridir.

İşsizliyin ictimaiyyətin iqtisadi və sosial həyatına təsiri birmənalı deyil.

İşsizlik probleminin əsas müsbət aspektləri kimi aşağıdakıları qeyd etmək mümkündür:

**Birincisi**, işsizlik istehsal həcminin artmasını, yeni müəssisələrin yaranmasını şərtləndirən amil kimi çıxış edir.

Bu amil olmasaydı, torpaq, əmək, sərmayə çatışmamazlığı ucbatından istehsalat sahələrinin genişlənməsi və artması mümkünsüz olacaqdı.

**İkincisi**, işsizlik istehsalatda məşğul şəxslərin nizam-intizamını və onların əməyinin səmərəliyini artıran amil kimi çıxış edir.

İşsizlik sosial hadisə kimi müəyyən nəticələrə gətiriş çıxarır. İşsizliyin sosial tərəfi belədir ki, işsizlik səviyyəsinin az da olsa dəyişməsi ictimaiyyətin sosial həyata dərhal öz mənfi və ya müsbət təsirini göstərir.

Bu zaman yarana biləcək problemləri aşağıda qeyd olunduğu kimi səciyyələndirmək mümkündür:

1. Kriminogen fonun gərginləşməsi;
2. Sosial gərginliyin artması;
3. Fiziki və ruhi xəstəliklərin artması;
4. Sosial qeyri-bərabərliyin artması;
5. Əmək fəaliyyətinin aşağı düşməsi.

Son dövrlərdə aparılan elmi tədqiqatlar sübuta yetirmişdir ki, işsizlik fenomeni ictimaiyyətə emosional, sosial, maddi, mənəvi, ailədaxili, tibbi və siyasi təsirlər göstərməkdədir.

Emosional təsir dedikdə, insanlarda aşağı heysiyyətin, depressiyanın, suiqəsdlərin və psixiatrik müalicəyə ehtiyyacın yaranması nəzərdə tutulur.

Tibbi təsir dedikdə, yaşanan stress nəticəsində yarana biləcək müxtəlif xəstəliklər (xüsusən, ürək və böyrək xəstəlikləri, alkoqolizm və qara ciyər serrozu və s.) nəzərdə tutulur. Aparılan tədqiqatlar sübut edir ki, işçilərin işdən azadolunma haqqında aldıqları məlumatdan öncə arterial qan təzyiqləri normal olduğu halda, bu məlumatı aldıqdan dərhal sonra qan təzyiqləri kəskin yüksəlir və bu hadisə yeni iş yeri tapana qədər müşahidə olunur. İşsizlik nəticəsində yaranan stress insan ömrünün azazlmasına və əhali arasında ölüm səviyyəsinin yüksəlməsinə gətirib çıxarır.

İşsizliyin sosial tərəfi olduğu kimi, həmçinin iqtisadi tərəfi də mövcuddur. İstehsalat prosesləri, əmək resurslarının bölgüsü, ictimaiyyətin sosial-iqtisadi rifahı ilə sıx bağlı olan işsizliyin aşağıda qeyd olunan mənfi iqtisadi nəticələri də mövcuddur:

1. Təhsilin qiymətdən düşməsi;
2. İstehsalın azalması;
3. Xərclərin artımı (işsiz müavinətlərinin artması nəticəsində);
4. İşsiz əhalinin ixtisas səviyyəsinin aşağı düşməsi;
5. Yaşayış səviyyəsinin aşağı düşməsi;

6. Milli gəlirin azalması;

7. Vergi gəlirinin azalması;

8. Digər büdcədaxilolmalarının azalması.

Əksər iqtisadçılar dövlətin iqtisadiyyata müdaxilə cəhdi və iş yerində iş şəraitinin yaxşılaşdırılması üçün tədbirlərinin işsizliyi artırdığını iddia edirlər. Məsələn, minimum əmək haqqı ilə bağlı qanunlar bazar tarazlığından daha çox olan az bacarıqlı işçilərin dəyərini qaldıırır və cari dərəcə ilə (daha aşağı əmək haqqına) işləmək istəyən insanlar əmək haqqının artmasına görə işsiz qalmaq təhlükəsi ilə üzləşir. İşdən azad etməni məhdudlaşdıran qanunlar işə müəssisələr üçün işə qəbul etməni maraqlı etmir və nəticə etibarı ilə bu müəssisələr üçün daha riskli olur. Nəticədə çox gənc işsiz qalır və iş tapa bilmir. Lakin bu arqument tənqidə məruz qalır. Belə ki, bir çox xarici amillər və əmək haqqı dərəcələri ilə işsizlik arasında münasibətlərin həddən artıq sadələşdirilməsi, digər amillərin işsizliyə təsirinə məhəl qoyulmur(Самуэльсон П., Нордхаус В., 2008). Mürrey Rozbard (Murray Rothbard) kimi bəzi digər alimlər, hətta sosial qadağaların, əmək haqqının bazarın şəffaflıq səviyyəsinə qədər azaldılmasının qarşısını almağa malik olduğunu bildirirlər. Qeyd olunur ki, işsizlik əmək bazarında tarazlıq baş verən zaman ola bilər.

Sübut olunub ki, işsizlik görülən əməyin dəyərini bildirən əmək haqqı məbləğinin kəskin azalmasına gətirib çıxarır. Bu isə öz növbəsində işsizlik ilə əmək haqqı arasında əks mütənasibliyin olmasını sübuta yetirir. Söhbət **“Fillips əyrisi”** adlandırılan qrafikdən gedir. “Fillips əyrisi” işsizlik ilə əmək haqqı və qiymət dəyişkənliyi arasında qeyri-xətti əlaqəni göstərir. “Fillips əyrisi” iki seçim təqdim edir: **kəskin və sürətli qiymət artımı şəraitində əhalinin maksimal məşğulluğu və yüksək iqtisadi inkişaf tempi**, yaxud, **müəyyən miqdarda işsizlik şəraitində nisbətən aşağı qiymətlərin mövcudluğu**. Uzun müddət “Fillips əyrisi” ABŞ və Qərbi Avropa ölkələrində sosial-iqtisadi tənzimləmə mexanizminin təməlini təşkil etmişdir. Bir çox halda işsizlik və inflyasiya arasında əks mütənasiblik qorunub saxlanılır, lakin bu iki iqtisadi fenomen arasında düz

mütənasibliyə də rast gəlindiyindən, “Fillips əyrisinin” etibarlı sosial-iqtisadi tənzimləmə mexanizmi kimi istifadəsi şübhə altına alınmış və tənqidlərlə üzləşmişdir. “Fillips əyrisi” qrafik 1-də göstərilmişdir.

Beləliklə, işsizlik təkcə işsiz qalan şəxsə deyil, hər kəsə, ictimaiyyətinin hər bir fərdinə öz mənfi təsirini göstərir. İşsizlik, həmçinin, iş yerlərində keyfiyyətin artmasına, iş şəraitinin yaxşılaşdırılmasına, insanların iş yerlərində sahib olduqları hüquqların genişləndirilməsinə çalışan həmkarlar ittifaqlarına və digər bu tip böyük əmək kollektivlərinə də öz mənfi təsirini göstərir.

**Qrafik 1: Fillips əyrisi**




**Mənbə:** https://kayzen.az/blog/ekonomiks/1995/32.-fillips-%C9%99yrisi.html

Beləliklə, işsizlik fenomeni müxtəlif səbəblərdən meydana gəlir və əsas məqsəd onun qarşısını almaqdan ibarətdir. Lakin, elə hallar vardır ki, işsizliyin tam olaraq aradan qaldırılması qeyri-mümkündür.

## 1.2.İşsizliyin növləri və ölçülməsi metodikası

İstənilən bazar iqtisadiyyatı dəyişkənliyə məruz qalır. Bu dəyişikliyin təsiri altında işsizlik müxtəlif formada təzahür edə bilir. Bunu Cədvəl 1-də aydın görmək olur.

Cədvəl 1 Əlavələr bölməsində təsvir edilmişdir. (Səhifə 95-96)

Cədvəl 1-ə daha geniş şəkildə təhlil edək. İnsanlara fəaliyyət növünün və iş yerinin seçilməsində sərbəstlik verildikdə, bəziləri iş yerlərini könüllü olaraq dəyişir, bəziləri işdən azad olunduqlarına görə yeni iş axtarışına başlayır, digərləri mövsümi fəaliyyət göstərdikləri iş yerlərini (məsələn, əkinçilik fəaliyyətində hava şəraiti pis olduğuna görə) itirirlər. Elə insanlar vardır ki, (bu hal xüsusilə gənclərdə müşahidə olunmaqdadır) yenicə əmək fəaliyyətinə başladıqlarına görə iş axtarırlar.

İqtisadiyyat elmində işsizliyin iki əsas növü vardır – **təbii** və **məcburi**.

Tələb nəzəriyyəsinin tərəfdarları inflyasiya baryerinin təbii işsizlik səviyyəsinə uyğun olduğunu görürlər. "Təbii" işsizlik səviyyəsi əmək bazarı taraz olduqda mövcud olur və nə inflyasiya, nə də inflyasiyaya təzyiq yoxdur. Bu hal üçün alternativ bir texniki termin - NAIRU ya daNon-Accelerating Inflation Rate of Unemployment (İşsizliyin Sürətlənməmiş İnflyasiya nisbəti) istifadə edilir.Bildirilir ki, işsizlik səviyyəsi "çox aşağı" olarsa, əmək haqqı və qiymətləri (gəlir siyasəti) üzərində nəzarət olmasa inflyasiya daha da pisləşəcəkdir (sürətlənir).NAIRU nəzəriyyəsinin əsas problemlərindən biri, heç kimin NAIRU-nun nə olduğunu dəqiq deyə bilməməsidir (baxmayaraq ki, bu zamanla aydın şəkildə özünü göstərir və dəyişir). Xəta marjı, işsizliyin faktiki səviyyəsinə nisbətən çox yüksək ola bilər ki, bu da işsizliyin aradan qaldırılması siyasətidə NAIRU-dan istifadə etməyi çətinləşdirir.

Digər, normativ kimi qəbul edilən işsizliyin ideal səviyyəsi tam məşğulluğun tərifidir. Bu, qeyri-səmərəliliyin formaları olan bütün növ işsizlikləri istisna edir. Bu tip işsizlik tam məşğulluqla əlaqəli olmaqla yalnız friksion işsizliyə uyğun olacaq və bununla da çox aşağı olacaq. Bununla belə, bu məqsədə nail olmaq üçün yalnız NAIRU-nun aşağı düşməməsi və inflyasiyanın sürətlənməsindən (gəlir siyasətinin çatışmazlığı) çəkinmə, yalnız Keynsin stimulunu istifadə etmək kifayət olmayacaqdır. Burada struktur işsizliyə qarşı mübarizə məqsədilə təlim proqramları hazırlanmalıdır.

**Təbii işsizlik** özü iki yerə bölürür: **könüllü işsizlik** və **friksion işsizlik**.

**Könüllüişsizlik** – işçilərin işəgötürən tərəfindən təklif olunan əmək haqqının az olması səbəbindən işləməyə razı olmaması, lakin daha yüksək məbləğdə əmək haqqı təklif olunsa işləyə bilməsindən yaranan işsizlik növüdür.

**Friksion işsizlik** – əhalinin bir regiondan digər regiona müntəzəm köçməsi və ailə vəziyyətinin dəyişməsi ilə bağlı olan iş yerinin dəyişməsindən irəli gələn işsizlik növüdür. Bir insanın iş tapması, digərinin iş yerinin itirilməsinə gətirib çıxarır. Bu isə işsizliyin qalmasına gətirib çıxarır. Bu hadisə **friksion işsizlik** adlanır. İşsizliyin bu forması müəyyən dərəcədə arzuolunan və qaçılmazdır, çünki işçilərin bir çoxu, bəlkə də hamısı, az maaş verilən işdən çox maaş verilən, daha az məhsuldar işdən daha yüksək məhsuldarlığı olan işə keçməyə çalışır, yaxud yaşadığı coğrafi ərazilərdəki iş yerlərində işləməyə üstünlük verirlər. Deməli, əhalinin yerdəyişməsi, bir işdən başqa işə keçməsi halının qarşısını tam olaraq almaq mümkün deyil, buna görə də, friksion işsizliyi də tam aradan qaldırmaq mümkün deyildir.

**Məcburi işsizliyə** texnoloji, dönüşümlə bağlı olan və dövri işsizliklər aid edilir. Ancaq aqrar yönümlü ölkələrdə məcburi işsizlik anlayışı mövcud deyil və az inkişaf etmiş, Afrika və Hindistan, Pakistan kimi ölkələrin meqapolislərində məcburi işsizlik rəsmən tanınmır. Belə cəmiyyətlərdə işləməyən bir adam yaşamaq üçün ehtiyacını hər hansı yeni bir iş əldə etməklə, yaxud sahibkar olmaqla təmin etməlidir.

**Texnoloji işsizlik** – istehsalın modernləşdirilməsi və yeni texnologiyaların istifadəsi nəticəsində iş yerlərinin azalması ilə bağlıdır. Texnoloji işsizlik elmitexnoloji tərəqqidən meydana gələn amildir və nəticədə müəyyən fəaliyyət sektorları sıradan çıxır, digərləri isə inkişaf edir.

**Dönüşümlə bağlı işsizlik** – hərbi-sənaye kompleksi sahələrinin azaldılması və onların fəaliyyət istiqamətlərinin dəyişdirilməsi nəticəsində yaranır.

Texnoloji və dönüşümlə bağlı işsizlik **struktur işsizliyə** gətirib çıxarır. **Struktur işsizlik** – işçi qüvvəsinə olan tələb və təklif arasında olan uyğunsuzluğa görə əhalinin iş ilə təmin olunmasının mümkünsüzlüyündən yaranır.

**Dövri (tsiklik) işsizlik** – iqtisadi tənəzzüldən təsirlənən regionlarda işsizlərin sayının boş (vakant) iş yerlərinin sayından çox olması nəticəsində iş tapmağın mümkünsüzlüyündən irəli gəlir.

Bundan başqa iqtisadiyyatda mövsümi və gizli işsizlik anlayışları da mövcuddur.

**Mövsümi işsizlik** – ilin fəslinə uyğun olaraq bəzi sənayelərin istehsalında dalğalanmalara səbəb olur: bəzi tikinti növləri, əkinçilik işi, maldarlıq, sənətkarlıq və s. müəyyən mövsümlərdə məşğulluğu təmin edə bilən sahələr.

**Gizli işsizlik** – əsasən aqrar ölkələr üçün xarakterikdir. Gizli işsizlik sənaye istehsalında və əhalinin satın alma gücündə azalma, iş saatlarının məhdudlaşdırılması və azaldılması, yaxud işçilərin uzunmüddətli ödənilməyən məzuniyyətə göndərilmələri ilə nəticələnən sərmayə çatışmamazlığı nəticəsində yaranır.

İqtisadiyyat elmində işsizlik fenomeninin ətraflı təsviri üçün **təbii işsizlik səviyyəsi** anlayışından istifadə edilir. Məşğulluğun ən yüksək həddi kimisəciyyələndirilən təbii işsizlik səviyyəsi, qiymətlərin və əmək haqların qalxmasına v enməsinə təsir edən amillərin tarazlığına əsasən müəyyən edilir.

**Təbii işsizlik səviyyəsi** – hər zaman sfırdan böyükdür və təbii işsizliklə struktur işsizlik səviyyələrinin cəmidir.

Gənclər arasında işsizlik  bir çox ölkələrdə mühüm siyasi məsələyə çevrilmişdir. Bu gün gənc kişi və qadınlar artan qeyri-müəyyənlik ilə qarşı-qarşıyadır.  Onlar əmək bazarında qənaətbəxş olmayan halın ortadan qaldırılmasına ümid edir. Lakin bu qeyri-müəyyənlik və məyusluq bütövlükdə şəxslər, icmalar, iqtisadiyyat və cəmiyyət üçün zərərli ola bilər(Башкатов Б., 2001).

Bəs İşsizlik necə hesablanır? Müvəqqəti işsiz və ya ilk dəfə iş axtaran şəxslər kimlərdir?  Bu suala cavab və işsiz meyarları müxtəlif ölkələrdə fərqlidir. Məsələn, kənd təsərrüfatında məşğulluq və işsizliyi qiymətləndirmək xüsusilə çətindir. Kənd təsərrüfatı sektorunda qiymətləndirməyənin aparılmasına mövsümi işsizlik səviyyəsi təsir edir. Əmək bazarının formal rəsmiləşdirilmə olan bir hissəsində

işçilərin məşğulluq səviyyəsini hesablamaq da çətindir. Bundan əlavə, əmək bazarında məhdud təkliflər olduğunu nəzərə alaraq fəal iş axtarmayan, lakin işləmək istəyən insanlar ola bilər ki, onlarda əmək mobilliyi aşağıdır və ya insanlar əmək bazarında ayrı-seçkilik, sosial, struktur və mədəni maneələr ilə üzləşirlər ki, bu da diskriminasiyaya səbəb ola bilir. Həmçinin "gizli işsizliyi" nəzərə almaq lazımdır ki, bu da əslində iqtisadiyyatının böhran dövründə insanların işləməməsinin ümumi bir fenomeni kimi qeyd edilir. Hansında ki, insanlar işləmir, lakin formal olaraq məşğul hesab edilir və ya işləmə yaşında insanlar işləmək istəyir, amma “ruhdan düşmüş işçi" kimi iş axtarma fəaliyyətini dayandırıb.
Ölkədə işsizliyin səviyyəsi düzgün müəyyən etmək üçün işsizlərin ümumi sayını və ümumi işçi qüvvəsini dəqiq müəyyən etmək lazımdır.
İşsizliyin səviyyəsini müəyyən etmək üçün Beynəlxalq Əmək Təşkilatı aşağıdakı tövsiyələri verir:

- müəyyən yaşdan yuxarı olan bütün şəxslər işsizlərə aiddir
- ödəniş və ya özünü məşğulluq üçün əl çatandır
- ödənişli iş əldə etmək üçün aktiv iş axtaran, konkret addımlar atanlardır

Yalnız onu qeyd etməliyik ki, belə yanaşmaya əsasən işsizlərin sırasına fəal iş axtaranlar daxil edildiyindən onun ölçülən səviyyəsi mövcud faktiki səviyyəsindən aşağı ola bilər ki, bu da iş axtarmayıb, lakin işləmək istəyən insanların faktiki sayının nəzərə alınmaması ilə bağlı ola bilər. Digər tərəfdən, iş axtaran şəxslər işsiz hesab olunur. Həmçinin işsizlərin sayı müəyyən edilərkən uşaqlarına qayğı göstərmək üçün tam iş günü ərzində evdə çalışanlar da işsiz hesab edilmir.

İqtisadçılar müxtəlif nəzəriyyələr və işsizlik növləri, o cümlədən tsiklik və ya keynsian işsizliyi, friksion işsizlik, struktur işsizlik və klassik işsizlik arasında fərqləri göstərməyə cəhd edirlər. Bəzən işsizliyin bəzi əlavə növləri də - bu mövsümi işsizlik, ağır işsizlik və gizli işsizlik də qeyd edilir. Baxmayaraq ki, iqtisadi ədəbiyyatlarda bir neçə anlayış və sadə fərqlərdən istifadə edilirdi və bu, könüllü və məcburi işsizlik idi. ABŞ ƏSB işsizliyin U1-U6 altı növünü də qiymətləndirir. Könüllü işsizlik, insan qərarları ilə bağlıdır. Məcburi işsizlik isə

insanların çalışdığı sosial-iqtisadi mühitin (bazar strukturu, hökumət müdaxilə və məcmu tələbin səviyyəsi  və s. daxil olmaqla) mövcud vəziyyəti ilə bağlı olur. Halbuki friksion işsizlik fərdi davranış əks etdirdiyindən çox zaman könüllü olur. Könüllü işsizlik aşağı ödənişli işdən imtina əsasında yarandığı halda, məcburi işsizlik iqtisadi böhran, sənayedə azalma, iflas və ya təşkilati quruluşda dəyişikliklər əsasında işdən işçilərin çıxması deməkdir.

Digər tərəfdən, tsiklik işsizlik, struktur işsizlik və klassik işsizlik əsasən məcburi işsizlikdir. Struktur işsizlik keçmişdə işsiz təərəfindən edilən seçimi əks etdirə bilər. Klassik (təbii) işsizlik həmkarlar və ya siyasi partiyalar tərəfindən edilən hüquqi və iqtisadi seçimin nəticəsi ola bilər. Buna görə də, praktikada könüllü və məcburi işsizliyi ayırmaq çətindir. Məcburi işsizliyin ən aydın təzahürü hətta əmək haqqını tənzimləmək üçün icazə verilsə də belə işsizlərin sayının vakansiyaların sayından çox olduğu haldır. Bu tsiklik işsizlik halında da baş verir. Belə ki, makroiqtisadi qüvvələrin hərəkəti mikroiqtisadi işsizliyi yaradır və bu da əks təsir olaraq makroiqtisadi vəziyyəti kəskinləşdirə bilir və makroiqtisadi işsizliyə səbəb olur. ABŞ-da işsizliyin hesablanması öhdəliyi Əmək Statistika Bürosunun (BLS və ya ƏSB) üzərinə qoyulub (https://www.bls.gov/bls/unemployment.htm&xid=17259,15700021,15700124,15700149,15700186,15700190,15700201&usg=ALkJrhj971Z7UrDademo90FFy-atRqOlNg).

ƏSB 60000 ev təsərrüfatlarında aylıq sorğu keçirir və bir ev təsərrüfatı üçün məşğulluq, işsizlik və ümumi iş qüvvəsi statusuna dair biliklərin öyrənilməsinə yönəlmiş bir sıra suallardan istifadə edir. Cari əhali sorğuları (CPS) əsasında toplanmış məlumatlar əsasında işsizlik, məşğulluq və ölkədə işçi qüvvəsinin qiymətləndirilməsiaparılır.(https://www.bls.gov/cps/&xid=17259,15700021,15700124,15700149,15700186,15700190,15700201&usg=ALkJrhg0F-1zoJeUzPxgcZi-RjpOQJkMRw).

ABŞ-da işsizliyi ölçmək üçün digər vasitələrdən də istifadə edilir.Onların arasında:

- Sosial sığortanın məlumatları işsizliyə görə müavinət və digər sosial proqramlardan istifadə edən insanların sayını göstərir.
- İş qüvvəsi sorğularının nümunələri tətbiq edilir.

- dövlət məşğulluq orqanlarından alınan statistika onlara müraciət edərək iş axtaran insanların sayını göstərir.
- Təhlil zamanı aşağıdakı məlumatlardan istifadə edilir:
- məşğulluq üzrə məlumatlar;
- işsizlik (ümumi işsizlik, gənclər arasında işsizlik, oxumayan və işləməyən gənclərin (15-24 yaş) nisbəti) üzrə məlumatlar;
- insaninkişafı üçünriski özündə ehtivaedən əməküzrə məlumatlar;
- işçilərin sosial təminatə üzrə məlumatlar.

ƏSB ölkənin əmək bazarının kifayət qədər tam şəklini almaq üçün bütün məlumatları müxtəlif mənbələrdən toplayır. O, hesablamalarını aşağıdakı U1-U6 kimi qeyd edilən altı müxtəlif tədbirlər əsasında aparır:

- U1 - ən azı 15 həftə işsiz olanların faizidir;
- U2 - öz işini başa vurmuş və ya işini itirilmiş işçi qüvvəsinin faizidir;
- U3 - BƏT tərəfindən müəyyən edilmiş rəsmi işsizlik səviyyəsidir;
- U4 - pis işçilərin (işdən pozuntu maddəsi ilə çıxarılmış) faizidir;
- U5 - Marjinal və ya azad işçilərdir və ya işləmək istəyib, lakin həqiqətdə iş axtarmayanlardır;
- U6 – natamam iş günü çalışan və tam iş günü ərzində olan işi axtarmaq istəyən, lakin iqtisadi səbəblərə görə bunu edə bilməyənlərdir.

Dünya təcrübəsinə əsaslansaq görərik ki, işsizlik səviyyəsi 1-3% qəbul edilən, 5% – iqtisadiyyat üçün məqbul, 7% isə – iqtisadiyyat üçün böyük sosial təhlükədir. Hazırda olan və proqnozlaşdırılan vəziyyəti isə cədvəl 2-dən görmək olar.

İşsizlik səviyyəsi – insan həyatının keyfiyyətini xarakterizə edən və dünyada istifadə edilən əsas göstəricilərdən biridir. Əsasən səfalət indeksinin hesablanması üçün istifadə olunur. Unutmayaq ki, işsizlik səviyyəsi ölkənin davamlı inkişaf yolunda hərəkətinə nəzarəti təmin edən əsas göstəricidir. Bu tam və məhsuldar məşğulluğa və gənclər, əlillər, qadın və kişilər üçün layiqli iş və işə görə bərabər dəyər həcmində ödəniş almasını nəzərdə tutmaqla, bütün ölkələrə aid edilir.

**İşsizliyin orta aylıq səviyyəsi** – ümumi işçi qüvvəsi tərkibində işsizlərin payıdır.

İşsizlik səviyyəsi faiz ekvivalentində göstərilir və aşağıdakı düstür üzrə hesablanır:

Bir il üçün orta aylıq işsizlik səviyyəsi aşağıdakı düstura uyğun hesablanır:

$$L_{ve} = \frac{VE}{LF_c} \cdot 100\%,$$

burada Lve – işsizlik səviyyəsi (norması), VE – orta aylıq işsiz sayı, LFc – iqtisadi cəhətdən fəal əhalinin sayıdır (Алиев И., 2004).

**Cədvəl 2:2007-2019-ci illər üzrə işsizlik, zəif məşğulluq, işləyənlər arasında yoxsulluğun proqnozları və tendensiyaları**

| Ölkələr Region | **İşsizlik 2007-2019 (%-lə)** | | | **İşsizlik 2007-2019 (mln.nəfər)** | | |
|---|---|---|---|---|---|---|
| | 2017 | 2018 | 2019 | 2017 | 2018 | 2019 |
| Bütün dünya | 5,6 | 5,5 | 5,5 | 192,7 | 192,3 | 193,6 |
| İnkişaf etmiş ölkələr | 5,7 | 5,5 | 5,4 | 34,1 | 32,8 | 32,4 |
| Orta gəlirli ölkələr | 5,6 | 5,5 | 5,5 | 143,0 | 143,4 | 144,6 |
| İnkişafda olan ölkələr | 5,3 | 5,3 | 5,3 | 15,6 | 16,1 | 16,6 |
| Bütün dünya | 42,5 | 42,6 | 42,7 | 1391,3 | 1409,0 | 1426,4 |
| İnkişaf etmiş ölkələr | 10,0 | 9,9 | 9,9 | 56,7 | 56,5 | 32,3 |
| Orta gəlirli ölkələr | 46,2 | 46,2 | 43,6 | 1122,8 | 1234,0 | 1144,8 |
| İnkişafda olan ölkələr | 76,5 | 76,4 | 76,4 | 211,8 | 218,5 | 225,3 |
| İnkişafda olan və orta gəlirli ölkələr | 11,2 | 10,7 | 10,2 | 300,9 | 290,8 | 281,2 |
| Orta gəlirli ölkələr | 7,7 | 7,2 | 6,7 | 186,8 | 176,2 | 166,4 |
| İnkişafda olan ölkələr | 41,2 | 40,1 | 38,9 | 114,1 | 114,6 | 114,9 |
| İnkişafda olan və orta gəlirli ölkələr | 16,0 | 15,5 | 15,1 | 430,2 | 421,8 | 414,0 |
| Orta gəlirli ölkələr | 14,7 | 14,1 | 13,6 | 357,5 | 346,9 | 336,7 |
| İnkişafda olan ölkələr | 26,2 | 26,2 | 26,2 | 72,7 | 74,9 | 77,3 |

**Mənbə:**https://www.stat.gov.az/source/labour/

İşçi qüvvəsi işsizlərin və məşğulların cəminə bərabərdir. **L = E + U**

Burada, **L** – işçi qüvvəsi, **E** – məşğullar, **U** – işsizlərdir.

**Təbii işsizlik səviyyəsinin hesablanması:**

$u = (U / L) * 100\%$

Burada:

$u$ - işsizlik səviyyəsi;

$U$ - işsiz sayı;

$L$ - işçi qüvvəsi (məşğul və işsiz şəxslər).

*Başqa sözlə desək:*

**İşçi qüvvəsi – məşğul şəxslər = işsiz şəxslər.**

İşsizlik səviyyəsinin hesablanması qaydasına misal üzərindən nəzər yetirək. Misal üçün, işçi qüvvəsinin, yəni iqtisadi cəhətdən fəal əhali sayı 1.200.000 nəfərdir, bunlardan 1.137.000 nəfəri işləyir, 63.000 nəfəri isə işsizdir. Demək, işsizlik səviyyəsi: (63.000 * 100) / 1.200.000 = 5,25%-dir

İşsizlik müddəti (Cədvəl 1) və səviyyəsi ilə səciyyələndirilir.

**İşsizlik səviyyəsi** iş yerlərinə olan tələbatın ödənilməməsi ilə səciyyələndirilir.

İşsizlik səviyyəsini yarım iş günü rejimi ilə işləyənlər və iş tapmağa ümidin itirmiş şəxslər **azaldır**. Əhalinin məşğulluğu haqqında informasiyanın gizlədilməsi (kölgə iqtisadiyyatı) isə **işsizlik səviyyəsini artırır**.

İşsizliyin müddəti – işsizlərin işsiz vəziyyətində olduqları müddətdir.

Qərb iqtisadçı eksperti P. Samuelson cəmiyyətdə əmək təklifini səciyyələndirən dörd əsas amili qeyd etmişdir: əhalinin ümumi sayı; bir həftə və bir il ərzində işçilər tərəfindən görülmüş işin orta saat sayı; görülən işin kvalifikasiyası və keyfiyyəti (Султанова Р., 2004).

Amerikalı iqtisadçı V. Oukenin fikrincə, işsizliyin faktiki səviyyəsinin, onun təbii səviyyəsindən artıq olduqda, cəmiyyət ümumdaxili məhsulun aşağı düşməsini yaşayır. Oukenin hesablamalarına əsasən, işsizliyin faktiki səviyyəsinin onun təbii səviyyəsindən 1% artıq olduqda, cəmiyyət ümumdaxili məhsulun 2.5% aşağı düşməsini yaşayır (Оукен В., 2005).

Baxmayaraq ki, işsizlik səviyyəsinin təyin edilməsində müxtəlif mürəkkəb sorğulardan istifadə olunur, əldə olunan nəticə bir çox halda real situasiyanı əks etdirmir.

Kölgə iqtisadiyyatı da işsizlik səviyyəsinin artmasına gətirib çıxara bilir. Bir çox halda qanunsuz sahibkarlıq və biznes fəaliyyəti ilə məşğul şəxslər özlərini işsiz kimi qələmə verir və bu da rəsmi statistikanı pozur və işsizlik səviyyəsini artırır.

### 1.3.İşsizliyin dövlət tənzimlənməsi mexanizmləri

Dünya iqtisadiyyatının qloballaşması kontekstində insan faktorunun inkişafı iqtisadiyyatın rəqabətliyini təmin edən prioritet hesab olur. İqtisadiyyatın sosial yönümlü inkişafı şəraitində işsizliyin dövlət tənzimləsi mexanizmləri əsas rola malik olur. Bu mexanizmdə dövlət hakimiyyət orqanları (Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Sosial Müdafiə Fondu, Məşğulluq İdarəsi, icra hakimiyyəti və bələdiyyələr) əhalinin sosial rifahı və məşğulluğunu təmin etmək məqsədilə müxtəlif dövlət proqramlarını həyata keçirir.

Qeyd etmək lazımdır ki, dünya iqtisadiyyatının müasir inkişafı mərhələsində dövlətin rolu da dəyişməkdədir. Dövlətin rolu artıq bazar mexanizminə qarışmaqda deyil, ölkə iqtisadiyyatının effektiv inkişafı üçün daxili və xarici münbit şəraiti yaratmaqdadır. Beynəlxalq iqtisadi rəqabət şəraitində əsas hədəfi milli maraqların qorunması və iqtisadi təhlükəsizliyin təmin edilməsi olan dövlət daha effektiv hesab olunur. Effektivlik göstəricisi ölkə iqtisadiyyatının açıqlığında və daxili və xarici bazarda istehsalçılara göstərilən dəstəkdə öz əksini tapır(Хайек Ф., 1992).

Dövlət əmək bazarını tənzimləyir, işçi qüvvəsinin miqrasiyasına nəzarət edir, bununla da əmək bazarında işçi qüvvəsinə olan tələbatı nəzərə alaraq, şəffaf kadr seçiminə şərait yaradır.

İnkişaf etmiş ölkələrdə əmək bazarının dövlət tərəfindən tənzimlənməsi sahəsində tətbiq edilən mexanizmlərə aşağıdakı metodlar aiddir:

1. **İqtisadi metodlar** – dövlət tərəfindən sahibkarlığın stimullarşdırılması və bununla da mövcud iş yerlərinin qorunub-saxlanılması və yeni iş yerlərinin

yaradılması məqsədilə güzəştli kreditləşmə, vergitutma və büdcə siyasətinin yeridilməsi, peşəkar kadr hazırlığının həyata keçirilməsi;

2. **Təşkilati metodlar** – məşğulluq və işədüzəltmə xidmətinin, müasir texnologiyalar sahəsi üzrə və digər peşəyönümlü kadrların hazırlanması, eləcə də ixtisasartırma sisteminin yaradılması;

3. **Qanunvericiliklə nəzərdə tutulan inzibati metodlar** - əmək müqavilələrinin bağlanılması, iş saatlarının həcmi, işçilərin iş vaxtından artıq çalışdığı hallarda əlavə əməyin dəyərinin ödənilməsi, bir iş saatına görə ödənilməli olan minimum əmək haqqı dəyərinin müəyyənləşdirilməsi, işsizliyin aradan qaldırılması məqsədilə sahibkarlar tərəfindən milli fondlara ödəmələrin tətbiq olunması, işədüzəltmə kvotalarının müəyyən edilməsi qaydalarının nizamlanması və s.Qanunvericiliklə nəzərdə tutulan tədbirlər cəmiyyətdə sosial təbəqələşmənin aradan qaldırılmasına xidmət etməlidir. Dövlət tərəfindən tənzimləmə mexanizminin dolayı və birbaşa təsiretmə vasitələri arasında nisbət qorunub saxlanılmalıdır.

Geniş əhali təbəqəsini əhatə edən, əməyə olan tələbin tənzimlənməsinə xidmət edən və təsərrüfatçılıq şəraitinin dəyişdirilməsinə yönəlmiş makroiqtisadi alətlərdən istifadə dolayı təsiretmə vasitələrinə aiddir.

Bilavasitə təsiretmə tədbirləri isə dövlət proqramlarının tətbiqini nəzərdə tutur.

Dövlət tərəfindən əmək bazarında işsizliyin stimullaşdırılması siyasəti aşağıda qeyd olunan iki formada həyata keçirilir:

1. **Passiv məşğulluq siyasətinin həyata keçirilməsi.** Bu zaman iş yerlərinin boşaldılması (təqaüdə çıxarılma, bir şəxs tərəfindən 1 iş yerindən artıq tutulmuş iş yerlərinin azad edilməsi) və vakant iş yerlərinin tutulması, işsizliyə görə müavinətlərin ayrılması nəzərdə tutulur.

2. **Aktiv məşğulluq siyasətinin həyata keçirilməsi.** Bu zaman kütləvi işsizliyin aradan qaldırılmasına və yeni iş yerlərinin yaradılmasına ayrılmış sərmayə, maliyyə, kredit, vergi siyasətinin həyata keçirilməsi nəzərdə tutulur.

3. **Nisbi-aktiv və ya nisbi-passiv** məşğulluq siyasəti. Bu hər iki halın ünsürlərini özündə birləşdirən siyasətdir.

İşsiz qalmış şəxslərə dövlət tərəfindən dəstəyin göstərilməsi, onların sosial müdafiəsi əmək bazarında dövlətin **passiv məşğulluq siyasətinə** aiddir. Dövlət, iş yerlərini itirmiş və işsiz qalmış şəxslərə aşağıdakı sosial dəstək növlərinə təminat verir:

- İşsizlik müavinətinin verilməsi, sosial ödənişlər və digər maliyyə yardımları;
- Pulsuz tibbi yardım (müəyyən növ xəstəliklərin müayinəsi və müalicəsi, eləcə də xüsusi tibbi ləvazimatların – dərmanların və avadanlığın verilməsi).

İşsizliyin qarşısının alınması sahəsində atılan ən mühim addımlardan biri də vakant qalan iş yerlərinə uyğun gələn namizədlərin (işçi qüvvəsinin) hazılanmasıdır. Bu zaman, işçi qüvvəsinin peşə-ixtisas hazırlığı səviyyəsinin yüksəldilməsi, əmək və sahibkarlıq fəallığının stimullaşdırılması, kiçik və orta sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi əsas rol oynayır. Əmək bazarında məşğulluğun tənzimlənməsi prosesi müəyyən məbləğdə maliyyə xərcləri tələb edir.

İnkişaf etmiş ölkələrdə işsizlərə göstərilən maddi yardım işsizlik sığortasının təməlində dayanır.

Bu ödənişlərin əsas məqsədi – işsizlərin mövcud xərclərinin qarşılanmasıdır. İşsizlik müavinətlərinin müddəti ölkədən asılı olaraq dəyişməkdədir, belə ki, ödənişlər bir neçə aydan ömürlük müddətə qədər ola bilər (misal, Belçika, Avstraliya). İşsizlik müavinətlərinin verilməsi üçün vəsaitlər dövlət və sahibkarların hesabına formalaşır.

Qərb ölkələrində işsizliyin aradan qaldırılması və məşğulluğun təmin edilməsinə sərf olunan xərclər ümumdaxili məhsulda xeyli çəkiyə (2,0-5,5%) malikdir. Bundan başqa, kütləvi işsizliyin aradan qaldırılması məqsədilə həyata keçirilən qabaqlama tədbirlərinə yönəldilən dövlət siyasətinin də əvəzolunmaz rolunu qeyd etmək yerinə düşərdi.

Sözsüz ki, məşğulluq proqramlarını tərtib edərkən aktiv və passiv tənzimləmə arasındakı nisbəti qorumaq, yəni, vəsaiti sadəcə ayırmaqla kifayətlənməmək, həm də pulun təyinatını müəyyən etmək, yəni, kimə və hansı məqsədlər üçün verilməsini bilmək lazımdır.

Beynəlxalq təcrübə, xüsusilə də İsveçin təcrübəsi göstərir ki, aktiv məşğulluq siyasətinin yeridilməsi passiv məşğulluq siyasətinə nisbətən müəyyən üstünlüklərə malik olduğunu sübut edir.

Əhalinin məşğulluğunun təmin edilməsi və əmək bazarının dövlət tərəfindən tənzimlənməsi üçün aşağıdakı metodlardan istifadə olunur:

**1. Proqram-məqsədli metod;**

**2. Normativ metod;**

**3. Balans metodu.**

Direktiv xarakterli dövlət planı olmadığı mühitdə proqram-məqsədli metodun funksiyaları dəyişir və o daha geniş yayılmağa başlayır. Proqram-məqsədli metoda aid olan məşğulluq proqramı (siyasəti) müxtəlif səviyyələrdə tərtib olunur və həyata keçirilir. Bu zaman regional proqramların, eləcə də müxtəlif demoqrafik qruplar (gənclər, ahıllar, qadınlar və digərləri) üzrə proqramların tərtib olunması xüsusi aktuallıq daşıyır.

Xidmət sahələrində işçi qüvvəsinə olan tələbin əsaslandırılmasıməqsədilə normativ metoddan istifadə olunur. Bazar iqtisadiyyatı şəraitində sosial normativlərin əsaslandırılması xüsusilə vacibdir. Bu normativlərə işsizliyin yol verilən səviyyəsi, əhalinin sosial müdafiəsini təmin edən minimum sosial normativlər, həyat səviyyəsi və sosial inkişafın minimum standartları kimi göstəricilər aiddir.

Əhalinin məşğulluğunun təmin edilməsi prosesində balans metodundan da geniş istifadə olunur. Məsələn, ümumi əmək ehtiyatları balansı əmək ehtiyatları ilə onların bölüşdürülməsi arasındakı ən ümumi proporsiyaları səciyyələndirir.

Balans metodundan istifadənin əsas məqsədi təsərrüfatların ərazi səviyyəsində təşkili zamanı bütün mülkiyyət növlərinə mənsub olan müəssisələrin investisiya

proqramlarını regionların əmək ehtiyatları ilə uzlaşdırmaqdan ibarətdir. O, iş yerləri ilə işləyənlər, vakant iş yerlərinin tutulması üçün tələb olunan işçilərin sayı ilə normativ növbəlik əmsalı arasındakı tarazlığı göstərir. Sərmayə qoyuluşu olmadan əmək məhsuldarlığı ilə fondla təchiz olunma arasında zəruri nisbəti təmin etmək mümkün deyildir. Beləliklə, əmək məhsuldarlığı artımının proqnozlaşdırılan sürətinə çatmaq üçün sərmayə qoyuluşunun mümkün olan artımının obyektiv şəkildə ölçülməsi önəmlidir.

Hazırda Azərbaycanda əmək bazarının tənzimlənməsi sahəsində dünya təcrübəsində özünü doğrultmuş effektiv üsullardan istifadə olunur. Əlbətdə ki, dünyada mövcud olan əmək bazarının tənzimlənməsi modellərinin müsbət cəhətləri ilə yanaşı, mənfi cəhətləri də vardır. Odur ki, eyni təcrübənin müsbət tərəflərindən yararlanmaq, zaman keçdikcə baş verən yeniliklərdən istifadə etməklə tam məşğulluğun əldə olunması və işsizliyin azaldılması sahəsində məqsədyönlü işlər görmək, tədbirlər həyata keçirməklə ölkəmizin iqtisadi potensialının artırılması və xalqımızın həyat səviyyəsinin qaldırılmasında və firavan həyatının təmin olunmasında çox böyük uğurların qazanılması mümkündür.

Azərbaycanda işsizliyin aradan qaldırılması, məşğulluğun təmin olunması və əmək bazarının stimullaşdırılmsı sahəsində dünya təcrübəsində özünü doğrultmuş effektiv metodlardan istifadə olunur. Təbii ki, mövcud olan tənzimləmə modellərinin həm mənfi, həm müsbət cəhətləri vardır. Odur ki, mövcud modellərin müsbət cəhətlərindən daha çox yararlanmaq, mövcud bazara uyğunlaşdırmaq, eləcə əhalinin firavan həyatını və məşğulluğunu təmin etmək dövlətimizin başlıca məqsədlərindən biridir.

# II FƏSİL. AZƏRBAYCANDA İŞSİZLİYİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN VƏZİYYƏTİ

## 2.1. Ölkəmizdə işsizliyin cari vəziyyətinin təhlili

SSRİ süqut etdikdən sonra ittifaq respublikalar arasında mövcud təsərrüfat əlaqələri itdi, bazarlarda defisit baş aldı, xarici bazarlara çıxış imkansız oldu. Bunların nəticəsində iri sənaye müəssisələri, fabrik və zavodlar, kolxoz və sovxozlar öz fəaliyyətini dayandırdı. Yaranmış vəziyyətdə kütləvi işsizlik problemi isə xüsusi yer tuturdu. Nəticədə ölkənin xüsusən gənc əhalisi iş axtarışında ölkəni tərk etməyə məcbur qaldı və Rusiya və digər ölkələrə üz tutdu. Bu vəziyyətdə çıxış yolu olaraq 2000-ci ildən etibarən ölkədə həyata keçirilməyə başlayan sosial yönümlü dövlət proqramları işlənib hazırlanmağa başladı, işsizlik probleminin həlli yönümündə ciddi və təxirəsalınmaz işlər görüldü. Nəticədə Azərbaycanda işsizlik probleminin həlli və əhalinin müvafiq işlə təmin olunması mümkün oldu. İcra edilən tədbirlər Azərbaycanda işsizlik səviyyəni 90-cı illər ilə müqayisədə dörd dəfə aşağı saldı, yəni iyirmi faizdən beş faizə endirdi. Ölkədə xeyli iş yeri açıldı və əhalinin çox hissəsi işlə təmin olundu (Mehbalıyev S., İsgəndərov R., 2001).Azərbaycan Respublikasında on dörd illik dövr ərzində, yəni 2003-2017-ci illər ərzində əldə olunan statistik göstəricilərə əsasən 1900000 yeni iş yeri açılmış, onların ¾, yəni 1400000 iş yeri daimi olan iş yerləridir (http://www.xalqqazeti.com/az/news/economy/95367). Eyni dövrdə əhali sayının təxmini olaraq 1500000 nəfər artmasını nəzərə alsaq, əmək bazarında yeni iş yerlərinin yaradılması mütləq olacağı aydın məsələ idi.

Yeni açılan iş yerlərinin yetmiş faizdən çoxu ölkənin müxtəlif rayonlarında, təxminən yetmiş altı faizi özəl sektorda yaradılmışdır. 2018-ci ilin 1 fevral tarixinə olan məlumata əsasən Azərbaycanda iqtisadi fəal əhali 5074000 nəfərə çatıb. Bunlardan doxsan altı faizi, yəni 4882000 nəfər müxtəlif peşə fəaliyyəti ilə məşğul insalardır. 2018-ci ilin əvvəlində Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin yaydığı məlumata əsasən iqtisadi fəal əhalinin 1521300 nəfəri muzdlu

işçilərdir. Onların 880100 nəfəri dövlət müəssisə və təşkilatlarında, 641200 nəfəri özəl sektorda fəaliyyət göstərir. 204000 nəfər işsiz kimi rəsmi qeydiyyata alınmışdır. Son illər ərzində iqtisadi fəal əhalinin sayı da artıb. Məlumat DSK tərəfindən verilən və 3 saylı cədvəldə əks olunan son hesabatlarda öz əksini tapmışdır.

**Cədvəl 3: Azərbaycanda məşğul və işsiz əhalinin illər üzrə sayı və struktur bölgüsü. Əmək bazarının əsas sosial-iqtisadi göstəriciləri**

| | **2003** | **2005** | **2010** | **2013** | **2017** |
|---|---|---|---|---|---|
| İqtisadi fəal əhalinin sayə – min nəfər | 4373,5 | 4380,1 | 4587,4 | 4757,8 | 5073,8 |
| Məşğul əhalinin sayı – min nəfər | 3972,6 | 4062,3 | 4329,1 | 4521,2 | 4822,1 |
| **o cümlədən mülkiyyət növləri üzrə:** | | | | | |
| dövlət | 1180,0 | 1229,8 | 1142,7 | 1169,4 | 1158,4 |
| qeyri-dövlət | 2792,6 | 2832,5 | 3186,4 | 3351,8 | 3663,7 |
| İşsiz əhalinin sayı, min nəfər | 400,9 | 317,8 | 258,3 | 236,6 | 251,7 |
| Məşğulluq xidməti orqanlarında rəsmi işsiz statusu verilmiş şəxslər, nəfər | 54365 | 56343 | 38996 | 362006 | 38481 |
| onlardan işsizliyə görə müavinət alanlar | 3111 | 2087 | 87 | 636 | 6974 |
| İqtisadiyyatdaməşğulolanqadınları sayı – minnəfər | 1905,9 | 1957,6 | 2101,7 | 2183,7 | 2319,3 |
| İqtisadiyyatdamuzdlaişləyənlərinsayı – minnəfər | 1226,6 | 1297,1 | 1382,9 | 1514,0 | 1525,0 |
| Muzdla çalışan işçilərin orta aylıq əməkhaqqı – manat | 77,4 | 123,6 | 331,5 | 425,1 | 528,5 |

**Mənbə:**https://www.stat.gov.az/source/labour/ (DSK-nın rəsmi saytında 2017-ci il məlumatları son məlumat kimi qeyd edilmişdir, 22.05.2019)

Azərbaycanda qeyri-neft sektorunda yeni iş yerlərinin, müəssisə və təşkilatların, xidmət və iaşə obyektlərinin açılması ölkə rəhbərliyi tərəfindən həyata keçirilən sosial və iqtisadi islahatların nəticəsidir.

İstehsal sahəsində çalışan insanların sayı getdikcə artır. Ölkə başçısının uğurla həyata keçirdiyi iqtisadi islahatlar nəticəsində 2018-ci ilin 1 yanvar tarixinə olan məlumata görə iqtisadiyyatın müxtəlif sahələrində çalışan insanların 1521300 nəfəri muzdla fəaliyyət göstərib. Bunlardan 57,85%, yəni 880100 nəfər dövlət, qalan 42,15%, yəni 641200 nəfər isə özəl müəssisələrdə fəaliyyət göstərib.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin AZƏRTAC xəbər agentliyinə verdiyi rəsmi məlumata əsasən, ölkədə muzdla çalışanların 21,9% - təhsil, 19,2% - təmir, 13,2% - sənaye, 8,6% - səhiyyə və sosial xidmət, 7,2% - müdafia və sosial təminat, 6% - tikinti, 4,7% - nəqliyyat və anbar təsərrüfatı, 3,4% - peşə, elmi və texniki fəaliyyət, 3,2% - kənd və meşə təsərrüfatı, balıqçılıq, 1,6% - maliyyə, sığorta, 11% - digər sektorlarda çalışan insanlar təşkil edib (https://azertag.az/xeber/1152855). Dəqiq rəqəmlərlə 4 saylı cədvəldə tanış ola bilərik.

Onu da vurğulumaq gərəkdir ki, əhalinin məşğulluğunun təmin olunmasında son on-on beş işdə həyata keçirilən inkişafyönümlü dövlət proqramlarının böyük və əvəzsiz rolu olmuşdur.

Prezident İlham Əliyevin rəhbərliyi altında həm rayon və bölgələrin inkişafı, həm qeyri-neft sektorunun inkişaf etdirilməsi, istehsal sahələrində fəaliyyət istiqamətlərinin genişləndirilməsi və bu sahələrdə çalışan şəxslərin maddi təminatının və sosial rifahının yaxşılaşdırılması sahəsində görülən işlər, həyata keçirilən dövlət proqramları işsizlik səviyyəsinin azaldılması, məşğulluğun artırılması baxımından mühim rol oynayır.

Sözügedən dövlət proqramlarının icrası ilə qeyri-neft sektoru sürətlə inkişaf etməyə başladı. Nəinki Bakıda, həmçinin müxtəlif bölgələrdə də çox sayda yeni iş yerləri açılmış, əhali işlə təmin olunmuşdur.

İlham Əliyev Prezident seçiləndən sonra apardığı siyasət və islahatlar özəl sektorun inkişafına təkan verib. Nəticədə 2003-2017-ci illər ərzində məşğul əhali arasında özəl sektorda çalışanların sayı təxminən 800000 nəfər və ya 28,5% artmışdır. Bu artımın bir səbəbi də aqrar sektorun inkişafıdır. Belə ki, aqrar

sektorun inkişafı nəticəsində kənd sakinləri arasında məşğulluq artmış, qazancları isı 5,8 dəfə çoxalmışdır (http://ikisahil.com/post/news-52034).

**Cədvəl 4: Azərbaycanda məşğul olanların iqtisadi fəaliyyət sahələri üzrə bölgüsü (min nəfərlə)**

| İqtisadi fəaliyyət üzrə | 2005 | 2010 | 2013 | 2016 |
|---|---|---|---|---|
| Bütün iqtisadi sahələr üzrə (cəmi) | 4062,3 | 4329,1 | 4521,2 | 4759,9 |
| Kənd və meşə təsərrüfatı, balıq sənayesində çalışanlar | 1573,6 | 1655,01 | 1677,4 | 17729,6 |
| Mədən çıxarmada çalışanlar | 42,3 | 41,5 | 42,3 | 38,1 |
| Emal sənayesində çalışanlar | 198,4 | 208,9 | 224,1 | 242,2 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı bölgüsü və təchizində çalışanlar | 27,9 | 30,6 | 32,3 | 27,3 |
| Su təchizi, tullantıların təmizliyi və emalı sahəsində çalışanlar | 23,9 | 25,2 | 25,7 | 30,6 |
| Tikinti sektorunda çalışanlar | 211,9 | 287,5 | 325,5 | 343,8 |
| Ticarət və nəqliyyat təmirində çalışanlar | 634,8 | 626,7 | 664,01 | 699,6 |
| Nəqliyyat və anbar təsərrüfatında çalışanlar | 174,6 | 179,1 | 183,8 | 198,4 |
| Turizm və ictimai iaşə sektorunda çalışanlar | 25,1 | 46,9 | 49,2 | 68,4 |
| İnformasiya və rabitə sahəsində çalışanlar | 32,3 | 55,8 | 58,1 | 61,2 |
| Maliyyə və sığorta sahəsində çalışanlar | 18,1 | 24,4 | 30,6 | 27,1 |
| Daşınmaz əmlak sahəsində çalışanlar | 82,1 | 69,6 | 79,4 | 88,01 |
| Peşə, elmi və texniki fəaliyyət sahələrində çalışanlar | 43,4 | 45,6 | 56,3 | 68,4 |
| İnzibati və yardımçı xidmətlər göstərənlərin sayı | 38,7 | 46,5 | 52,4 | 57,1 |
| Dövlət idarəetməsi, müdafiə və sosial təminat sahəsində çalışanlar | 256,6 | 279,1 | 282,3 | 285,4 |
| Təhsil sektorunda çalışanlar | 345.1 | 349,8 | 366,2 | 374,8 |
| Əhaliyə səhiyyə və sosial xidmətlər göstərilməsi sahəsində çalışanlar | 188.8 | 170,3 | 171,8 | 185,6 |
| İstirahət, əyləncə və incəsənət sahəsində çalışanlar | 52,4 | 59,6 | 61,8 | 77,4 |
| Digər sahələrdə fəaliyyət göstərənlər | 92,3 | 127,01 | 138,01 | 156,9 |

**Mənbə:**https://www.stat.gov.az/source/labour/ (DSK-nın rəsmi saytında 2016-cı il məlumatları son məlumat kimi qeyd edilmişdir, 22.05.2019)

Apardığımız təhlil onu sübut edir ki, məşğulluq ilə bağlı Dövlət Proqramının icrası məşğulluq sahəsində mühim işlərin görülməsinə şərait yaratmışdır və nəticədə

1. İş adamlarının fəaliyyətinin səmərəliliyi artmış, xırda və orta sahibkarların inkişafı dəstəklənmiş, həmçinin, vətəndaşların fərdi məşğulluğuna münbit şərait yaradılmışdır.
2. Müxtəlif sahələri əhatə edən yeni iş yerlərinin açılışına başlanılmış;
3. İşsiz əhalinin yaşayışı təmin edilmiş, gizli və qanunsuz əmək fəaliyyəti ilə məşğul olan və vergilərdən yayınmaqla kölgə iqtisadiyyatının yaranmasına şərait yaradan şəxslərin qeydiyyata alınması sürətlənmişdir.
4. İşəgötürənlərin tələbatına uyğun işçilərin hazırlanması və kadr potensialının genişləndirilməsi üçün təxirəsalınmaz tədbirlər görülmüş, monitorinqlər keçirilmişdir ("Azərbaycan Respublikasının Milli Məşğulluq Strategiyası (2006-2015-ci illər)", Bakı, 26.10.2015).

Ölkə başçısının yürütdüyü sosial-iqtisadi siyasətin, "Məşğulluq strategiyası"-nın həyata keçirilməsində əvəzolunmaz rolu olmuşdur. Məhz bu siyasətin nəticəsində 1900000 yeni iş yeri yaradılmış və əhalinin məşğulluğunun, eləcə də gəlirlərinin artmasına gətirib çıxarmışdır.

Yürüdülən uğurlu siyasət nəticəsində əhalinin işlə təmin edilməsi prosesində özəl sektorun payı artmışdır. Belə ki, ki keçən əsrin sonlarında məşğul əhalinin təxminən qırx faizi dövlət sektorunda çalışsa da, bu göstərici 2003-cü ildə 33,2%, 2005-ci ildə - 30,3%, 2013-cü ildə - 26%, 2016-cı ildə isə 24,5%-ə qədər azalıb. Apardığımız daha dəqiq hesablamalar nəticəsində məlum olur ki, 90-cı illər ilə müqayisədə özəl sektorda çalışan insanların sayı təxminən 1,5 dəfə artıb.

Cədvəl 5-də dəqiq statistik məlumatlarla tanış olmaq mümkündür.

Xidmət sahələri özəl sektorun inkişafı və orada məşğulluğun artmasında əvəzolunmaz rol oynayıb. 2018-ci ilin əvvəlinə olan məlumata görə, şirkət və digər özəl qurumlarda muzlu işçilərin 22,7% məhsul istehsalı sahələrində fəaliyyət

göstərib. Sözügedən dövrdə xidmət sahəsində çalışanların bölgüsü yuxarıda qeyd olunduğundan, təkrar olaraq qeyd etmirik.

Özəl sektoruda məşğulluğun artması əmək bazarında rəqabət yaradır. Hal-hazırda, ölkədə yeni iqtisadi münasibətlərin yaranması, infrastrukturun formalaşması, xidmət sektorunda, həmçinin ticarət, maliyyə, səhiyyə, sığorta və digər sahələrdə vətəndaşların alternativ işlə məşğul olması üçün şərait yaradılmışdır.

Nəticədə iqtisadi cəhətdən fəal əhali arasında dövlət sektorunda muzdla çalışanların sayı azalır, müxtəlif sahələrdə sərbəst əmək fəaliyyəti ilə məşğul işçilərin sayı getdikcə artır.

**Cədvəl 5: Azərbaycanda işləyənlərin mülkiyyət növləri üzrə bölünməsi**

| | **2003** | **2005** | **2010** | **2013** | **2016** |
|---|---|---|---|---|---|
| İqtisadi sahələr üzrə məşğul əhali (min nəfərlə) | 3613.01 | 4062.3 | 4329.1 | 4521.2 | 4759.9 |
| **Onlardan mülkiyyət növlərinə görə:** | | | | | |
| Dövlət sektoru (min nəfərlə) | 2027.21 | 1229.8 | 1142.7 | 1169.4 | 1171.4 |
| Özəl sektor (min nəfərlə) | 2832.5 | 2832.5 | 3186.4 | 3351.4 | 3588.5 |
| Bütün iqtisadi sahələr üzrə məşğul olanlar, %-lə | 100 | 100 | 100 | 100 | 100 |
| **Onlardan mülkiyyət növlərinə görə:** | | | | | |
| Dövlət sektoru (min nəfərlə) | 57 | 30.3 | 26.4 | 25.9 | 24.6 |
| Özəl sektor (min nəfərlə) | 43 | 69.7 | 73.6 | 74.1 | 75.4 |

**Mənbə:**https://www.stat.gov.az/source/labour/ (DSK-nın rəsmi saytında 2016-cı il məlumatları son məlumat kimi qeyd edilmişdir, 22.05.2019)

Xarici ölkələrlə yanaşı Azərbaycanda da məşğul əhali arasında ikili məşğulluğun artması müşahidə olunmaqdadır. Bu isə öz növbəsində əhalinin daha çox gəlir əldə etməsi və həyat şəraitinin yüksəlməsinə zəmin yaradır. Elə bu səbəbdən, yəni əhalinin sosial-iqtisadi rifahını yüksəltmək məqsədi ilə dövlət sektorunda çalışan insanlar eyni zamanda da özəl sektorda, əsasən də xidmət

sahəsində fəaliyyət göstərməkdədir. Bunun nəticəsində son dövrdə əmək ehtiyyatları tərkibində məşğul əhalinin sayı ildən ilə artmaqdadır. Müasir dövrdən fərqli olaraq, müstəqilliyin ilk illərində əmək ehtiyyatlarının tərkibində məşğul əhalinin sayı təxminən doxsan beş faizdən altmış-yetmiş faizədək enmişdir. Bu səbəbdən, əhalinin müəyyən hissəsi, xüsusən də gənclər Rusiyaya getmək məcburiyyətində qalmışdır. İcra edilən proqramların nəticəsində məşğul əhali ilə əmək ehtiyyatları arasında kəmiyyət fərqi azalmışdır (Məmmədov A., Yaqubov S., 2013).

Əmək ehtiyyarlarının tərkibində məşğul əhali sayının artmasında "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı"-nın həyata keçirilməsinin əvəzolunmaz rolu olmuşdur. Proqramda aşağıda qeyd edilən tədbirlər öz əksini tapmışdır:

- İşçi qüvvəsi ilə iş yerləri arasında tarazlığın qurulması;
- İş axtaran şəxslərin daha tez uyğun iş tapa bilmələrini təmin edə biləcək axtarış-informasiya sisteminin yaradılması;
- Peşə-ixtisas hazırlığında müasir metodlardan istifadə edərək, müasir tələblərə uyğun kadr potensialının hazırlanması;
- Neft gəlirlərinin müəyyən hissəsinin insan kapitalına yönəldilməsi;
- Sahibkarlara kömək, biznes kreditlərinin verilməsi şərtlərinin yüngülləşdirilməsi, iqtisadiyyatın müxtəlif sahələrinə qoyulan investiyaların artırılması, vergi siyasəti yolu ilə məşğulluğun tam təminınə nail olmaq və s. ("Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər və 2011-2015-ci illər)", Bakı – 2007 və Bakı-2011).

Azərbaycanda gənclərin məşğulluğunun təmin olunması da əsas problemlərdəndir. Dövlət Statistika Kömitəsinin son məlumatlarına görə ölkə əhalisinin 28,1% gəncdir. Bu rəqəmi dünya ölkələri ilə müqayisə etdikdə görürük ki, ölkədə vəziyyət yaxşıdı.

Belə ki, ötən ilin məlumatları əsasında apardığımız hesablamalar nəticəsində Azərbaycanda 15-29 yaş arası olan gənclərin sayının 2574000 nəfərə çatıdığı məlum olur. Yəni, ölkədə ötən il təxminən 6300000 əmək ehtiyyatı olub və əmək ehtiyyatının qırx faizdən çoxunu gənclər təşkil edib. Elə buna görə də, dövlətin qarşısında duran prioritet vəzifələrdən biri də mövcud iş yerlərini qorumaq şərti ilə yeni iş yerləri açaraq, gənclərin məşğulluğunu təmin etmək və həyat şəraitini yüksəltməkdir.

Ötən ilin statistik göstəricilərini təhlil etdikdə görürük ki, əhalinin ümumi işsizliyi ilə (5%) müqayisədə 15-29 yaş arası olan gənclər arasında müşahidə olunan işsizlik (9,4%) təxminən iki dəfə çoxdur. Bu isə o deməkdir ki, gənclər arasında işsizlik problemi digər yaş kateqoriyaları ilə müqayisədə daha ciddidir (Cədvəl6).

**Cədvəl 6: Azərbaycanda işləyənlərin mülkiyyət növləri üzrə bölünməsi**

| **İllər** | **Cəmi** | **Əmək qabiliyyətli yaşda əmək ehtiyyatlarınn sayı** | **İqtisadi sahələr üzrə məşğul olan əmək qabiliyyəti yaşından yuxarı olanların sayı** | **İqtisadi sahələr üzrə məşğul yeniyetmələrin sayı** |
|---|---|---|---|---|
| 1990 | 4025,8 | 4021,7 | 3703,4 | - |
| 2000 | 4685,8 | 4530,8 | 3855,4 | 12,2 |
| 2005 | 5421,3 | 5304,3 | 4062,3 | 13,5 |
| 2010 | 6015,0 | 6198,7 | 4671,6 | 6,2 |
| 2016 | 6350,4 | 6207,01 | 4759,9 | - |

**Mənbə:**https://www.stat.gov.az/source/labour/ (DSK-nın rəsmi saytında 2016-cı il məlumatları son məlumat kimi qeyd edilmişdir, 22.05.2019)

Bununla bağlı, ölkə Prezidenti İlham Əliyevin göstərişi ilə Məşğulluq Strategiyasını həyata keçirmək məqsədi ilə yeni dövlət proqramları işlənib hazırlanmaqdadır. Bu Proqramın başlıca məqsədi əhali, xüsusən də gənclər arasında işsizliyin azaldırmasıdır.

## 2.2. İşsizliyin tənzimlənməsi üzrə həyata keçirilən dövlət proqramları və normativ sənədlərin icra vəziyyəti

Azərbaycan Respublikasında vətəndaşların əmək hüquqlarının təmin edilməsi, işsizliyin aradan qaldırılması və məşğulluq probleminin həlli 2 iyul 2001-ci il tarixli "Məşğulluq haqqında" qanun ilə tənzimlənir. Ancaq məşğulluq haqqında qanunvericilik yalnız bu qanunla deyil, həmçinin, Azərbaycan Respublikasının Konstitusiyası, Əmək məcəlləsi, digər hüquqi və normativ aktlar, eləcə də Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq saziş və müqavilələr ilə tənzimlənməkdədir (Mirzəyev T., 2006).

Məşğulluq haqqında qanunvericilik əmək bazarında işçi qüvvəsinə olan tələb ilə təklif arasında tarazlığın saxlanılmasına xidmət edir. Bu qanunvericilik işçilərin əmək hüquqlarının müdafiəsini və iş axtaranların kadr tələbatının ödənilməsini təmin edir.

Əmək bazarında real əmək haqqı məbləğinin azalması əməyin real qiymətinin ucuzlaşmasına və ölkədə çox sayda "ucuz işçi qüvvəsi"-nin yaranmasına gətirib çıxarır. Mikrosəviyyədə bu hadisənin mənfi cəhəti odur ki, ucuz əmək heç zaman məhsuldar ola bilmədiyi kimi, keyfiyyətli məhsul da istehsal edə bilməz. Makrosəviyyədə isə istehsal həcminin aşağı düşməsi və məşğulluq səviyyəsinin azalmasına gətirib çıxarır. Buna görə də, məşğulluq siyasətində həyata keçirilən proqramlara sosial təhlükəsizlik prizmasından yanaşsaq o qənaətə gəlirik ki, əmək bazarında rəqabətə davamlı işçi qüvvəsinin formalaşdırılması dövlət siyasətinin əsas hədəflərindən birinə çevrilməlidir. Çünki bu proqramların icrasını həyata keçirmədən ölkədə real məşğul əhalinin sayını, gizli işsizliyin mövcudluğunu, işçilərin aldığı real əmək haqqı ilə onların faktiki gəlirləri arasında olan uyğunsuzluğu, gizli məşğulluğun geniş yayılması hallarını aradan qaldırmaq qeyri-mümkün olacaq.

Gizli məşğulluq problemi ölkədə ən aktual və kəskin problemlərdən birinə çevrilmişdir. Bu zaman gizli əmək haqqı muhasibatlıqda əks olunmaması

səbəbindən həm işçi qüvvəsinin real dəyərini ölçmək mümkün olmur, həm də vergi və sosial müdafiə orqanlarına ayırmaların azalmasına gətirib çıxarır ki, bu da öz növbəsində məşğulluq siyasətinə mənfi təsir göstərir və onun maliyyə qollarını zəiflədir. Bununla belə, gizli məşğulluq və qeyri-rəsmi iş yerlərinin mövcudluğu əhalinin sosial müdafiəsində ciddi problemlər yaradır, çünki vergi və sosial müdafiə sistemindən kənarda qalır və orada çalışan insanların əmək hüquqlarının muhafizə olunmasında da (məzuniyyətsiz, normadan artıq, zərərli əmək şəraitində işləmə, əmək haqlarının əsassız və kəskin kəsilməsi və s.) çətinlik yaranır (İsmayılov İ., 2012).

Dövlət tərəfindən işçi qüvvəsinin qiymətinin tənzimləməsinin mühim istiqamətlərindən biri də əhalinin gəlir və xərcləri arasındakı fərqləri nəzərə alaraq minimum sosial norma və standartlar sistemini işləyib hazırlamaq ola bilər. Əsas sosial normativ və standartlara minimum əmək haqqı və minimum istehlak büdcəsi aiddir.

Cəmiyyətdə əhalinin həyat şəraitinin yüksəldilməsi, sosial gərginliyin yaranmasının qarşısının alınması, işsiz və gəlirsiz qalan, ixtisası və ya peşəsi köhnəldiyi üçün yeni tələblərə cavab verməyən işçilərin sosial rifahının yüksəldilməsi, yaşayış tələbatlarının ödənilməsi məqsədi ilə dövlət sosial sığorta sisteminin yaradılması mühim yer tutur. Əks halda, iş axtaranların sayı artır və əmək bazarında sıxlıq yaranır, çünki aldığı təqaüd və müavinətlə dolana bilməyən şəxslər başlayır iş axtarmağa. Bu isə öz növbəsində vakant iş yerlərinin sayını kəskin şəkildə azalmasına gətirib çıxarır ki, bunun da nəticəsində əhalinin məşğulluğunu təmin etmək çətinləşir (Quliyev T., 2013).

Burada işsizlik sığortası da mühim rol oynayır. İşsizlik sığortası sayəsində insanlar işini itirdikdə ən azı minimal yaşayış tələbatlarını ödəyə bilirlər. İnkişaf etmiş ölkələrdə məşğulluq sığortasının məbləği və ödənilmə müddəti fərqlənir. ABŞ-da hal-hazırda mövcud qanunvericiliyə görə işsizlik sığortası həftəlik orta hesabla iki yüz ABŞ dolları olmaqla iyirmi altı həftəyə nəzərdə tutulur. Ancaq

işsizlik sığortasına dair qanuna əsasən bütün ştatlar işsizlik müavinətlərinin ödənilməsi üçün federal büdcədən əlavə vəsait almaq imkanına malikdir. İşsizliyin orta səviyyəsi altı faizdən aşağı olan ştatlar müavinətlərin ödənilməsi müddətini dörd, son altı ayda davamlı olaraq səkkiz faiz və daha yüksək olan ştatlarda isə iyirmi həftəyə qədər uzada bilərlər.

Yaponiyada işsizlik müavinətinin həcmi müavinət təyin olunan şəxsin işini itirənədək aldığı əmək haqqına nisbətdə faiz ilə müəyyən edilir. Sığorta məbləği ödənilmə müddəti və sığorta olunanın iş stajından asılıdır. Yaşadığı yerdən kənarda iş axtarmağa məcbur olan şəxslərə isə əlavə nəqliyyat və kirayə haqqı da ödənilir (Весенин В., 2008).

Azərbaycan Respublikasında da işsizlik sığortası mövcud olsa da, sığorta müavinətlərinin həcmi, verilmə proseduru və müddətinin mövcud bazar münasibətlərinin tələblərinə uyğunlaşdırılması yönümündə ciddi və konstruktiv islahatların aparılmasına ehtiyyac vardır.

Azərbaycanda işsiz statusu almış şəxslər işsiz kimi şəhər və ya rayon Məşğulluq Mərkəzlərində qeydiyyata düşdüyü gündən öncəki on iki ay ərzində iyirmi altı həftədən artıq müddətdə rəsmi əmək haqqı aldığı bir işdə çalışdığı halda, onun işsizliyə görə alacağı müavinət son iş yerindəki on iki ay ərzində aldığı məvacibin yetmiş faizi həcmində təyin olunur. Bu zaman həmin müavinətin həcmi müavinətin təyin olunduğu dövrdə ölkədəki orta aylıq əmək haqqından artıq, ölkə üzrə minimum müavinətin məbləğindən isə aşağı olmamalıdır (http://www.bhm.az/az/news/230.html).

Həmçinin, işsiz statusu almaq üçün müraciət edənlər müvafiq məşğulluq orqanında qeydiyyata alındıqdan öncəki on iki ərzində iyirmi altı həftədən az rəsmi maaş aldığı işdə çalışdıqda, həmin işçilərin işsizlik müavinəti ölkə üzrə müəyyən edilmiş müavinətin minimum məbləğinə uyğun olaraq təyin olunur (Хайек Ф., 1992). Qanunvericiliyə görə bir il ərzində həmin şəxs peşəsinə uyğun iş ilə təmin

edilməzsə, həmin vətəndaş təkrar müavinət ala bilər, lakin bu halda müavinət minimum məbləğdə olacaq.

Ölkədə həyata keçirilməsi nəzərdə tutulan "Milli Məşğulluq Strategiyası"-nda işsizlik sığortası sahəsində yeniliklərdən biri də torpaq payı alanların işsizlik statusu və müavinəti almaq hüququndan məhrum edilməsidir (bu "Məşğulluq haqqında" olan Qanunda da nəzərdə tutulub). Hal-hazırda qanunvericiliyə əsasən torpaq payı alan şəxslərin bir çox qismi sosial sahədə çalışan işçilər – həkimlər, müəllimlər, mədəniyyət və incəsənət işçiləri və s. ("Azərbaycan Respublikasının Milli Məşğulluq Strategiyası (2006-2015-ci illər)", Bakı – 26.10.2015). Həmin vətəndaşlar üçün torpaq daim əlavə fəaliyyət istiqaməti və qazanc mənbəyi olmuşdur. Bu baxımdan, qanunvericilikdə bu halın qarşısının alınması əmək bazarının qanunauyğunluğunu təmin etməlidir.

Müavinətlərdən söz açmışkən vətəndaşların sosial rifahının yaxşılaşdırılması, aztəminatlı şəxslərin sosial müdafiəsinin təmin olunması və ümumilikdə pensiya siyasəti sahəsində atılmış uğurlu addımlar sırasında "Azərbaycanda pensiya islahat konsepsiyasının təsdiq edilməsi barədə Sərəncam"-ı xüsusi qeyd etmək olar. Konsepsiya ilkin olaraq 2001-2005-ci illəri əhatə edən pensiya siyasətinin həyata keçirilməsini nəzərdə tutsa da, "Vətəndaşların pensiya təminatı haqqında", "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının qanun və digər hüquqi-normativ aktlarına müxtəlif illərdə dəyişiklik və əlavələr olunmuşdur. Məhz 2001-ci ildən etibarən Azərbaycan Respublikasında sığorta və sosial müdafiə sisteminin müasir dövrün tələblərinə və dünya standartlarına uyğunlaşdırılması prosesinə start verildi və əhalinin pensiya təminatında sığorta prinsipləri nəzərə alınmağa başladı.

Ölkədə hər il yaşa görə əmək pensiyalarının baza hissəsi və sosial müavinətlərin məbləği artırılır, pensiyanın sığorta hissəsi inflyasiya səviyyəsinə görə indeksləşdirilir.

2005-ci ildə ölkə başçısı tərəfindən "Ünvanlı dövlət sosial yardımı haqqında" Qanun imzalandı. Bununla, aztəminatlı ailələrin maddi vəziyyəti və sosial

təminatının yaxşılaşdırılması istiqamətində ciddi addım atılmış oldu. Qanuna uyğun olaraq 2006-cı ildən etibarən aztəminatlı ailələrə ünvanlı dövlət sosial yardımı verilməyə başladı.

Dövrümüzdə işsizlik probleminin geniş vüsət almasında təhsil sisteminin də xüsusi payı vardır. Belə ki, hazırda nüfuzlu sayılan, ancaq gələcəkdə perspektiv və strateji əhəmiyyət daşımayan ixtisaslar üzrə tədrisin təşkili işsizliyə gətirib çıxara biləcək amillərdən biridir. Təhsil sistemi bu cür ixtisasların tədrisini həyata keçirməklə özünün maliyyə problemlərini həll etsə də, gələcəkdə məzunların əmək bazarındakı talelərinə biganə qalır və mənfi təsir göstərir. Əmək bazarına qədəm qoyan çox sayda tələbsiz işçi qüvvəsi ilə işəgötürənlərin məhdud təklifləri arasında yaranmış olan kəskin fərq təhsil sisteminin irrasional fəaliyyətinin nəticəsidir (İsmayılov İ., 2012).

Əmək bazarına təsir edən amillərdən biri də enerji daşıyıcılarının qiymətidir. Enerji daşıyıcılarının ÜDM-in yaranmasında payları digər sahələr ilə müqayisədə daha çoxdur. Enerji daşıyıcılarına tətbiq edilən qiymətlər münasib olsa yeni iş yerlərinin açılması və məşğulluğun təmin edilməsi mümkün olar.

Günümüzdə, "Azərbaycanda Milli Məşğulluq Strategiyasının zəruri hüquqi-normativ bazasının təhlili" mövzusunda müxtəlif səpkili tədbirlərin görülməsi öz aktuallığı ilə seçilir. Aparılan siyasi və sosial-iqtisadi islahatların hüquqi əsasları 12 noyabr 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmişdir. Konstitusiyada hər kəsin qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə məşğuliyyəti və iş yeri seçmək, azad sahibkarlıq və digər hüquqları əsaslı və təntənəli surətdə elan edilmişdir (Azərbaycan Respublikası Konstitusiyası, 1995).

Azərbaycanda qəbul edilmiş sənədlər arasında daha bir sənəd diqqəti çəkməkdədir. Bu, Azərbaycan Respublikasının yeni nəşrdə qəbul edilmiş Əmək Məcəlləsidir ki, burada işəgötürən və işçi arasında olan münasibətlər xüsusi olaraq qeyd olunur. Əmək münasibətlərinin əsas subyektləri olan dövlət, işəgötürən və

işçilərin səlahiyyətli nümayəndələrinin hüquq və vəzifələri bu məcəllədə təsbit olunur. Əmək Məcəlləsində qeyd olunan istiqamətlərin hüquqi inkaşını "Həmkarlar İttifaqı haqqında" və digər bu kimi qanunlar təmin edir.

Əmək Məcəlləsində gündəlik iş vaxtı norması səkkiz saatdan və həftəlik iş vaxtı norması qırx saatdan artıq olmamalıdır. Bundan başqa iyirmi bir təqvim günündən az olmayaraq hər kəsin ödənişli məzuniyyətə çıxmaq hüququ Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapan istirahət və sağlamlığın qorunması hüququ ilə də bağlıdır. Əmək Məcəlləsində yeniyetmələrin və gənclərin əməyinin mühafizə və müdafiəsi başlıca yeri tutmaqdadır. Yeni Əmək Məcəlləsində işçilərin sosial müdafiəsi məsələsinin də geniş formada izahı öz əksini tapmışdır (http://www.e-qanun.az/code/7).

Ümumilikdə, "Milli Məşğulluq Strategiyası"-nın həyata keçirilməsinin hüquqi-normativ əsasını "Əmək Məcəlləsi", "Məşğulluq haqqında", "Miqrasiya haqqında" qanunlar, "İşçilərin qeydiyyata alınması qaydalarının təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin Qərarı, "Məşğulluğa kömək göstərən əlaqələndirmə komitələrinin səlahiyyəti və vəzifələrinin müəyyən edilməsi haqqında" Nazirlər Kabinetinin Qərarları və digər normativ-hüquqi aktlar və xeyli sayda digər hüquqi əhəmiyyət kəsb edən sənədlər təşkil edir. Sözügedən sənədlər arasında "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" (2006-2015), "Azərbayan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı" (2011-2015) xüsusi əhəmiyyət kəsb edən sənədlərdir.

"Azərbaycan Respublikasının Milli Məşğulluq Strategiyası" Azərbaycan Resublikasının Nazirlər Kabineti tərəfindən 20 avqust 2003-cü il tarixində "171s" nömrəli sərəncama əsasən Azərbaycan Hökuməti ilə BMT-nin İnkişaf Proqramı arasında imzalanmış "Milli sosial müdafiə sisteminin inkişafı" layihəsi çərçivəsində işlənib hazırlanmışdır.

Strategiyanın başlıca məqsədi ölkədə bazar əmək münasibətlərinin inkişafı yönündə icra edilən və Preziden İlham Əliyevin rəhbərlik etdiyi islahatları

reallaşdıraraq əhalinin məşğulluq problemini həll etmək və işsizliyi aradan qaldırmaqdır.

Xüsusi qayğıya ehtiyyacı olan şəxslər üçün yeni iş yerlərinin açılması, mövcud iş yerlərində bu qrup əhali üçün şəraitin yaxşılaşdırılması, məşğulluğun inkişafı üçün sərmayə qoyuluşlarının artırılması vacibdir.

"Milli Məşğulluq Strategiyası"-nın aşağıdakı əsas vəzifələrinə aşağıda qeyd olunanları aid etmək olar:

1. Əhalinin məşğulluğunu təmin etmək və kadr potensialının artırılması vasitəsi kimi iqtisadi sabitliyin təmin olunması və qorunub saxlanılması;
2. İşçi əməyinin keyfiyyətinin və rəqabətliyinin artırılması;
3. Yeni kadrların hazırlanması, mövcud kadrların təkmilləşdirilməsi sahəsində fəaliyyət göstərən dövlət məşğulluq xidməti orqanlarının inkişaf etdirilməsi (Azərbaycan Respublikasının Milli Məşğulluq Strategiyası (2006-2015-ci illər)", 26.10.2015).

Yuxarıda qeyd olunan vəzifələri icra etmək məqsədi ilə hökürmət aşağıda qeyd olunan tədbirləri həyata keçirməlidir:

- Sərmaye qoyuluşlarını artırmaqla yeni iş yerlərinin açılmasını təmin etmək;
- Aztəminatlı əhali qruplarına ünvanlı sosial yardımların ayrılması prosedurunu asanlaşdırmaq, ayrılan vəsaitlərin məbləğini artırmaq və ünvanlıqlarını təmin etmək;
- Kadr hazırlığı və təkmilləşdirilməsi sistemini gücləndirmək və bu prosesi sürətləndirmək məqsədi ilə fasiləsiz tədris və təhsil sistemini inkişaf etdirmək;
- İşçilərin əmək hüquqlarının mühafizə olunması istiqamətində görülən tədbirləri gücləndirmək, nəzarət-monitorinq sistemini tətbiq etmək, həmçinin, işçilərin əmək şəraitini, aldıqları əmək haqqı məbləğini və iş vaxtını müasir zamanın tələblərinə uyğunlaşdırmaq;
- Mövcud iş yerlərindəki işçi qüvvəsinin qorunub-saxlanılması və inkişaf etdirilməsi yönümündə tədbirləri həyata keçirmək;

- Düşünülmüş miqrasiya siyasətini həyata keçirmək və miqrantların iş fəaliyyəti və həyat şəraitini daim nəzarətdə saxlamaq;
- Dövlət məşğulluq xidməti orqanlarında işsizliyin aradan qaldırılması və əhalinin məşğulluğunun tam təmin edilməsi yönümündə fəaliyyətini təkmilləşdirmək, məşğulluğun təmin edilməsini nəzərdə tutan bütün fəaliyyət istiqamətləri üzrə vahid siyasət xəttini işləyib hazırlamaq və s. (Azərbaycan Respublikasının Milli Məşğulluq Strategiyası (2006-2015-ci illər)", 26.10.2015).

"Milli Məşğulluq Strategiyası" məşğulluq sferasında beynəlxalq hüquq və normala, həmçinin, Azərbaycanın tərəfkeş olduğu Avropa Sosial Xartiyasına uyğun milli təkmil qanunvericilik bazasının yaradılması, əmək bazarında işçi qüvvəsinin rəqabətə dayanıqlığının təmin edilməsi, yerlərdə və regionlarda məşğulluğun təmin edilməsi, maliyyə və vergi siyasəti vasitəsi ilə əmək bazarının stimulyasiyası, yeni iş yerlərinin açılmasında məhdudiyyətlərin aradan qaldırılması yolu ilə məşğul əhalinin sayının artırılması yönümündə dövlət siyasətinin əsas istiqamətlərini müəyyən edir.

Strategiyanın təhlili nəticəsində aydın olur ki, işçi qüvvəsinə olan tələbat bütün sahələr üzrə hər il azalmaqdadır (təhsil, sosial və səhiyyə xidmətlərindən savayı). İşçi qüvvəsinə olan tələb ilə təklif arasında mövcud tarazlığın təmin edilməsi son on yeddi ildə qəbul olunan qanun və digər hüquqi-normativ aktların hesabına mümkün olub.

Məşğulluğun təmin edilməsinə mənfi təsir göstərən amillərin çoxluğunu nəzərə alaraq "Milli Məşğulluq Strategiyası"-nda bu amillər aşağıda qeyd edildiyi kimi müəyyən edilmişdir:

- İşəgötürən təşkilar və qurumlar tərəfindən işçilərə edilən təşkilati təzyiqlər;
- İşə qəbul olmaq istəyən namizədlərə işəgötürənlər tərəfindən göstərilən təşkilati, psixoloji və sosioloji təsirlər;
- Məcburi köçkünlərin özlərinə olan inamını sındıran və bununla da onların gördüyü işin keyfiyyətini xeyli aşağı salan təşkilati təsirlər;

- İşçilərdə lazımi texniki bilik və bacarıqların olmaması;
- Ticarətə mənfi təsir göstərən təşkilati təsirlər;
- İqtisadi qərarlar qəbul edilən zaman direktorlar şurası və ya sahibkarlar arasında şəffaflığın olmaması;
- Şirkət və təşkilatlar tərəfindən əmək birjalarına boş iş yerləri barədə lazımi məlumatların verilməməsi, bu şirkət və təşkilatlara təsir edə biləcək inzibati təsir rıçaqlarının olmaması və digər başqa səbəblər (Azərbaycan Respublikasının Milli Məşğulluq Strategiyası (2006-2015-ci illər)", 26.10.2015).

"Milli Məşğulluq Strategiyası"-nın dörd əsas məqsədi var:

1. İşsizliyi və yarımməşğuliyyətliliyi azaltmaq üçün yeni iş yerlərini yaratmaq, prioritet olan iqtisadi sahələrə sərmaye qoymaq, mövcud iş yerlərini inkişaf etdirmək;
2. Yeni iş yerlərinin yarada biləcək sahibkarlara dövlət dəstəyini təmin etmək və münbit sahibkarlıq mühitini yaratmaq və inkişaf etdirmək;
3. İş axtaranlar və işə götürənlər arasında razılığa və qazan-qazan prinsipi ilə işləmələrinə nail olmaq;
4. Azərbaycanda məşğulluğu təmin edəcək və işsizlik problemini həll edə biləcək strategiyaları həyata keçirmək.

Yuxarıda qeyd edilənləri ümumiləşdirsək məşğulluq strategiyasının izahını aşağı qeyd edildiyi kimi verə bilərik:

İşçi bazarında öz əməyini təklif edən vətəndaşlarının təhsili, qabiliyyəti və bacarıqlarına uyğun olan və sərf etdiyi əməyin qarşılığında alacaqları əmək haqqı müqabilində normal həyat şəraitini təmin edə biləcəkləri işlə məşğul ola bilmələrini mümkün qədər təmin etmək.

Bu vəzifənin icra edilməsi isə özəl sektorun dövlət tərəfindən hərtərəfli dəstəyin göstərilməsi və münbit iqtisadi vəziyyətin yaradılmasından keçir.

Azərbaycan Respublikasında regionların inkişafı da sosial-iqtisadi inkişaf strategiyasının ayrılmaz bir hissəsidir. Bu sahədə qəbul edilmiş və uğurla həyata keçirilən dövlət proqramları və digər layihələrdə nəzərdə tutulmuş vəzifələrin icrası qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastrukturun keyfiyyətinin artırılmasına, sahibkarlıq fəaliyyətinin daha da yaxşılaşdırılmasına, sərmayenin cəlb edilməsinə, yeni iş yerlərinin açılmasına və nəticədə əhalinin məşğulluğunun artmasına və yoxsulluq səviyyəsinin azalmasına gətirib çıxarmışdı.

2004-cü ildən regionların inkişafı sahəsində başlanılmış siyasətin məntiqi davamı "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"-nın hazırlanması oldu. Proqram ölkə iqtisadiyyatının inkişafında önəmli yer tutmaqla yanaşı, makroiqtisadi sabitliyin təmin olunması, regionlarda sahibkarlıq fəaliyyətinin genişlənməsi, yeni iş yerlərinin açılması, iri infrastruktur layihələrinin həyata keçirilməsi, əhalinin maddi vəziyyətinin və sosial rifahının təmin edilməsi, həmçinin, regionlarda yoxsulluğun aradan qaldırılması və məşğulluğun artırılması sahələrində müstəsna rol oynamışdır.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" üzrə nəzərdə tutulmuş Tədbirlər Planına aşağıdakılar aiddir:

- Ölkə əhəmiyyətli tədbirlər;
- Ölkənin iqtisadi rayonları üzrə tədbirlər:
- Naxçıvan iqtisadi rayonu (Naxçıvan şəhəri, Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Kəngərli, Şərur rayonları);
- Abşeron iqtisadi rayonu (Abşeron, Xızı rayonları, Sumqayıt şəhəri);
- Aran iqtisadi rayonu (Ağcabədi, Ağdaş, Beyləqan, Bərdə, Biləsuvar, Göyçay, Hacıqabul, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad, Salyan, Ucar, Zərdab rayonları, Şirvan, Mingəçevir, Yevlax şəhərləri);

- Dağlıq Şirvan iqtisadi rayonu (Ağsu, İsmayıllı, Qobustan, Şamaxı rayonları);
- Gəncə-Qazax iqtisadi rayonu (Goranboy. Göygöl, Ağstafa, Daşkəsən, Gədəbəy, Qazax, Samux, Şəmkir, Tovuz rayonları, Gəncə və Naftalan şəhərləri);
- Quba-Xaçmaz iqtisadi rayonu (Şabran, Xaçmaz, Quba, Qusar, Siyəzən rayonları);
- Lənkəran iqtisadi rayonu (Astara, Cəlilabad, Lerik, Masallı, Qubadlı rayonları);
- Kəlbəcər-Laçın iqtisadi rayonu (Kəlbəcər, Laçın, Zəngilan, Qubadlı rayonları);
- Şəki-Zaqatala iqtisadi rayonu (Balakən, Qax, Oğuz, Zaqatala, Qəbələ, Şəki rayonları);
- Yuxarı Qarabağ iqtisadi rayonu (Ağdam, Tərtər, Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl, Füzuli rayonları, Xankəndi şəhəri).

Dövlət Proqramının icraçıları mərkəzi və yerli icra hakimiyyəti orqanlarıdır. Proqramın icrasının əlaqələndirilməsi Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən həyata keçirilib.

Bütün iqtisadi rayonların inkişafını təmin etmək məqsədi ilə Proqram çərçivəsində ümumilikdə 240 sərəncam imzalanmışdır.

Dövlət proqramlarının icra olunduğu on il ərzində ÜDM 3,2 dəfə, qeyri-neft sektoru 2,6 dəfə, sənaye 2,7 dəfə, kənd təsərrüfatı 1,5 dəfə, investisiyalar 6,5 dəfə, əhalinin gəlirləri 6,5 dəfə, orta aylıq əmək haqqı 5,5 dəfə artmışdır.

Son on ildə ölkənin valyuta ehtiyyatları 31 dəfə, xarici ticarət dövriyyəsi 6,6 dəfə, ixrac 9,3 dəfə, idxal 4,1 dəfə, qeyri-neft sahəsində ixrac 4,7 dəfə artmışdır.

Azərbaycan iqtisadiyyatı "Qlobal rəqabət qabiliyyəti indeksi" hesabatına əsasən, rəqabət qabiliyyəti səviyyəsinə görə 39-cu, MDB ölkələri arasında birinci yeri tutmuşdur. 2014-cü ildə Azərbaycan ilk dəfə olaraq "yuxarı orta gəlirli" və "yüksək insan inkişafı" ölkələr qrupuna daxil olunmuşdur. Nüfuzlu beynəlxalq reytinq təşkilatları ("Fitch Ratings", "Standart & Poor's" və "Moody's") Azərbaycana investisiya kredit reytinqi vermiş və Azərbaycan Qafqaz ölkələri arasında investisiya reytinqinə malik tək ölkə olmuşdur.

“Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” çərçivəsində bir çox yeni və innovativ layihələr icra edildir. Bunlara Sumqayıt Texnologiyalar Parkını, Sumqayıt Kimya Sənaye və Balaxanı Sənaye Parklarını, Yüksək Texnologiyalar Parkını aid etmək mümkündür. Həmçinin Proqram çərçivəsində kənd təsərrüfatı məhsulları istehsalçılarının istifadə etdikləri yanacağın, motor yağlarının və mineral gübrələrin dəyərinin təxminən əlli faizinin dövlət tərəfindən ödənilməsi təmin edilmişdir. Bundan başqa, ölkədə buğda istehsalının stimullaşdırılması məqsədi ilə yardımın göstərilməsi, toxumçuluq və damazlıq işləri üzrə müəyyən işlərin təşkili, aqroservis xidmətlərindən güzəştli qiymətlərlə istifadə dövlət hesabına təşkil edilmişdir. Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu və Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi tərəfindən kənd təsərrüfatı məhsulları isehsalçılarına kənd təsərrüfatı sahəsinin inkişafı məqsədi ilə güzəştli kreditlər verilmişdir.

“Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”-nın icrası dövrü ərzində Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına ümumilikdə 19100 sahibkarlıq subyektinə 1200000000 manat güzəştli kreditlər ayrılmış, nəticədə 110000 yeni iş yeri açılmışdır.

Həmçinin regionlarda təşkil edilən biznes forumlar yerli və xarici iş adamları arasında maarifləndirmə işlərinin təşkilinə, onların məlumat əldə etmə imkanlarının genişləndirilməsinə, regionların mövcud təbii və əmək resurslarından səmərəli istifadəyə, həmçinin sərmayenin regionların inkişafına cəlb edilməsinə xidmət edirlər.

Proqram çərçivəsində həmçinin ölkənin tranzit potensialının artırılması da öz əksini tapmışdır. Belə ki, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin fəaliyyəti, Bakı-Tbilisi-Qars dəmir yolunun, Ələt Beynəlxalq Dəniz Ticarət Limanının,

Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri üzrə magistral yolların tikintisi layihələri uğurla davam etdirilmişdir.

Proqram çərçivəsində son illər ərzində regionlarda 8300 km respublika və yerli əhəmiyyətli avtomobil yolları tikilmiş və təmir edilmiş, 307 yeni körpü və keçid inşa edilmiş, Naxçıvan, Gəncə, Lənkəran, Zaqatala, Qəbələ və Yevlax şəhərlərində hava limanları istifadəyə verilmişdir. Nəqliyyat hərəkətinin tənzimlənməsi və idarə olunması məqsədi ilə paytaxtda Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzi (NİİM) yaradılmışdır.

Sosial-iqtisadi inkişafın ayrılmaz hissəsi olan informasiya-kommunikasiya texnologiyalarının inkişafında da 8,2 dəfə artım olmuşdur. Yeni rəqəmsal layihələr və bunların içində ən önəmlisi "Elektron Hökümət Portalı" istifadəyə verilmişdir. Regionlarda 1400 ATS, 1000 poçt binası tikilmiş və əsaslı təmir edilmişdir. Hər yüz ailəyə düşən telefon aparatlarının sayı 1,6 dəfə, mobil telefon istifadəçilərinin sayı isə 9,6 dəfə artmışdır. 2013-cü ildə Azərbaycanda "İnformasiya-Kommunikasiya texnologiyaları ili" elan edilmiş və 8 fevral 2013-cü il tarixində Azərbaycanın ilk telkommunikasiya peyki orbitə çıxarılmışdır ("Azərbaycan Respublikası regionlarının 2014-20118-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" haqqında, 2010).

"2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" Azərbaycan Respublikasının Prezidentinin 15 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmişdir. Proqram əsas doqquz strateji məqsədi əks etdirir:makroiqtisadi sabitliyi saxlamaq və qeyri-neft sektorunu tarazlı inkişaf etdirməklə davamlı iqtisadi artımın təmin edilməsi, əhalinin gəlir əldə etmək imkanlarının genişləndirilməsi, yaşlı əhalinin, aztəminatlı ailələrin və sosial cəhətdən xüsusilə həssas qrupların sosial riskinin azaldılması, qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması tədbirlərinin davam etdirilməsi, təhsil və səhiyyə sahəsində xidmətlərin keyfiyyətinin yüksəldilməsi, sosial infrastrukturun inkişaf etdirilməsi (https://www.economy.gov.az/article/state-program-on-the-implementation/21508).

Proqramın icra müddəti ərzində ölkədə işsizlik səviyyəsinin 3-4% həddinədək, yoxsulluq səviyyəsinin isə iki dəfə azaldılması nəzərdə tutulmuşdur. Bu sahədə bir çox tədbirlər də həyata keçirilmişdir və nəticədə göstərilən dövr ərzində ÜDM həcmi 50,1 milyard manat təşkil etmiş, adambaşına düşən ÜDM həcmi isə 5530,6 manat (həmin dövr üçün 7003,4 ABŞ dolları, bu günki tarix üçün isə 3249,5 ABŞ dolları) təşkil etmişdir.

Göstərilən dövr ərzində ÜDM-un 53,9% sənaye sahələrində, 5,5% kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatında, 8,3% tikinti kompleksində, 7,7% ticarət və pullu xidmət sahələrində, 4,9% nəqliyyat sahəsində, 1,7% rabitədə, 12% digər xidmətlər və sosial sahələrdə yaradılmış, 6% isə məhsula və idxala tətbiq edilən xalis vergilərin payına düşmüşdür.

Ümumi daxili məhsul istehsalı qeyri-neft sektorunda 9,4 faiz artmış, neft sektorunda isə 9,3 faiz azalmışdır.

"2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"-nda təhsil, səhiyyə, ətraf mühitin mühafizəsi və başqa sahələrdə nəzərdə tutulmuş tədbirlərin icrası ölkədə yoxsulluq səviyyəsinin aşağı salınmasında mühim rol oynayıb (https://www.economy.gov.az/article/state-program-on-the-implementation/21508).

Yoxsulluğun və yoxsulluğun əsas səbəbi olan işsizliyin aradan qaldırılması məsələsi və bu istiqamətdə görülməli olan tədbirlər planı Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətində də öz əksini tapmışdır.

## 2.3. İşsizliyin aradan qaldırılması üçün institusional dəyişikliklər və informasiya resurslarından istifadə vəziyyəti

İnformasiya-kommunikasiya texnologiyalarının sürətlə yayılması, elektron idarəetmə sistemlərinin inkişafı, kargüzarlıq işinin və sənəd dövriyyəsinin müxtəlif proqramlar vasitəsi ilə aparılması zamanımızın reallıqlarıdır.

Müasir dövrdə inkişaf etmiş ölkələrdə demokratiya göstəricilərindən biri də "açıq hökümət" və ya "elektron hökümət" (*"E-Government"*) portallarıdır.

İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı Azərbaycan Respublikasından da yan keçməmişdir. Azərbaycan öz inkişaf mərhələsində keyfiyyətcə yeni mərhələyə keçid almışdır. Bu istiqamətdə dövlət səviyyəsində görülmüş işlər sırasında "Elektron Hökümət Portalı"-nı xüsusi qeyd etmək mümkündür.

"Elektron hökümət"-in ərsəyə gəlməsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, 2003-cü ildə ümummilli lider tərəfindən "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya"-nın layihə sənədi imzalanmışdır və bu Strategiya çərçivəsində atılacaq əsas addımlardan biri "Elektron hökümət"-in formalaşdırılması idi. Layihənin əsas məqsədləri sırasında, vətəndaş-məmur münasibətlərində şəffaflığın təmin edilməsi, vaxta qənaət, sənəd dövriyyəsinin azaldılması, bürokratiyaya yol açan amillərin aradan qaldırılması dururdu.

Yuxarıda sadalan məqsədlərə çata bilmək üçün "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası qəbul olunmuşdur. Məhz bu Konsepsiyada Azərbaycan iqtisadiyyatında informasiya-kommunikasiya texnologiyaların mümkün tətbiqi öz əksini tapmışdır ("Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyası, https://president.az/files/future_az.pdf).

"Elektron Hökümət Portalı"-nın yaradılması Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan)" təsdiq edilməsi haqqında Sərəncamı və "Dövlət orqanlarının elektron xidmətlər göstərilməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" 23 may 2011-ci il tarixli Fərmanı əsasında mümkün olmuşdur.

“Elektron Hökümət Portalı” informasiya-kommunikasiya texnologiyaların imkanlarından istifadə etməklə Azərbaycan Respublikasında yaşayan vətəndaşlara elektron portal üzərindən dövlət xidmətlərinin göstərilməsini nəzərdə tutur.

Dövlət orqanları arasında informasiya mübadiləsi vahid “bir pəncərə” prinsipi əsasında www.e-gov.az (“Elektron Hökümət Portalı”) saytı vasitəsilə həyata keçirilir.

Dünyada “Elektron hökümət” portallarından istifadə edən yüz doxsan üç ölkə arasında Azərbaycan Respublikası altmış səkkizinci yeri tutmaqdadır. Portal vasitəsi ilə göstərilən xidmətlərin sayı dörd yüzdən çoxdur və bu rəqəm getdikcə artmaqdadır. Portala qırx üç nazirlik, komitə, idarə və digər dövlət qurumu qoşulmuş, doqquz fəaliyyət istiqaməti üzrə yüz altmış xidmət növü göstərilməkdədir.

“Elektron Hökümət Portalı” Azərbaycan Respublikasınınn Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin birbaşa kurasiyası altında fəaliyyət göstərir. Portalda istifadə olunacaq elektron imzaların hazırlanması məqsədi ilə Milli Sertifikasiya Xidmətləri Mərkəzi də yaradılmışdır.

“Elektron Hökümət Portalı”-nda göstərilən xidmətlərdən biri də əmək müqavilələrinin elektron qeydiyyatıdır.

Bu xidmət portaldakı “Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi” tərəfindən icra edilən xidmətlər siyahısında “Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi” bəndində öz əksini tapmışdır.

Əmək müqaviləsi bildirişləri üzrə elektron informasiya sisteminin yaradılması 2014-cü ilin iyul ayından başladı.

Əmək Məcəlləsinə görə işəgötürən tərəfindən işçinin rəsmiləşdirilməsi zamanı əmək müqavilələrinin bağlanılması, onlara dəyişikliyin edilməsi və xitam

verilməsi elektron qaydada icra edilməlidir, yəni işəgötürən elektron sistemə yeni sənəd – yəni yeni əmək müqaviləsini daxil etməlidir.

Sistemdə icra edilən əməliyyatların təhlükəsizliyinin qorunması işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin elektron imzası vasitəsi ilə təmin edilir. Elektron imza (e-imza) işəgötürənin imzası və möhürü ilə eyni hüquqi statusa malikdir və eyni hüquqi qüvvəyə malikdir.

Elektron əmək müqaviləsi işəgötürən ilə işçi arasındakı əmək münasibətlərini tənzimləyir, inkişafda olan və inkişafdan qalan fəaliyyət sahələri üzrə hesabatın alınmasını asanlaşdırır, əhalinin maddi vəziyyətinin yaxşılaşdırılmasına xidmət edir, işəgötürənin və işçinin hüquq və vəzifələrini təsbit edir, sosial təminatın qarantı kimi çıxış edir.

“Elektron Hökümət Portalı” vasitəsi ilə vətəndaşlar öz əmək müqavilələri haqqında bildirişləri “Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi” xidməti vasitəsi ilə əldə edə bilərlər. Bu xidmət vasitəsi ilə işçi portaldan qeydiyyatdan keçib, əmək müqavilələri və əmək haqqı barədə məlumatı əldə edə, “İş yerinə dair arayış” xidməti vasitəsi ilə isə arayışı formalaşdırıb yükləyə, aidiyyatı quruma elektron və ya kağız formasında göndərə bilər.

Beləliklə, köhnə idarədiçilik metodu ilə “Elektron Hökümət” layihəsinin müqayisəsini aparsaq, aşağıda qeyd edilən məqamları görə bilərik:

Köhnə idarəçilik metodu zamanı bürokratik əməliyyatlar mövcud idi və bu əməliyyatlar bürokratik sistemin yaranmasına və inkişaf etməsinə şərait yaradırdı. Bu sistemdə cəmiyyət aşağıda qeyd edilən mənfi təsirlərə məruz qalırdı:

- Qeyri-şəffaflıq;
- Əlavə enerji itkisi;
- Əlavə vaxt itkisi;
- İdarəçilik sisteminə inamsızlıq;

- İdarəcilikdə cəmiyyətin rolu və fəaliyyətinin zəifliyi;
- Sosial tərəqqinin inkişaf etməməsi və s.

"Elektron Hökümət" layihəsinin tətbiqindən sonra bürokratik əməliyyatlar yeni innovativ idarəetmə modelləri ilə əvəz olundu və aşağıda qeyd edilən məqamlar öz əksini tapmağa başladı:

- Şəffaflıq təmin edilir;
- Sərf edilən əlavə enerji alternativ sahələrə yönəlir;
- Sərf edilən vaxt daha səmərəli istifadəyə yönəlir;
- İdarəçilik sisteminə inam bərpa olunur;
- İdarəcilikdə cəmiyyətin rolu və fəaliyyəti artırılır;
- Sosial tərəqqi inkişaf edir və s. ("Elektron Hökümət xalqın gözü ilə...", https://www.e-gov.az/az/news/read/154).

"Elektron Hökümət Portalı" saytı (www.e-gov.az) vasitəsi ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təqdim etdiyi "Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi" elektron xidmətindən 109737 dəfə, "Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi" elektron xidmətindən 60354 dəfə, "İş yerinə dair arayış" elektron xidmətindən 10592 dəfə istifadə olunmuşdur (https://www.e-gov.az/az/news/read/299).

"Elektron Hökümət Portalı"-nda aktiv olan bildirişlərin sayı 1164552 ədəddir, onların 93,8 faizini hüquqi şəxs statusunda olan işəgötürənlərlə əmək müqaviləsi bağlayaraq əmək fəaliyyətində olan işçilər üzrə olan bildirişlər təşkil edir (http://www.bhm.az/az/news/230.html).

Bu gün "Elektron Hökümət Portalı" dövlət və hökümət səviyyəsində idarəçilik üsulu kimi seçilib və vətəndaşlara 24 saat fasiləsiz fəaliyyət göstərməkdədir.

# III FƏSİL. İŞSİZLİYİN DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

## 3.1. Struktur işsizliyin aradan qaldırılması sahəsində həyata keçirilən dövlət tədbirlərinin təkmilləşdirilməsi

Azərbaycanda həyata keçirilən sosial tədbirlərin prioritet istiqamətlərinə məşğulluğa aid tədbirlərin keçirilməsi və işçi qüvvəsinin səmərəli istifadəsinin təşkil edilməsi də aiddir. Dövlət Statistika Komitəsi tərəfindən verilən rəsmi məlumata əsasən, 2019-ci il 1-ci rübünə ölkə əhalisinin sayı on milyon nəfər təşkil edib. Əhalinin 53,1% şəhərlərdə, 46,9% isə kənd yerlərində yaşayır, 49,8% kişilər, 50,2% qadınlar təşkil edir. Əmək qabiliyyəti yaşda olanlar əhalinin 65,9%-ni təşkil edir. Respublikada iqtisadi fəal əhali beş milyon altı min səkkiz yüz nəfər, onlardan dörd milyon yeddi yüz otuz üç min yeddi yüz nəfəri iqtisadiyyatın müxtəlif sahələrində məşğul olan əhali təşkil edib.

Yeni iş yerlərinin açılması, əhalinin məşğulluq səviyyəsinin artırılması və ailə təsərrüfatının inkişafına təkan vermək məqsədilə dövlət tərəfindən çox önəmli bir addım atılmışdır. Belə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 23 sentyabr 2016-cı il tarixində imzalanan Fərmana əsasən Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN Xidmət) nəzdində "ABAD" publik hüquqi şəxs yaradılmışdır.

Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında vətəndaşların fəal roluna, kiçik və orta sahibkarlığın inkişafına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına və rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşmasına kömək etmək məqsədi ilə sosialyönümlü layihələr həyata keçirən "ABAD" (Ailə Biznesinə Asan Dəstək) mərkəzləri yaradılmışdır.

Bu mərkəzlər dekorativ-tətbiqi xalq sənətkarlığı və kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən ailə bizneslərinə dövlət xətti ilə dəstək layihələri həyata keçirilməkdədir.

“ABAD” mərkəzləri ailə təsərrüfatlarına biznes-planlaşdırma, marketinq, brendinq və dizayn, reklam, maliyyə-muhasibat, hüquqi yardım xidmətlərini göstərməkdədir. Hazır məhsulun üzərində istehsalçının brendi ilə birlikdə, istehsal olunan məhsulların “ABAD” mərkəzlərinin nəzarəti altında hazırlandığını bildirən nişan və sertifikat nömrəsi əks olunur. Həmçinin, istehsal olunmuş məhsulların “bir pəncərə” prinsipi ilə sertifikatlarşdırılması, logistika və satışının təşkilini də “ABAD” mərkəzləri təmin edir.

Dekorativ-tətbiqi xalq sənətkarlığı sahəsində çalışan ailələrə dəstək çərçivəsində “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğunda, Heydər Əliyev adına Benyəlxalq Hava Limanında, Bakı Dəmiryolu vağzalının ərazisində, Şamaxının Dəmirçi kəndində, Qəbələ rayonu Durucu kəndi “Tufandağ” dağ-xizək kurortunda “ABAD” sərgi-satış mərkəzləri fəaliyyət göstərməkdədir.

Mərkəzlərdə Azərbaycanın müxtəlif regionlarından sənətkar ailələrinin əl işləri və “ABAD” layihəsi çərçivəsində ailə biznesi ilə məşğul ailələrin cem və mürəbbə məhsulları da satışa çıxarılmışdır.

“ABAD” layihəsinin dəstəyi ilə yaradılmış brendlərə aşağıdakıları aid etmək olar:

- İsmayıllı rayonunda Qəniyevlər ailəsi tərəfindən “Babadağ” brendi altında təbii bal istehsalı;
- Masallı rayonunda Ələsgərovlar ailəsi tərəfindən “Bəh-Bəh” brendi altında bişmiş, hisə verilmiş və südlü sosislərin istehsalı;
- Balakən rayonunda Qurbanovlar ailəsi tərəfindən “Bağ gözəli” brendi altında cənnət alması, qoz, qarpız mürəbbələrinin istehsalı;
- Masallı rayonunda Hüseynovlar ailəsi tərəfindən “Təklə” brendi altında təbii bal istehsalı;
- Balakən rayonunda Şabanovlar ailəsi tərəfindən “Bizim nemət” brendi altında kolbasa istehsalı;
- Masallı rayonunda Rəhimovlar ailəsi tərəfindən “Kəndli” brendi altında kolbasa istehsalı;

- Balakən rayonunda Nəzirovlar ailəsi tərəfindən “Şanlı” brendi altında təbii şanılı bal istehsalı;

- Masallı rayonunda Şükürovlar ailəsi tərəfindən “Şərəfə” brendi altında pendir istehsalı və s.

Ölkədə iqtisadi inkişaf sahəsində atılmış digər bir önəmli addım da strateji yol xəritələrinin işlənib hazırlanması oldu.

Strateji yol xəritələri iqtisadiyyatın müxtəlif sahələrinin inkişafını təmin etmək və məşğulluğu artırmaq məqsədi ilə işlənib hazırlanmışdır. Ölkə iqtisadiyyatına sərmayə axışının cəlb edilməsi, sağlam rəqabət mühitini təmin edilməsi, eləcə də insan kapitalının inkişafı Azərbaycan iqtisadiyyatının mövqelərinin gücləndirilməsinə və ölkənin yüksək gəlirli ölkələr sırasına daxil olmasına xidmət edəcəkdir (Azərbaycan Respublikasının milli iqtisadiyyat üzrə Strateji Yol Xəritəsi, 2016).

Ölkə iqtisadiyyatının on bir sektoru üzrə on iki strateji yol xəritəsi hazırlanmış və prezident İlham Əliyev tərəfindən imzalanan “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətlərinin təsdiqi və bundan irəli gələn məsələlər haqqında” sərəncam ilə təsdiq edilmişdir. Strateji yol xəritəsi qısamüddətli, ortamüddətli və uzunmüddətli dövrləri əhatə edir. Layihə çərçivəsində 2020-ci ilədək inkişaf strategiyasının və tədbirlər planının hazırlanması, 2025-ci ilədək uzunmüddətli baxışın təsbiti və 2025-ci ildən sonrakı dövrü əhatə edəcək hədəf baxışının formalaşdırılması nəzərdə tutulur. Strateji yol xəritəsi yalnız inkişaf hədəflərini deyil, həmçinin bu hədəflərə çatmaq məqsədi ilə görüləcək tədbirləri, cəlb olunması vacib olan investisiya yatırımlarını və onların nəticələrini əhatə edir. Qısamüddətli dövrdə icrası nəzərdə tutulan hədəflərin həyata keçirilməsi ortamüddətli və uzunmüddətli dövrlər üçün baza rolunu oynamalıdır(https://president.az/files/future_az.pdf). Özəl sektor iqtisadiyyatın hərəkətverici qüvvəsi rolunu oynayacaq, dövlət investisiyaları isə bu prosesin gedişatını sürətləndirəcəkdir. Strateji yol xəritəsində nəzərdə tutulan tədbir və layihələrin icrasını aidiyyatı qurum və dövlət strukturları məsuliyyət

daşıyacaqdır. Son on beş ildə ölkədə iqtisadi artım müşahidə olunmaqdadır. Neft gəlirlərinin ölkə iqtisadiyyatına investisiya olunması qeyri-neft sektorunun inkişafına gətirib çıxarmış və bununla da əhalinin sosial rifahı yaxşılaşmışdır, dövlət büdcəsinə daxilolmalar xeyli artmışdır. 2014-cü ildən etibarən dünya bazarında neft qiymətlərinin xeyli aşağı düşməsi, bir çox ölkələrin iqtisadiyyatında baş vermiş böhranlar Azərbaycan iqtisadiyyatına da mənfi təsir göstərmiş, dövlət büdcəsində kəskin kəsrlər yaranmış və maliyyə-bank sektorunda yaşanan problemlər yeni iqtisadi inkişaf strategiyasının işlənib hazırlanmasına zərurət yaratmışdır. Davamlı iqtisadi inkişafı təmin etmək üçün yeni iqtisadi sahələrə ayrılan diqqətin artırılmasını vacib etmişdir. Bura dövlət sektoru yerinə özəl sahibkarlığın inkişafını, aşağıixtisaslı əmək əvəzinə yüksəkixtisaslı əməyin tətbiq olunmasını, hasilat əvəzinə emal sənayesinin inkişafını aid etmək olar. Maliyyə-bank sektorunun və biznesin, xüsusən də, kiçik və orta sahibkarlığın inkişafını xarici bazarlara inteqrasiya təmin edə bilər. Bu məqsədlə, dörd strateji hədəf təyin olunmuş və onlardan da üçüncü və dördüncüsü insan kapitalının inkişafı və biznes mühitinin yaxşılaşdırılmasını nəzərdə tutur. Onu da qeyd etmək lazımdır ki, bölgələrdə işçi qüvvə paytaxta nisbətən daha ucuz və əlverişlidir. Bu faktor bölgələrdə əməktutumlu sahələrin inkişafı üçün münbit şərait yaradır. Bu səbəblə yüksəkixtisaslı işçi heyətin, keyfiyyətli iş mühitinin və əlçatan maliyyə mənbələrinin olması vacibdir.

Milli iqtisadiyyat üzrə 2020-ci ilədək strateji baxış öncə xarici amillərin ölkə iqtisadiyyatına təsirini azaltmağı, bu təsirin fəsadlarını aradan qaldırmağı, daha sonra isə Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasını nəzərdə tutur (Azərbaycan Respublikasının milli iqtisadiyyat üzrə Strateji Yol Xəritəsi, 2016).

Beləliklə, 2020-ci ilədək görüləcək işlər sonrakı dövrlər üçün təməl rolunu oynayacaqdır. Azərbaycan Qərbin enerji təhlükəsizliyi və nəqliyyat dəhlizlərinin inkişafında oynadığı xüsusi rolu saxlamaqla yanaşı, Strateji yol xəritəsi ilə nəzərdə tutulmuş digər sahələrin də inkişafını təmin edəcəkdir.

İqtisadiyyatın şaxələnməsində əsas məqsəd qeyri-neft sahələrinin inkişafını, yüksək gəlirin əldə olunmasını və bu inkişaf nəticəsində əldə olunan gəlirin ədalətli bölgüsünü təmin etməkdir. Neft gəlirləri hesabına ölkədə yeni iş yerləri açılmış, əhalinin məşğulluğu təmin olunmuş və yoxsulluq nisbətən azalmışdır. Ancaq, bu sahənin inkişafı bir qədər ləng getdiyindən, burada çalışan şəxslər ölkədəki ümumi işçi qüvvəsinin bir faizini təşkil edir.

Gəlirlərin az olması və iş yerlərinin yetərli sayda olmaması işçi qüvvəsinin ölkədən xaricə, əsasən də sərhədyanı ölkərə getməsinə səbəb olur. Bir sıra mal və xidmət sahəsi üzrə yeni iş yerlərinin yaradılmasına kömək etmək məqsədi ilə yerli və xarici investorların cəlb edilməsi və biznes mühitinin inkişaf etdirilməsi vacibdir.

Qısamüddətli dövrü əhatə edən strateji baxış xarici bazarlara çıxışın genişlənməsini nəzərdə tutur. Bu həmçinin təbii sərvətlərdən daha səmərəli istifadəni və əldə olunan dəyərin ədalətli bölgüsünü təmin edəcək.

İqtisadiyyatın davamlı inkişafını təmin etmək üçün ölkə iqtisadiyyatının və dövlət büdcəsinin neft gəlirlərindən asılılığını azaltmaq lazımdır. Dünya bazarında neft qiymətlərində müşahidə olunan dəyişikliklər dövlət büdcəsinə və ölkə iqtisadiyyatına mənfi təsir göstərə bilər. Həmçinin, neft gəlirlərinin xarici valyuta daxilolmalarının əsas mənbəyi olduğundan dünya bazarında neft qiymətlərində müşahidə olunan dəyişikliklər milli valyutanın dəyərinin düşməsinə səbəb ola bilər. Bu cür halların qarşısının alınması və dövlət büdcəsini sarsıntılardan qorumaq məqsədi ilə "qızıl qayda"-ya riayət etmək lazımdır. Qaydaya əsasən neft gəlirlərinin ədalətli bölgüsünü təmin etmək üçün neft fondundan dövlət büdcəsinə ödənilmiş gəlirləri dayanıqlı iqtisadi inkişafın təmin edilməsi yolunda istifadəsi nəzərdə tutulmuşdur.

Bu istiqamətdə 2020-ci ilədək layihənin keçiriləcəyi dövr ərzində kommunal xidmət sahələrinin və mənzil təminatının yaxşılaşdırılmasını, yeni iş yerlərinin açılmasını, müasir təhsil və səhiyyə sisteminin tətbiqini nəzərdə tutan tədbirlər həyata keçiriləcəkdir. Sağlam rəqabətin təmin edilməsi, eləcə də özəl sahələrin

inkişafı ölkəyə investisiya axınını sürətləndirəcək əsas amildir. Müvafiq tənzimləmələr rəqabəti artıracaq, mal və xidmətlərin istehsalında daha keyfiyyətli və səmərəli artıma şərait yaradacaq. Bununla yanaşı, kiçik və orta sahibkarlığın inkişafına da diqqət ayrılacaq. Görüləcək işlərin məntiqi nəticəsi bölgələrdə məşğulluq artacaq və işsizlik probleminin həlli yönümündə nəzərəçarpacaq işlər görülmüş olacaq.

2025-ci ildən sonrakı dövrün hədəf baxışında insan potensialının realizə edilməsində əlverilşli vəziyyətin yaradılacağı nəzərdə tutulmuşdur. Keyfiyyətli həyatın başlıca şərtləri səhiyyə, firavanlıq və təhsildir. Bu dövrdə keyfiyyətli səhiyyə xidmətlərindən istifadə, yüksək səviyyəli təhsil əldə edə bilmə, eləcə də yoxsulluğun ünvanlı şəkildə ləğvinin baş verəcəyi nəzərdə tutulur. Növbəti on ildə dövlət iqtisadi inkişafın əhalinin ən kasıb təbəqələrini belə əhatə etməsini təmin etməyi planlaşdırır. Nəticədə bu yoxsulluğun tam olaraq ləğvinə gətirib çıxaracaqdır. 2025-ci ildən sonrakı dövrdə dövlət yoxsulluğun ləğv edilməsi üçün iki təsir rıçaqından istifadə edəcəkdir: əldə etdiyi gəlirlər ilə ən vacib ehtiyyaclarını ödəməyi qadir olmayan şəxslərə ünvanlı sosial yardımın göstərilməsi və onları layiqli iş yerləri ilə təmin etmək üçün yeni iş yerlərinin sayının artırılması. Eyni zamanda tədricən minimum əməkhaqqı məbləğinin artırılması da yoxsul əhalinin sayının bir qədər də azaldılmasına xidmət edəcəkdir. Əhalinin mənzil təminatının həll edilməsi zamanı şəhər və rayon mərkəzlərində yeni ev və mənzillərin tikilişi və təmiri həmçinin işsiz əhalinin işlə təmin olunmasına gətirib çıxaracaqdır. Bu isə öz növbəsində həm yoxsulluq səviyyəsinin azaldılmasına, həm də bölgələrdəki gəlir bərabərsizliyinin aradan qaldırılmasına kömək ola bilər. Yeni iş yerlərinin yaranması gəlir imkanlarının artmasına gətirib çıxaracaq, bu isə urbanizasiyanı sürətləndirəcək, məşğulluq sahələrinin artımına və əhalinin gəlirləri arasındakı bərabərsizliyi aradan qaldırılmasına kömək edəcəkdir. İqtisadi hədəfləri nəzərə alaraq planlı şəkildə həyata keçiriləcək urbanizasiya əhalinin orta təbəqəsinin rifah halının yaxşılaşmasına, əmək məhsuldarılığının və alıcılıq qabiliyyətinin yüksəlməsinə səbəb olacaq. Təhsil və səhiyyənin keyfiyyətinin artırılması insan

kapitalının inkişafı ilə bərabər iqtisadi artıma da gətirib çıxaracaqdır. Eyni zamanda, kommunal xidmətlər sahəsində görüləcək işlər də yerli infrastrukturun inkişafına və insanların həyat şəraitinin xeyli yaxşılaşmasına səbəb olacaqdır.

Təhsil sistemində yeni və innovasion tədris metodu və vasitələrinin tətbiqi onun inkişafına gətirib çıxaracaqdır. Təhsil sisteminin inkişafı və təhsil keyfiyyətinin artırılması isə iqtisadiyyatın innovativ sahələrinin inkişafını təmin edəcəkdir. Məhz bu cür təhsil sistemi Azərbaycanın da inkişaf etmiş Qərb ölkələrinin gəlir səviyyəsinə çatmasına kömək edəcəkdir.

2025-ci ildən sonrakı prioritet istiqamətlərdən biri də yüksək ixtisaslı kadrların hazırlanmasıdır. Xüsusən, qadınlar və gənclərin iş təminatı problemlərinin həll edilməsi nəzərdə tutulmuşdur. Ölkədə məşğulluğun təmin edilməsi üçün əmək bazarında çevik siyasətin reallaşdırılması vacibdir. İnsan kapitalının yalnız yerli bazara uyğun deyil, həmçinin beynəlxalq əmək bazarının da tələblərinə uyğun hazırlanması nəzərdə tutulub ki, bu da miqrasiyanın tənzimlənməsinə gətirib çıxaracaqdır, yəni ölkədəki iqtisadi cəhətdən fəal əhalinin çox hissəsi öz gəlirlərindən razı qalıb daha artıq gəlir əldə etmək məqsədi ilə ölkəni tərk etməsin. Müasir texnikanın və rəqəmsal texnologiyaların inkişafı bu sahədə daha bilikli sayılan əksəriyyətinin də gənclər olan şəxslərin işlə təmin olunmasına kömək edəcəkdir.

2025-ci ildə münbit biznes mühiti, makroiqtisadi sabitlik, inkişaf etmiş infrastruktur, xarici investisiyaların cəlb edilməsi, beynəlxalq bazarlara çıxış üçün daha geniş imkanlar ölkə iqtisadiyyatının xarici təsirlərə və şoklara qarşı dayanıqlığını artıracaq, ölkə büdcəsini neft gəlirlərindən azad edəcək və əmək məhsuldarlığını inkişaf etmiş ölkələrin göstəricilərinə yaxınlaşmasını təmin edəcəkdir. Sadalananların məntiqi nəticəsi isə adambaşına düşən real gəlirlərin beş faiz yüksəlməsinə və beynəlxalq təsnifata görə ölkənin "yüksəkgəlirli ölkələr" sırasında yer almasına gətirib çıxaracaqdır.

Ölkə iqtisadiyyatında yaradılmış dəyərin ¾ hissəsindən çoxunun qeyri-neft sahəsinin payına düşməsi gözlənilir. Strateji Yol Xəritəsi 2025-ci ilədək

ümumdaxili məhsulda üç faizdən artıq orta illik artım və yarım milyonadək yeni iş yerinin yaradılmasını nəzərdə tutur. Yeni iş yerlərinin yaradılması üç amilin təsiri altında baş verəcəkdir: 1) Strateji Yol Xəritəsi layihəsi çərçivəsində görülən işlər; 2) əlavə tədbirlər; 3) ümumi iqtisadi vəziyyətin yaxşılaşması nəticəsində iqtisadi artımın sürətlənməsi (Azərbaycan Respublikasının milli iqtisadiyyat üzrə Strateji Yol Xəritəsi, 2016).

Görülən tədbirlər həmçinin qeyri-rəsmi məşğulluq səviyyəsinin aşağı düşməsinə və büdcəyə vergi daxilolmalarının artmasına da gətirib çıxaracaqdır.

Neft gəlirlərinin düzgün yönləndirilməsi yoxsulluğun aradan qaldırılmasına, biznes mühitin yaxşılaşmasına, büdcə artımına, ölkənin xarici borcunun xeyli azalmasına, iqtisadiyyatda özəl sektorun payının çoxalmasına gətirib çıxaracaqdır.

Milli iqtisadiyyatın inkişafı üçün dörd prioritet hədəf nəzərdə tutulmuşdur.

İqtisadi inkişafı təmin etmək üçün dövlət monetar və fiskal siyasətlərini uzlaşdırmağa çalışır. Bu sahədə nəzərdə tutulmuş tədbirlər "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri"-nin ilk hədəfində təsbit edilmişdir. Burada təklif olunan bəndlər neft gəlirlərinin səmərəli istifadəsini təmin edəcək "qızıl qayda" prinsipinin tətbiqi və dövlət borcunun idarə edilməsi üçün fiskal çərçivənin müəyyən edilməsidir.

İqtisadi inkişafı təmin edəcək ikinci hədəf isə dövlət müəssisələri və özəlləşdirmələr sahəsində islahatların aparılmasıdır. Burada islahatların keçirilməsi ilə dövlət sektorunun səmərəliyinin və gəlirliyinin artırılması ilə bağlı müddəalar yer almışdır.

Üçüncü hədəf insan kapitalının inkişafıdır.

Dördüncü məqsəd isə biznes mühitinin canlandırılmasıdır. İslahatlar vasitəsi ilə iqtisadiyyatın inkişafı biznes mühitində resursların səmərəli istifadəsini təmin edəcəkdir.

2012-ci ilin 29 dekabr tarixində "Azərbaycan 2020: gələcəyə baxış İnkişaf Konsepsiyası"-nın tərtib edilməsi barədə Prezident sərəncam vermişdir. Burada əsas prioritet ölkə qarşısında yüksək hədəfləri müəyyənləşdirib onların icrasını

təmin etməkdir. Konsepsiyanın əsas hədəfi mövcud iqtisadi vəziyyət və ehtiyyatlar nəzərə alınaraq, ölkədə hüquq və azadlıqları təmin etmək, sosial rifahı yüksək səviyyəyə çatdırmaq və davamlı iqtisadi inkişafa nail olmaqdır. Konsepsiyanın tətbiqi nəticəsində Azərbaycan 2020-ci ildə rəqabətədavamlı, siyasi və sosial-iqtisadi cəhətdən inkişaf etmiş ölkə olmalıdır. Ən ucqar kəndlərdə belə əhalin gündəlik tələbatlarını ödəyən məhsul və xidmətlər əlçatan olacaqdır. Ölkədə adambaşına düşən gəlirlər və inkişaf etmiş ixtisaslı kadrlar artacaq, hər bir vətəndaşın fərdi inkişafı üçün geniş imkanlar yaranacaq, nəticədə əhalinin yüksək sosial rifahı və ölkədəki işsizlik səviyyəsinin minimum həddə gəlib çıxması təmin olunacaqdır.

Yuxarıda qeyd edilən bütün hədəflərin reallaşdırılması resursların səmərəli istifadəsi və iqtisadiyyatın ixracyönümlü inkişafının təmin edilməsindən keçir. İstənilən iqtisadi artımın əsas məqsədi ölkədəki sosial rifahın yüksək səviyyəyə çatdırılmasıdır. Bunun üçün başlıca hədəf insan kapitalının və sosial sahənin inkişafıdır. Konsepsiyaya əsasən yoxsulluq səviyyəsinin azaldılması əsas hədəflərdən biridir. Azərbaycanda yoxsulluq səviyyəsinin azaldılması məqsədi ilə mühim işlər görülmüşdür. Xarici təcrübə göstərir ki, əhalinin orta təbəqəsinin inkişaf etdiyi ölkələr əsasən inkişaf etmiş ölkələr hesab edilir. Konsepsiyanın da əsas məqsədlərindən biri də məhz budur.

Bu dövrdə qeyri-neft sahələrinin inkişafına təkan verən idarəetmə formalarına daha çox önəm veriləcəkdir. Burada qeyri-neft sahələrindən birinə nümunə kimi kənd təsərrüfatının inkişafı xüsusi yer tutmaqdadır. Kənd təsərrüfatının inkişafı üçün aqrar texnologiyaların, texnoloji avadanlıqların yaxşılaşdırılmasına və kənd təsərrüfatı məhsullarının istehsalına önəm veriləcəkdir.

Uzunmüddətli iqtisadi inkişafa nail olmaq məqsədi ilə elmtutumlu sahələrin və innovativ texnologiyaların inkişafı mütləqdir. Məqsədə çatmaq üçün göstərilən dövrdə maddi-texniki bazanın yenilənməsi nəzərdə tutulmuşdur. Elmtutumlu və texnoloji sahəyə sərmayenin cəlb edilməsi bu sahədə çalışan insanların xaricə miqrasiyasının da qarşısını alacaqdır.

İşsizlik probleminin həll edilməsinin bir yolu da regionların ticari mərkəzlərə çevrilməsi və onların coğrafi məkanından məqsədəuyğun istifadəni təmin etməkdir.

Məşğulluğun təmin edilməsi məqsədi ilə qeyri-məşğul əhalinin bazanın yaradılması və informasiya sisteminin tətbiqi vacibdir. Bu sistem bazarda yaşanan məşğulluq hallarının izlənilməsi üçün zəruri tədbirlərin görülməsinə şərait yaradacaqdır.

Fiziki məhdudiyyətli vətəndaşların sosial həyatdan izolyasiyasının qarşısını almaq, onları işlə təmin etmək və rifah hallarını yüksəltmək, həyat şəraitlərini yaxşılaşdırmaq və onları işçi qüvvəsinə daxil edə bilmək üçün müvafiq tədbirlər görüləcəkdir.

## 3.2. Regional işsizlik və gənclər arasında işsizliyin aradan qaldırılması yolları

İqtisadi cəhətdən həm inkişaf etmiş, həm də inkişafda olan ölkələrdə əhalinin məşğulluğunun təmin olunması bir neçə əsas amildən asılıdır. Bu amillərə misal olaraq, ölkə iqtisadiyyatındakı struktur dəyişiklikləri, sosial-iqtisadi siyasətin tipini, işçi qüvvəsinin inkişaf dərəcəsini göstərmək olar.

Ölkədə işçi qüvvəsinə olan tələb məşğulluq səviyyəsinin göstəricisidir. Bu tələbatın səviyyəsi həm ölkədə mövcud bazar münasibətlərinin, həm də ölkənin iqitsadi inkişaf səviyyəsinin ən şəffaf göstəricisidir. Ölkədə idarəetmənin istənilən sahəsində həyata keçirilən struktur dəyişikliklər və iqtisadi islahatlar iqtisadi fəal əhalinin işlə təmin olunmasına mühim təsirini göstərməkdədir. İnsanların maddi vəziyyətinin yaxşıladırılması, əhalinin gəlirlərinin artması iqtisadi inkişafın əsas şərtlərindən hesab olunur. Yuxarıda sadalananlara isə yalnız səmərəli məşğulluğu təmin edərək nail olmaq mümkündür. Səmərəli məşğulluq işə olan tələb ilə təklif arasındakı tarazlığı göstərir və sosial-iqtisadi inkişaf üçün şərait yaradır. Sosial-iqtisadi problemlərin əsas səbəblərindən biri məşğulluğun aşağı səviyyədə olmasıdır. Məşğulluq səviyyəsinin yüksək həddə qorunub saxlanılmasında dövlət

tənzimlənməsinin tətbiqi vacibdir. Burada dövlətin mahiyyəti qanunvericilik vasitəsi ilə iqtisadi vahidlər arasındakı münasibətləri tənzimləmək, əhalinin təhsil və peşə hazırlığını təşkil etmək, sahibkarlıqla məşğul olanlara və sahibkarlıqla məşğul olmaq istəyənlərə güzəştlərin və digər imtiazların tətbiq edilməsindən ibarətdir. Həmçinin qeyd etmək lazımdır ki, işsizlik səviyyəsinin aşağı salınmasına və məşğulluğun yüksək həddə saxlanılmasına yönəlik tədbirlər sosial sabitliyin təmin edilməsində də vacib rol oynayır.

Məşğulluq səviyyəsi yalnız ölkədəki təsərrüfat formalarının müxtəlifliyindən və onların fəaliyyətindən asılı deyil. Eyni zamanda kadrların yeni ixtisaslara yiyələnməsi, onların öz ixtisaslarına və bacarıqlarına uyğun iş yerləri ilə təmin olunması da mühim məsələlərdəndir. Bazar münasibətləri şəraitində bu sistem insanların sosial müdafiəsinə, işçilərin ixtisas və peşə hazırlıqlarının artmasına zəmin yaradır. Bütün bunlar müasir dövrün obyektiv tələbi kimi özünü biruzə verir.

Bazar iqtisadiyyatı şəraitində işsizliyin normal səviyyəsi xarakterik cəhətlərdən biridir. Bir neçə faktor işsizliyə səbəb ola bilər. Bu faktorlardan biri iqtisadi böhrandır. İqtisadi böhranların baş vermə səbəbləri müxtəlif ola bilər. İqtisadi böhranın baş vermə səbəbindən asılı olmayaraq, yekunda, işsizlik səviyyəsinin artmasına gətirib çıxarır. İqtisadi böhranlar zamanı iqtisadi subyektlər öz fəaliyyətini tam və ya qismən dayandırmağa məcbur olur və ya tam gücləri ilə işləməməmələri səbəbindən keyfiyyətsiz və ya aşağı keyfiyyətli məhsul istehsal etməyə başlayırlar. Bunun nəticəsində əhalinin gəlirləri xeyli səviyyədə aşağı düşür və onların yaşayış təminatı pisləşir. Nəticədə əhalinin çox hissəsi dövlət tərəfindən verilən sosial müavinətlərdən asılı hala düşür.

İqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən iqtisadi fəal əhalinin işlə təmin edilməsində ortaya çıxan çətinliklər, işçilərin iş yerlərində ixtisarına və onların daimi iş yerlərinin itirilməsinə gətirib çıxarır. Bu isə öz növbəsində ölkədəki işsizlik səviyyəsinin artması ilə nəticələnir. Bu cür mənfi nəticələrin aradan qaldırılması üçün dövlət öz iqtisadi siyasətinin tərkib hissəsi kimi

məşğulluq siyasətindən istifadə edir. Məşğulluq siyasətinin əsas hədəfi mövcud əmək ehtiyyatlarının səmərəli istifadəsinə nail olmaqdır. Məşğulluq siyasəti iqtisadiyyatın dövlət tənzimlənməsi mexanizmlərindən biridir. İqtisadiyyatın dövlət tənzimlənmə mexanizminə əmək bazarının özünütənzimləməsinə təzyiq vasitəsi kimi baxılmamalıdır. Əksinə, iqtisadiyyatın dövlət tənzimlənməsi əmək bazarının tənazülə uğramasının qarşısını alır və iqtisadi inkişafı təmin edir.

İqtisadi cəhətdən fəal əhalinin qanunvericiliyə zidd olmayan və onlara gəlir (mənfəət) gətirə biləcək istənilən fəaliyyəti məşğulluq adlanır. Əhalinin məşğulluğunun təmin edilməsində nəzərə alınmalı vacib məsələ cəmiyyətdəki sosial təbəqələr arasında mövcud sosial ziddiyətin qarşısını almaq, eləcə də əhalinin gəlirlərinin ədalətli şəkildə bölgüsünə nail olmaqdır. İnkişaf emiş ölkələrdə məşğulluq siyasəti geniş sosial-iqtisadi proqramlar vasitəsi ilə həyata keçirilir. Bunlara həm dövlət büdcəsi, həm də özəl fondların yatırımları hesabına həyata keçirilən məqsədli maliyyələşmə proqramları aiddir. Bu proqramlar iqtisadiyyatın müxtəlif sektorlarının dirçəlməsinə, yeni iş yerlərinin açılmasına, iqtisadiyyata investisiya qoyuluşuna yönəlir.

Əhalinin yeni iş yerləri ilə təmin olunması, eləcə də, əhalinin məşğulluq səviyyəsinin artması ölkə iqtisadiyyatına edilən yatırımlar nəticəsində milli bazarda əmtəə çeşidi müxtəlifliyin artmasının məntiqi nəticəsidir. Bu nöqteyi nəzərdən, məqsədli yatırımların artırılması işsizlik səviyyəsinin azaldılması və məşğulluğun təmin edilməsi məqsədi ilə həyata keçirilən məşğulluq siyasətinin əsas istiqamətlərindən biridir.

Son illərdə işsizliyin azaldılması məqsədi ilə ölkədə həyata keçirilən məşğulluq siyasəti öz bəhrəsini verməkdədir. Bölgələrdə işsizlik səviyyəsinin azaldılmasında ölkədə icra edilən dövlət proqramları öz töhvəsini verməkdədir. Eyni zamanda, 2004-cü ildən etibarən ardıcıl olaraq qəbul edilən dövlət proqramları regionların sosial-iqtisadi inkişiafına müsbət təsir göstərməkdədir. Bunun nəticəsində regionlarda yeni iş yerləri açılır, əhalinin maddi rifahı yüksəlir.

Regionların sosial-iqtisadi inkişafına əvvəlki illərdə lazımi diqqət və qayğı göstərilməməsi nəticəsində, onların inkişafı bir-birindən kəskin surətdə fərqlənməkdədir. Bu fərqlilik ölkənin sosial-iqtisadi inkişafına mənfi təsirini göstərir. Belə nəticəyə gəlmək olar ki, həyata keçirilən sosial-iqtisadi islahatlar bütün regionlar üçün eyni səviyyədə aparılmalıdır.

Bu istiqamətdə Prezident İlham Əliyev tərəfindən müxtəlif qanunlar qəbul edilmiş və sərəncamlar imzalanmışdır. Onlara misal kimi, “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramlarını”, “Azərbaycan Respublikasının Məşğulluq Strategiyasını”. 2006-2015-ci illəri əhatə edən Strategiyanın icrası ilə əlaqədar olaraq ölkə Prezidentinin sərəncamı ilə “Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı” (2007-2010-cu illər) təsdiq edilmişdir.

Bunlarla yanaşı iqtisadi rayonlar və onların tərkibindəki şəhər və rayonların iqtisadi cəhətdən inkişafı üçün daha on yeddi sərəncam imzalanmışdır.

Bölgələrin iqtisadi inkişafında qəbul edilən qanun və verilən fərman və sərəncamlar böyük rol oynamışdır.

Proqramlar regionların iqtisadi vəziyyətini yaxşılaşdırmaq, əhalinin məşğulluğunu təmin etməyə, yoxsulluq və işsizliyi aradan qaldırmağa və mövcud işçi qüvvəsindən səmərəli istifadə etməyə yönəlmişdir. Əmək ehtiyyatlarından səmərəli istifadəni təmin etmək əsas makroiqtisadi məsələlərdən biridir. Çünki məşğulluq bir tərəfdən də makroiqtisadi amillərdən asılı bir göstəricidir (Əzizova G., 2016). İşləmək arzusunda olan şəxslərin məşğulluq orqanlarında qeydiyyata alınması bir tərəfdən sosial təminatları ödəsə də, digər tərəfdən məşğulluğun aşağı düşməsinə gətirib çıxarır. Öncə də qeyd edildiyi kimi, işsizlik səviyyəsinin artması istər ölkə, istərsə də fərdi miqyasda iqtisadi zərərlərə səbəb olur.

Əmək bazarı digər bazarlardan fərqli təşkil olunur. Digər bazarlar çoxşaxəli istiqamətləri təklif etməklə yanaşı, balanslı tarazlığı gözləyir. Əmək bazarında isə bu cür tarazlıq müvəqqəti haldır. Belə ki, işçi qüvvəsinin təklifinin çoxalması tarazlığın pozulması ilə nəticələnir. Belə olan halda, təklif tələbi üstünlədiyində

işçilərin işlərində qalması üçün motivi olmur. Bunun səbəbi işçilərin rahat şəkildə başqa bir işçi ilə əvəz edilə bilməsidir. Əksinə, tələb təklifi üstələdikdə, işçilər daha çox dividend əldə edirlər. Onlar daha yüksək əmək haqqı tələb edə, iş şəraitinin yaxşılaşdırılmasına təsir göstərə bilirlər.

Əmək bazarının dövlət tərəfindən tənzimlənməsi prosesini üç əsas istiqamətə bölmək olar: dövlətin makroiqtisadi siyasəti, məşğulluq siyasəti və işsizlikdən müdafiə siyasəti (Əzizova G., 2016).

Dövlətin makroiqtisadi siyasətinə iqtisadiyyatın inkişafını və iqtisadi tarazlığın qorunması aiddir. Bu məqsədlərə çatmaq üçün əmək bazarında müsbət effekt yarada biləcək tədbirlərin həyata keçirilməsi vacibdir. Bu tədbirlərə ünvanlı sərmaye qoyuluşunu, antiböhran və digər siyasətlərin həyata keçirilməsini nümunə göstərə bilərik. Ölkə iqtisadiyyatının müxtəlif sahələrinə sərmaye qoyuluşlarını stimullaşdırmaq məqsədi ilə dövlət müxtəlif təsir vasitələrindən də istifadə edə bilər. Antiböhran siyasəti krizislərin öncədən təxmin edilməsini, qarşısının alınmasını, böhranların təsirinin azaldılmasını, eləcə də böhranlardan xilas olmaq üçün layihə və proqramların işlənib hazırlanmasını hədəfləyir. Digər istiqamət məşğulluğun tənzimlənməsi fəaliyyətini əhatə edir. Bu fəaliyyət əmək qabiliyyətinə malik insanların işlə təmin edilməsini, əmək məhsuldarlığının artırılmasını, işçi qüvvəsinin tələbi ilə təklifinin uzlaşdırılmasını təmin etməyi əhatə edir. Məşğulluq həm iqtisadi, həm də sosial kateqoriya olduğundan, məşğulluq fəaliyyətinin tənzimlənməsi hər iki sahənin inkişafına təkan verə bilər. Bu məqsədlərə çatmaq üçün dövlət iqtisadi fəal və əmək qabiliyyətli şəxsləri maksimum dərəcədə işlə təmin etməyə çalışmalıdır. Məşğulluq səviyyəsini artırmaq məqsədi ilə əhalinin ixtisasartırma, texniki-peşə hazırlığı kurslarına cəlb edilməsi vacibdir. Əmək bazarında tələb ilə təklifin uzlaşdırılması sahəsində dövlət bir neçə istiqamətdə təsir edə bilər:

- Sosial-ictimai layihələrin təşkili;
- Sosial cəhətdən həssas qrupların işlə təmin olunması üçün yeni iş yerlərinin açılması;

- Sahibkarlıq fəaliyyətinin və fərdi biznesin inkişafını təmin etmək və stimullaşdırmaq (Sərdarov T., 2009).

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramlar (2004-2008-cı, 2009-2013-cü və 2014-2018-ci illər)"-nın uğurlu tətbiqi nəticəsində ölkənin makroiqtisadi göstəriciləri yüksəlmiş, əhalinin maddi rifah halı və ölkəni iqtisadi firavanlığı təmin olunmuşdur.

Azərbaycanda həl edilməsi vacib olan məsələlərdən biri də regionların sosial-iqtisdi cəhətdən inkişafının təmin edilməsi, regionlar arasında mövcud olan və kəskin şəkildə nəzərə çarpan inkişaf fərqlərinin aradan qaldırılmasıdır.

Regionların sosial-iqtisadi inkişafı istənilən ölkənin sosial-iqtisadi inkişafının mühim göstəricisidir. Bu səbəbdən, regionların sosial-iqtisadi inkişafı dövlət qarşısında duran və həll edilməsi vacib olan əsas məsələlərdən biridir.

Ölkə müstəqilliyi əldə edildikdən sonra bazar iqtisadiyyatı modeli inkişaf modeli kimi qəbul edildi və bu ənənəvi təsərrüfat əlaqələrinin itməsinə, dövlət tənzimlənməsinin yox səviyyəyə enməsinə, sərmaye qoyuluşunun əsasən qeyri-neft sektorundan yan keçməsinə, ən vacibi isə əsas maliyyə qaynaqlarının Bakı və Bakıətrafı ərazilərdə cəmlənməsi nəticəsində bu ərazilərin inkişaf etməsinə, digər regionların isə inkişafdan geri qalmasına gətirib çıxardı.

Rəsmi məlumatlara əsasən, ölkədə istehsal edilən ümumdaxili məhsulun və milli gəlirin səksən faizə yaxını, dövlət büdcəsinə ödənişlərin səksən beş faizə qədəri, kiçik və orta sahibkarlıq subyektlərinin isə yetmiş faizdən çoxu Bakı və Sumqayıt şəhərlərinin payına düşmüşdür.

Sosial-iqtisadi cəhətdən Bakı və Sumqayıt şəhərlərinin inkişafı, sənaye və ictimai iaşə obyektlərinin, eləcə də digər infrastrukturun bu şəhərlərdə yerləşməsi rayon əhalisinin bu şərəhərlərə köçməsinə gətirib çıxarır, bu isə öz növbəsində urbanizasiya prosesini sürətləndirir. Əhalinin böyük şəhərlərə miqrasiyasının əsas səbəbi işsizliyin yüksək həddə olmasıdır. Əhalinin miqrasiyası yalnız ölkə daxilində deyil, həmçinin ölkə xaricinə də müşaiyyət edilməkdədir. Bu hal rayonlarda əmək resurslarının azalmasına və regionlardakı əmək potensialının

səmərəli istifadəsinə çətinlik törədir. Yuxarıda sadalanan faktorlar regionlararası inkişaf həddində kəskin fərqlər yaradır və ölkə iqtisadiyyatına öz mənfi təsirini göstərir. Regionların aqrar sənayesinin inkişafdan qalmasının əsas səbəbləri kimi, bu sahəyə tələb olunan lazımı infrastrukturun, texnikanın, müəssisə və avadanlığın olmaması və ya çatışmamasını, bu yönümdə sərmaye qoyuluşlarının zəif və az olmasını göstərə bilərik. Məhz bu səbəbdən, yuxarıda qeyd edilən dövlət proqramlarının qəbulu bu məsələləri daha da qabardır və regionların, eləcə də ölkənin ümumi sosial-iqtisadi inkişafı üçün regionlarda olan iqtisadi potensialdan maksimum dərəcədə səmərəli istifadəni nəzərdə tutur. İqtisadi rayonların istehsal etdiyi ümumi daxili məhsul və rayonlara qoyulan sərmaye kəskin şəkildə fərqlənir. Burada, Abşeron iqtisadi rayonu xüsusi ilə fərqlənməkdədir. Bu rayonun ümumi daxili məhsulda və sərmaye qoyuluşlarındakı payı digər iqtisadi rayonlara nisbətən daha çoxdur. Bunun nəticəsində, digər iqtisadi rayonlar inkişafdan geri qalır, öz təbii və əmək resurslarından səmərəli şəkildə istifadə edə bilmir. Dövlət proqramının qəbulu isə məhz bu problemlərin həllinə yönəlmişdir. Proqramda qeyd edilir ki:

> “Ölkənin bütün regionlarını sosial-iqtisadi baxımdan yüksək səviyyədə inkişaf etdirmək, əhalinin güzəranını daha da yaxşılaşdırmaq üçün regionlarda mövcud potensialdan istifadənin səmərəsini artırmaq, yeni iş yerlərinin açılmasını, sənayenin ayrı-ayrı sahələrinin, aqrar sektorun inkişafını, kənd təsərrüfatı məhsullarının istehsalının genişləndirilməsini təmin etmək və başqa tədbirləri həyata keçirmək gərəkdir” (“Azərbaycan Respublikası regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı”, 2004-2008, 2009-2013, 2014-2018).

Ölkədə güclü infrastrukturun qurulması, sərmaye potensialının müvafiq iqtisadi sahələrə yönəldilməsi, yeni müəssisə və istehsal obyektlərinin açılması regionlar arasında mövcud inkişaf fərqinin aradan qaldırılması və bu inkişafın nisbətən bərabər səviyyəyə gətirilməsində böyük rol oynaya bilər.

Regionların inkişafı ölkənin iqtisadi potensialından maksimum istifadəsinə güclü təsir göstərməkdədir. Buradan belə nəticə çıxarmaq olar ki, sosial-iqtisadi

inkişaf müəyyən bir ərazi ilə məhdudlaşır və inkişaf etmiş iqtisadi rayonların payına düşür. Bu isə mövcud iqtisadi inkişaf arasında fərqi daha da yüksəldir. Bu fərq əhalinin yaşayış səviyyəsində, işsizlik və məşğulluğun miqyasında daha çox nəzərə çarpır. Bu fərqləri aradan qaldırmaq üçün regionların maddi resurslarını və maliyyə imkanlarını artırmaq üçün sistemli şəkildə kompleks tədbirlərin görülməsi zəruridir.

İnsan əməyinin nəticəsindən faydalanmaq və insanın müəyyən bir korporativ münasibətdə olmasını məşğulluq adlandırmaq olar. Bu səbəbdən məşğulluğu sosial-iqtisadi bir kateqoriya kimi qiymətləndirmək mümkündür. Həmçinin, məşğulluğa işsizliyin əksi, onun inkarı kimi də baxmaq mümkündür. Buna görə, həm dövlət, həm özəl sektorunun qarşısında duran əsas vəzifələrdən biri işsizlik səviyyəsinin azaldılması, məşğulluğun artırılmasıdır (Nuriyev Ə., 2011).

İqtisadiyyatın istənilən sahəsində daha peşəkar və daha hazırlıqlı kadrların rolu daha böyükdür. Bu cür insanlar sosial cəhətdən daha təminatlı və ədalət prinsiplərinə daha tələbkar olur və istər cəmiyyətdə, istərsə də istehsalatda demokratiya və söz azadlığını tələb edirlər. Bu insanlar müxtəlif fəaliyyət sahələrinə maraq yaranır və bunun nəticəsində onlar özlərini inkişaf etdirir və öz peşə-ixtisas hazırlıqlarını daha da artırır.

Bu vəziyyətdə əhalinin maddi rifah vəziyyəti və sosial durumu yaxşılaşır, həyat səviyyəsi yüksəlir. Səmərəli məşğulluq siyasəti insanları öz üzərlərində işləməyə, ixtisas-peşə hazırlığı səviyyələrini artırmağa, rəqabət mühitində əmək qabiliyyətlərini daha keyfiyyətli nümayiş etdirməyə imkan yaradır.

İnkişaf etmiş ölkələrdə insanların aldığı məvacib onların ixtisas dərəcəsi və peşə hazırlığı səviyyəsinə görə təyin edilir. Yəni, insan öz ixtisasını nə qədər yaxşı bilsə, onun əmək məhsuldarlığı və əmək haqqı da o qədər yüksək olar (Mirzəyev T., 2006).

Məşğul əhalinin sayı və çəkisinin dəyişməsi 7saylı cədvəldə əks edilmişdir.

Cədvəl 2010-2016-cı illər üzrə göstəriciləri əhatə edir. Cədvəl əsasında demək olar ki, altı il ərzində məşğul əhali on faiz artmışdır. İqtisadi rayonlar arasında

müqayisə aparılsa, ən yüksək artım göstəricisi Dağlıq Şirvan iqtisadi rayonunda olduğu bəlli olar. Dağlıq Şirvan iqtisadi rayonunda artım 15,2 faiz olmuşdur. Eyni zamanda, bəzi digər iqtisadi rayonlarda da məşğul əhali sayı ölkə üzrə olan orta artım faizindən çox olmuşdur.

İqtisadi rayonlar üzrə artım göstəriciləri aşağıdakı kimi olmuşdur:

Şəki-Zaqatala – 11,2%, Kəlbəcər – Laçın – 12,3%, Yuxarı Qarabağ – 10,8%, Lənkəran – 11,3%, Aran – 10,6%.

**Cədvəl 7: İqtisadi rayonlar üzrə məşğulların sayı (min nəfərlə)**

| Şəhər və iqtisadi rayonlar | 2010 | 2013 | 2016 | Artım (faizlə) |
|---|---|---|---|---|
| Respublika üzrə, (toplamda) | 4329,1 | 4521,2 | 4759,9 | 110,0 |
| Bakı şəhəri | 1055,0 | 1090,2 | 1140,5 | 108,1 |
| Naxçıvan | 211,7 | 224,6 | 233,5 | 110,3 |
| Abşeron | 256,5 | 264,6 | 277,4 | 108,2 |
| Dağlıq Şirvan | 129,0 | 139,0 | 148,6 | 115,2 |
| Gəncə-Qazax | 576,5 | 600,1 | 630,9 | 109,4 |
| Kəlbəcər-Laçın | 107,2 | 113,2 | 120,4 | 112,3 |
| Şəki-Zaqatala | 276,0 | 291,2 | 306,8 | 111,2 |
| Yuxarı Qarabağ | 260,6 | 272,3 | 288,7 | 110,8 |
| Lənkəran | 381,0 | 399,1 | 423,9 | 111, 3 |
| Aran | 847,1 | 887,0 | 936,7 | 110,6 |
| Quba-Xaçmaz | 228,5 | 239,9 | 252,5 | 110,5 |

**Mənbə:**https://www.stat.gov.az/source/labour/ (DSK-nın rəsmi saytında 2016-cı il məlumatları son məlumat kimi qeyd edilmişdir, 22.05.2019)

Bəzi iqtisadi rayonlardakı artım faizi ümumi ölkə üzrə olan orta göstəriciyə yaxın olmuşdur. Bunlara Naxçıvan və Quba-Xaçmaz iqtisadi rayonları aiddir. Burada artım faizi isə müvafiq olaraq – 10,3 və 10,5 faiz olmuşdur. Digər iqtisadi rayonlarda isə artım faizi ölkə üzrə orta göstəricidən nisbətən aşağı olmuşdur. Artım faizi ölkə üzrə orta göstəricidən aşağı olan iqtisadi rayonlara Bakı, Abşeron və Gəncə-Qazax iqtisadi rayonlarını aid etmək mümkündür. Artım göstəriciləri 8,1

faiz, 8,2 faiz və 9,4 faiz kimi yuxarıda qeyd olunan iqtisadi rayonlar üzrə müvafiq olaraq təyin edilmişdir.

Bu regionlarda artım faizin digər regionlarla müqayisədə az olmasının əsas səbəbi bu regionlarda 2010-cu ildə məşğulluq səviyyəsinin yuxarı həddə olmasıdır. İqtisadi regionlar üzrə məşğul əhalinin paylanma sayı göstərir ki, ən yüksək nəticə Bakıdadır. 2010-cu ildə 24,4 faiz, 2016-cı ildə isə 24 faiz olmuşdur. Bakı şəhərindən başqa Gəncə – Qazax və Aran iqtisadi rayonlarında da məşğul əhalinin sayı çoxdur. Bu rayonlar üzrə göstəricilər 13,3 faiz və 19,7 faiz müvafiq olaraq olmuşdur. Digər iqtisadi rayonlarda nəticə on faizdən aşağı olmuşdur. On faizlik göstərici arasında ən yüksək nəticə Lənkəran iqtisadi rayonunda – 8,9 faiz, ən aşağı göstərici isə Kəlbəcər – Laçın iqtisadi rayonunda qeydə alınmışdır. Kəlbəcər – Laçın iqtisadi rayonunda bu göstərici 2,5 faiz olmuşdur.

Ümumi göstəriciləri nəzərə alsaq, deyə bilərik ki, iqtisadi rayonlarda məşğulların xüsusi çəkisi 2010-2016-ci illərdə bir o qədər də dəyişməmişdir.

- Cədvəl 8-də məşğul əhalinin bir hissəsini muzdla işləyən şəxslər təşkil edir.2016-cı ildə muzdla işləyən şəxslərin sayı 2005-ci illə müqayisədə 16,7 faiz artmışdır. Bəzi iqtisdi rayonlarda bu artım ümumi respublika üzrə qeydə alınmış artımdan daha çoxdur. Bunlara Bakı və Naxçıvan iqtisadi rayonları aiddir. Onların göstəriciləri hər iqtisadi rayona müvafiq olaraq 27,3 faiz və 77,3 faizdir. Kəlbəcər – Laçın iqtisadi rayonunda isə bu göstəricinin iki faiz azaldığı qeydə alınmışdır. Abşeron iqtisadi rayonunda qeydə alınan artım faizi ölkə üzrə olan faizə yaxındır, digər iqtisadi rayonlarda isə bu göstərici ölkə üzrə olan faizdən aşağıdır.

Ən yüksək göstərici Abşeron iqtisadi rayonunda – 15,1 faiz olmuşdur. Digər iqtisadi rayonlarda isə, yəni Dağlıq Şirvanda – 44 faiz, Gəncə – Qazaxda – 2 faiz, Şəki – Zaqatalada – 4,5 faiz, Yuxarı Qarabağda – 3,9 faiz, Lənkəranda – 3,5 faiz, Aranda – 1,2 faiz, Quba – Xaçmazda – 4,3 faiz olmuşdur.

Əgər 2005-ci ildə Bakı iqtisadi rayonunun payına muzdla çalışanların 42,2 faizi düşürdüsə, 2016-cı ildə bu göstərici 46 faizə çatmışdır. 2005-ci ildə muzdla

çalışanların əksər hissəsi Gəncə – Qazax və Aran iqtisadi rayonlarının payına düşürdü. Belə ki, Gəncə – Qazax iqtisadi rayonunda bu göstərici 10,8 faiz, Aran iqtisadi rayonunda isə 16,1 faiz təşkil edirdi. 2016-cı ildə isə bu göstəricilər müvafiq olaraq 9,4 faiz və 14 faiz təşkil etmişdir.

**Cədvəl 8: İqtisadi rayonlar üzrə məşğulların sayı (min nəfərlə)**

| Şəhər və iqtisadi rayonlar | 2005 | 2012 | 2014 | 2016 | Artım(faizlə) (2005-ci ilə müqayisədə) |
|---|---|---|---|---|---|
| Respublika üzrə, (toplamda) | 1297,1 | 1480,7 | 1519,7 | 1514,3 | 116,7 |
| Bakı şəhəri | 547,6 | 661,3 | 693,3 | 697,0 | 127,3 |
| Naxçıvan | 53,8 | 100,9 | 103,5 | 95,4 | 177,3 |
| Abşeron | 72,0 | 75,5 | 82,2 | 82,9 | 115,1 |
| Dağlıq Şirvan | 27,2 | 28,4 | 28,1 | 28,4 | 104,4 |
| Gəncə-Qazax | 139,8 | 143,5 | 142,6 | 142,5 | 102,0 |
| Kəlbəcər-Laçın | 19,9 | 21,1 | 20,9 | 19,5 | 98,0 |
| Şəki-Zaqatala | 69,1 | 71,1 | 71,3 | 72,2 | 104,5 |
| Yuxarı Qarabağ | 41,4 | 43,7 | 43,8 | 43,0 | 103,9 |
| Lənkəran | 67,9 | 69,3 | 70,1 | 70,3 | 103,5 |
| Aran | 209,4 | 215,0 | 212,2 | 212,0 | 101,2 |
| Quba-Xaçmaz | 49,0 | 50,9 | 50,9 | 51,1 | 104,3 |

**Mənbə:** https://www.stat.gov.az/source/labour/ (DSK-nın rəsmi saytında 2016-cı il məlumatları son məlumat kimi qeyd edilmişdir, 22.05.2019)

Buradan belə nəticə çıxarmaq olar ki, 2016-cı ildə bütün ölkə üzrə məşğul əhali ümumi əhali sayının 48,5 faizini təşkil edir. Onlardan muzdla işləyənlər 15,4 faiz təşkil edir. Naxçıvan iqtisadi rayonu üzrə məşğul əhali 52 faiz təşkil edir ki, bu da ölkə üzrə ən yüksək göstəricidir. Onlar arasında muzdla işləyənlərin sayı 21,2 faiz artmışdır. Bakıda əhalinin 50,8 faizi məşğul əhalidir, onlardan 31 faiz əhali isə muzdla çalışanlardır. Digər iqtisadi rayonlara diqqət yetirsək, görərik ki, Abşeronda əhalinin 49,3 faizi məşğul, 14,7 faizi muzdla çalışanlardır, Dağlıq Şirvanda 47,6 faiz məşğul, 9,1 faiz muzdla çalışanlardır, Gəncə – Qazaxda 49,9 faiz məşğul, 11,3 faiz muzdla çalışanlardır, Kəlbəcər – Laçında 47,9 faiz məşğul,

7,8 faiz muzdla çalışanlardır, Şəki – Zaqatalada 50,1 faiz məşğul, 11,8 faiz muzdla çalışanlardır, Yuxarı Qarabağda 43,1 faiz məşğul, 6,4 faiz muzdla çalışanlardır, Lənkəranda 46,2 faiz məşğul, 7,7 faiz muzdla çalışanlardır, Aranda 47,2 faiz məşğul, 10,7 faiz muzdla çalışanlardır, Quba – Xaçmazda 46,9 faiz məşğul, 9,5 faiz muzdla çalışanlardır.

Nəticələrdən görürük ki, ən yüksək məşğulluq göstəriciləri Bakı və Naxçıvandadır. Naxçıvanda ən yüksək məşğulluq faizi, Bakıda isə muzdla çalışanların ən yüksək faizi müşahidə olunmaqdadır.

**Cədvəl 9: 2005-2016-cı illəri əhatə edən iqtisadi rayonlar üzrə işsiz əhalinin dinamikası (nəfərlə)**

| Şəhər və iqtisadi rayonlar | 2005 | 2012 | 2014 | 2016 | Artım(faizlə) (2005-ci ilə müqayisədə) |
|---|---|---|---|---|---|
| Respublika üzrə, (toplamda) | 56343 | 36791 | 28960 | 32972 | 58,5 |
| Bakı şəhəri | 9828 | 12967 | 11448 | 14812 | 150,7 |
| Naxçıvan | 7904 | - | - | - | - |
| Abşeron | 1091 | 1341 | 1732 | 1457 | 133,6 |
| Dağlıq Şirvan | 1957 | 1110 | 760 | 819 | 41,8 |
| Gəncə-Qazax | 3636 | 2503 | 1941 | 2181 | 60,0 |
| Kəlbəcər-Laçın | 4043 | 1489 | 1321 | 1337 | 33,1 |
| Şəki-Zaqatala | 2968 | 1261 | 831 | 913 | 30,8 |
| Yuxarı Qarabağ | 7083 | 3898 | 1694 | 1552 | 22,0 |
| Lənkəran | 2360 | 1114 | 876 | 948 | 40,2 |
| Aran | 13984 | 9967 | 7195 | 7571 | 54,2 |
| Quba-Xaçmaz | 1489 | 1141 | 892 | 1282 | 86,1 |

**Mənbə:** https://www.stat.gov.az/source/labour/ (DSK-nın rəsmi saytında 2016-cı il məlumatları son məlumat kimi qeyd edilmişdir, 22.05.2019)

Yuxarıda qeyd edilən 9-cu cədvəldə öz əksini tapan iqtisadi rayonlar üzrə işsizlik dinamikasına fikir versək, görərik ki, 2005-2016-cı illərdə respublikada işsizlik səviyyəsi 41,5 faiz azalmışdır. Ən çox azalma Yuxarı Qarabağ iqtisadi rayonunda qeydə alınmışdır. Bu iqtisadi rayonda işsizlik səviyyəsi 22 faizdir.

Buradan belə qənaətə gəlmək olar ki, 78 faiz azalma müşahidə edilmişdir. Bundan başqa Kəlbəcər – Laçın iqtisadi rayonunda – 66,9 faiz, Şəki – Zaqatala iqtisadi rayonunda – 69,2 faiz azalma qeydə alınmışdır. Digər iqtisadi rayonlar üzrə azalma faizləri belədir: Dağlıq Şirvanda – 58,2 faiz, Gəncə - Qazaxda – 40 faiz, Lənkəranda – 59,8 faiz, Aranda – 45,8 faiz, Quba – Xaçmazda – 13,9 faiz. Faizlərdən görünür ki, ən az azalma Quba – Xaçmaz iqtisadi rayonunda qeydə alınmışdır.

Qeyd edilən iqtisadi rayonlardan fərqli olaraq, Bakı və Abşeron iqtisadi rayonlarında işsizliyin yüksək həddi qeyd olunmuşdur. Belə ki, Bakı iqtisadi rayonunda – 50,7 faiz, Abşeron iqtisadi rayonunda isə 33,6 faiz artım qeydə alınmışdır. Onu da qeyd etmək lazımdır ki, 2005-ci ildə işsiz əhalinin çox hissəsi Aran iqtisdi rayonunun payına düşmüşdü. Burada işsiz əhali 24,8 faiz, Naxçıvanda 14 faiz, Bakıda 17,4 faiz, yuxarı Qarabağda isə 12,6 faiz olmuşdur. Digər iqtisadi rayonlarda işsizlərin faizi 10 faizdən də aşağı idi. Onlar arasında ən aşağı faiz Abşeron iqtisadi rayonunda qeydə alınmışdır ki, burada işsizlik 2 faizdən 4,4 faizədək yüksəlmişdir. Quba – Xaçmaz və Gəncə - Qazax iqtisadi rayonlarında vəziyyət eyni olsa da, Gəncə – Qazax iqtisadi rayonunda bu faiz çox az səviyyədə artmışdı, yəni 6,5 faizdən 6,6 faizə qalxmışdır. Quba  – Xaçmaz iqtisadi rayonunda isə bu göstərici 2,6 faizdən 3,9 faizədək yüksəlmişdir. Digər iqtisadi rayonlarda işsizlik faizləri azalmaya doğru getmişdir. Dağlıq Şirvan iqtisadi rayonunda 3,5 faizdən 2,5 faizə, Kəlbəcər – Laçında 7,2 faizdən 4,1 faizə, Şəki – Zaqatalada 5,3 faizdən 2,8 faizə, Yuxarı Qarabağda 12,6 faizdən 4,7 faizə, Lənkəranda 4,2 faizdən 2,9 faizə, Aran iqtisadi rayonunda isə 24,8 faizdən 23 faizə qədər azalma qeydə alınmışdır. Burada Naxçıvan iqtisadi rayonu xüsusi ilə qeyd olunmalıdır. Belə ki, 2005-ci ildə Naxçıvanda işsizlik faizi 14 idisə, 2012-ci ildən 2017 ilədək burada işsizlik qeydə alınmamışdır. Bakıda işsizliyin bu qədər yüksək həddə olmasının əsas səbəbi əhalinin iş axtarışı ilə bağlı məşğulluq orqanlarına müraciətlərinin artması, yüksək fəallığı və digər məsələlər ilə əlaqələndirmək mümkündür. Digər iqtisadi rayonlarda isə iş axtarışı əsasən qohumlar, dostlar, tanışlar vasitəsi ilə

həyata keçirilir (Azərbaycan Respublikasının milli iqtisadiyyat üzrə Strateji Yol Xəritəsi, 2016).

İqtisadiyyatın dinamik və proporsional inkişafı əsasında əhalinin məşğulluğundakı dəyişikliklərə müxtəlif amillər, o cümlədən texniki tərəqqinin sürətləndirilməsi, maddi istehsal dairəsində əmək məhsuldarlığının yüksəldilməsi, habelə qeyri-istehsal sahələrinin, xüsusilə, mənzil-lkommunal təsərrüfatı və əhaliyə məişət xidməti dairəsinin, maarif, mədəniyyət, incəsənət, elm və elmə xidmət sahələrinin sürətli inkişafı təsir etmişdir.

Respublikamızda məhsuldar qüvvələrin inkişaf etdirilib yerləşdirilməsindəki dəyişikliklər əhalinin məşğulluğunun sahə quruluşunun təkcə respublika miqyasında deyil, onun ayrı-ayrı ərazilərində də dəyişilməsinə səbəb olmuşdur. Lakin bütün bu dəyişikliklərə baxmayaraq, respublika əhalisinin xeyli bir qismi daim işsiz olmuş və bu işsizlik həmişə  gizli saxlanmışdır. Çünki istehsal vasitələri üzərində ictimai mülkiyyətin məşğul olduğu şəraitdə məşğulluğun siyasəti içtimai istehsalda əməyin hamı üçün məcburi olması, tam məşğulluq və ciddi standart iş recimi əsasında qurulmuşdu.

Əmək bazarında dövlət iş qüvvəsinin yeganə aparıcısı kimi təmsil etdiyindən o, əmək qabiliyyətli bütün əhalinin işlə təmin edilməsi vəzifəsini öz üzərinə götürmüş və məşğulluq siyasətini elə qurmuşdur  ki , əhalinin ictimai istehsala cəlb edilməsi onun səmərəliliyinə zərər gətirdiyi şəraitdə belə əmək qabiliyyətli adamların ictimai təsərrüfatlarda iş yerlərinə olan tələbi təmin edilmiş olsun.

Fəal əmək bazarının yaradılması əhalinin məşğulluğunun təmin edilməsində dövlətin əsas rol oynaması funksiyasının saxlamılmasını nəzərdə tutur və məşqulluq siyasati dövlətin sosial siyasətinin mühüm tərkib amillərindən birini təşkil edir. Bu səbəbdən d hazırda respublikamızda səmərəli məşrulluq siyasəti tədbirlərinin işlənib hazırlanması və həyata keçirilməsinə boyük ehtiyac vardır. Çünki bazar münasibətlərinə keçilməsi ölkəmizdə dəyişməkdə olan iqtisadi, sosial və siyasi şəraitə uyğun gələn səmərəli məşrulluq, fəal əmək bazarı siyasəti və əhalinin mühafizəsi sisteminin formalaşmasını obyektiv zərurətə çevirmişdir.

Əhalinin sosial mühafizəsinin təşkili isə, hər şeydən əvvəl cəmiyyətin başlıça məhsuldar qüvvələrini təşkil edən əmək ehtiyatlarının səmərəli məşğulluqunun təmin edilməsindən çox asılıdır.

Respublikada əmək bazarının formalaşmara başladıqı müasir şəraitdə məşğulluq siyasəti dedikdə, cəmiyyətin əmək potensialının daha tam reallaşması və inkişafına yönəldilmiş kompleks dövlət tədbirləri sistemi başa düşülməli və məşğulluq siyasəti aşağıdakı istiqamətlərdə həyata keçirilməlidir:

- büdcə vəsaitinin və xüsusi kapitalın, əhalinin pul yıqımlarının cəlb edilməsi yolu ilə iqtisadiyyatın quruluşca yenidən qurulması üzrə irimiqyaslı dövlət proqramınıi həyata keçirilməsi və ömək ehtiyatlarının sahələr üzrə yenidən bölüşdürülməsinə nail olunması;
- maddi istehsalda, xüsusilə kənd təsərrüfatında məşğul olanların xüsusi çəkisinin artırılması;
- dövlət mülkiyyətinin optimal normadan yuxarı qalxmasının qarşısını almaq üçün xüsusi sosial institutların — əmək birjası, məşğulluq xidməti və s. köməkliyi ilə iqtisadi və hüquqi vəsaitlərlə əmək bazarının, iş qüvvəsinə tələb və təklifin tənzimlənməsi; burada artıq iş qüvvəsinin azad olunması, əmək bazarında rəqabət mühitinin yaradılması, fəal iş axtaranların yeniden öyrədilməsi və operativ işə düzəlməsi sisteminin yaradılması mühüm əhəmiyyət kəsb edir;
- qaçqınların və məcburi köçkünlərin məşrullurunun təmin olunması;
- işləmək istəyən müxtəlif sosial-demoqrafik qruplardan olan əhali (qadınların, gənclərin və əlillərin) məşğulluğunun təmin edilməsi;
- əhalinin məşğulluğu, qeyri-dövlət müəssisələrində işçilərin hərəkəti, hazırlanması, əməklərindən istifadə olunması və əmək haqqlarının səviyyəsi, iş qüvvəsindən istifadənin səmərəliliyi, iş yerlərinin dinamikası, kadrların peşə və ixtisaslarının dəyişilməsi və s. dair dövlət statistikasının təkmilləşdirilməsi və s.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Artıq iyirmi ildir ki, Azərbaycan xalqı ictimai-siyasi, sosial-iqtisadi həyatının yeni bir mərhələsini – müstəqillik ərəfəsini yaşayır. Bu müddət ərzində ölkə dünya miqyasında sürətlə inkişaf edən ölkələr arasında öncül yerlərdən birini tutur. Sosial, iqtisadi, siyasi, mədəni, belə desək, bütün sahələrdə əldə edilən yüksək göstəricilər və nəticələr isə ölkənin qüdrətini daha da artırmaqdadır. Milli inkişaf modelinin uğurla tətbiqi və hədəflənən nəticələrə nail olunması, sosial-siyasi islahatların ardıcıl qaydada yerinə yetirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, vətəndaş cəmiyyətinin qurulması, həmçinin hüquqi dövlət quruculuğu yolunda edilən cəhdlər, həyata keçirilən tədbirlər Azərbaycanın dinamik inkişafını təmin edən faktorlar hesab olunur.

Ümummilli inkişafı təmin edən bir amil olaraq sosial siyasətin aktual tələbatlara və müasir reallıqlara müvafiq qaydada uğurla həyata keçirilməsi vətəndaşların maddi rifah halının daha da yaxşılaşdırılması, sosial müdafiə və təminat sisteminin möhkəmləndirilməsi, sosialyönümlü iqtisadiyyatın inkişaf etdirilməsi, məşğulluq səviyyəsinin ardıcıl olaraq yüksəldilməsi, əhalinin sosial şəraitinin yaxşılaşdırılması, sosial tələbatlar və ehtiyyacların yüksək formada ödənilməsi kimi fundamental məqsədləri reallaşdırıb. Digər tərəfdən, sosial siyasətin əsas komponenti olan iqtisadi inkişafın təmin edilməsi bütövlükdə sosial-iqtisadi tərəqqinin sürətlənməsini şərtləndirən amil olub. Belə ki, valyuta ehtiyyatlarının və investisiya qoyuluşununun hər zaman artırılması, sahibkarlığın və özəl sektorun inkişafına uyğun şəraitin yaradılması, sənaye istehsalına və qeyri-neft sektoruna xüsusi diqqətin göstərilməsi kimi amillər iqtisadi inkişafa xüsusi təkan verib. Məhz bunun qanunauyğun nəticəsidir ki, yüksək iqtisadi inkişaf digər sahələrin də parralel surətdə inkişafını təmin edib.

Bununla yanaşı, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji kurs daxili ictimai-siyasi sabitliyi və inkişafı də ən yüksək səviyyədə təmin edib. Azərbaycanda qeydə alınan ictimai-siyasi sabitliyin əsaslarını dövlət

tərəfindən həyata keçirilən uğurli islahatlar və tətbiq edilən yeniliklər, inkişaf modelləri, strateji layihələr və dövlət proqramları təşkil edir.

Tədqiqatın əsas mövzusu olan işsizlik problemi və onun həlli yönümündə icra edilən proqram və layihələr arasında “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı”, “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”, “Azərbaycan Respublikasının Milli Məşğulluq Strategiyası (2006-2015-ci illər)”, “Azərbaycanda pensiya islahat konsepsiyasının təsdiq edilməsi barədə Sərəncam”, “Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər və 2011-2015-ci illər)”, “Yoxsulluğun aradan qaldırılması” sosial-inkişaf proqramı (2008-2015), “Əmək Məcəlləsi”, “Məşğulluq haqqında”, “Miqrasiya haqqında” qanunlar, “İşçilərin qeydiyyata alınması qaydalarının təsdiq edilməsi haqqında” Nazirlər Kabinetinin Qərarı, “Məşğulluğa kömək göstərən əlaqələndirmə komitələrinin səlahiyyəti və vəzifələrinin müəyyən edilməsi haqqında” Nazirlər Kabinetinin Qərarları və digər normativ-hüquqi aktlar misal göstərilə bilər.

Həmçinin əhalinin məşğulluğunun artırılması və yoxsulluq səviyyəsinin aşağı salınmasında, yeni iş yerlərinin yaradılmasında iqtisadiyyatın diversifikasiyası və neft gəlirlərinin qeyri-neft sahəsinin inkişafına yönləndirilməsi mühim yer tutmaqdadır.

Tədqiqat nəticəsində işsizliyin dövlət tənzimləməsinin yollarına aşağıdakı tədbirləri nümunə olaraq göstərə bilərik:

- Əmək bazarında tələb ilə təklif arasında tarazlığın qurulması;
- İş axtaran şəxslərin daha tez uyğun iş tapa bilmələrini təmin edə biləcək axtarış-informasiya sisteminin yaradılması;
- Peşə-ixtisas hazırlığında müasir metodlardan istifadə edərək, müasir tələblərə uyğun kadr potensialının hazırlanması;

- Neft gəlirlərinin müəyyən hissəsinin insan kapitalına yönəldilməsinə davam etdirilməsi;
- Yeni iş yerləri yaradan sahibkarlara kömək, biznes kreditlərinin verilməsi şərtlərinin yüngülləşdirilməsi, iqtisadiyyatın müxtəlif sahələrinə qoyulan investiyaların artırılması, vergi siyasəti yolu ilə məşğulluğun tam təmininə nail olmaq;
- Regionların bərabər iqtisadi inkişafını və orada yaşayan əhalinin gəlirlərinin bərabər həddə gətirilməsi;
- Regionlarda kommunal xidmətlərin və sosial infrastrukturun keyfiyyətinin artırılması;
- Regionlara sərmayenin cəlb edilməsi və s.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində:

1. "Azərbaycan Respublikası regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı" (2004-2008, 2009-2013, 2014-2018)
2. "Azərbaycan Respublikası regionlarnın 2014-2018-ci illərdə sosial-iqtisadi inkişaf Dövlət Proqramı" haqqında, səh. 1-8
3. "Azərbaycan Respublikasının Milli Məşğulluq Strategiyası (2006-2015-cı illər)", Bakı – 26.10.2015, səh. 4
4. "Məşğulluq Strategiyasının hayata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər və 2011-2015-ci illər)", Bakı – 2007 və Bakı-2011
5. Azərbaycan Respublikası (AR) Konstitusiyası. Bakı – 1995, səh. 11
6. Azərbaycan Respublikasının milli iqtisadiyyat üzrə Strateji Yol Xəritəsi, səh. 4
7. Azərbaycanın statistik göstəriciləri, Bakı - 2018
8. Ə. Nuriyev. Regional siyasət və idarəetmənin əsasları. Bakı 2011, səh. 86
9. G. Əzizova. Azərbaycanın əmək bazarı: problemlər, perspektivlər, səh. 211
10. İ.E. İsmayılov. Azərbaycanda milli innovasiya sisteminin yaradılması və bununla bağlı problemlər "Əmək və Sosial Problemlər" adlı AR ƏƏSMN-in Əmək və Sosial Problemlər üzrə Elmi Tədqiqat və Tədris Mərkəzinin elmi əsərlər toplusu. III Buraxılış (11). Bakı - 2013, səh. 62
11. İ.E. İsmayılov. Azərbaycanda milli innovasiya sisteminin yaradılması və bununla bağlı problemlər "Əmək və Sosial Problemlər" adlı AR ƏƏSMN-in Əmək və Sosial Problemlər üzrə Elmi Tədqiqat və Tədris Mərkəzinin elmi əsərlər toplusu. II Buraxılış (11). Bakı - 2012, səh. 68
12. Məmmədov A., Yaqubov S., "Sosial və iqtisadi statistika". Bakı – 2013, s. 49
13. R. Həsənov, "Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının bazar modelinin konsepsual əsasları", Bakı, 1998, səh. 56
14. S. Mehbalıyev, R. İsgəndərov, "Əmək bazarı, məşğulluq və işsizliyin elmi-nəzəri əsasları". Bakı – 2001, səh. 9
15. T. Mirzəyev, "İqtisadiyyatın idarə edilməsi", Bakı, "Çaşıoğlu" nəşriyyatı, 2006, səh. 133
16. T.Ə. Quliyev, "Əməyin iqtisadiyyatı" dərsliyi. Bakı – 2013, səh. 24
17. T.Ə. Sərdarov. Bazar münasibətləri şəraitində Azərbaycan Respublikasında əhalinin və məşğulluğun formalaşması, Bakı – 2009, səh. 47

## Rus dilində:

18. А. И. Попов «Экономическая теория». Учебник для ВУЗ-ов, 4-е издание, s. 202

19.Башкатов Б.И. Международная статистика труда: Учебная пособие. – М.: МЭСИ, 2001. – 208 стр., стр.. 147
20.Булатов А.С.. Экономика. 4-е издание. М.:Экономист. 2006, стр. 164
21.В.Р Весенин, «Управление персоналом: теория и практика», Москва – 2008, стр. 54
22.Гусаров В.М. Статистика: Учебник. – М.: Питер, 2006. – 463 стр., стр.231
23.Гэлбрейт Дж. Новое индустриальное общество. – М.: ООО «Изд-во АСТ», 2004. – 602 стр., стр. 246
24.Елисеева И.И. Статистика: Учебник. – М.: Питер, 2008. – 565 стр., стр.310
25.И. И. Алиев, Н. А. Горелов, Л. О. Ильина. — 2-е изд., испр. и доп. — М.: Юрайт, 2014. — 671 стр., стр.197
26.Оукен В. Основные принципы экономической политика. М. – прогресс 2005, 509 стр., стр. 314
27.Романенко И. В. «Основы экономики: Конспект лекций». - СПб.: Изд-во Михайлова В. А., 2000г.- 48 стр., стр. 19
28.Самуэльсон П.Э., Нордхаус В.Д. Экономика. – М.: Вильямс, 2008. – 1360 стр., стр. 467
29.Стиглиц Дж.Ю. Экономика государственного сектора. – М.: Инфра-М, 1997. – 720 стр.
30.Султанова Р.М. Приоритеты занятости в социально-ориентированной рыночной экономике. // Труд и социальное отношения, 2004, №3, стр. 412
31.Фишер С., Дорнбуш Р., Шмалензи Р. Экономика. – М.: Дело ЛТД, 1993. – 602 стр., стр. 410
32.Хайек Ф.А. Дорога к рабству: пер. с англ. / Предисл. Н.Я. Петракова. – М.: Экономика, 1992. – 176 стр., стр. 35
33.Экономика труда.  Алиев, И. И. Теория и практика: учебник для бакалавров; рекомендовано научно-техническим советом Санкт-Петербургского государственного университет экономики и финансов. – М.: Экономика, 2004. – 512 стр., стр. 137
34.Экономическая теория / Под ред. А.Г. Грязновой, Т.В. Чечелевой. - М.: Издателство «Экзамен», 2004.- 592 стр., стр. 259

**İngilis dilində**

35.A. Etzioni, “Toward a New Socio-economic Paradigm: Socio-economic Review”. New-Jersey, Princeton University Press, 2006
36.D. Scuilli, U. Gerhardt, A. Etzioni, “Macro Socio-economics”, New Jersey, Princeton University Press, 1996
37.K. Holden, K. Matthews, J. Thompson, “The UK Economy Today”, Manchester, Manchester University Press, 2004

38. Labour market. State Statistical Commitee of the Republic of Azerbaijan. Statistical Yearbook. – Baku, 2007. – 165p., p. 76
39. N.G. Mankiw, “Principles of Macroeconomics”, Boston, Harvard University Press, 2012
40. P.A. Lewis, “Economics as Social Theory and The New Economic Sociology”, London, Routledge, 2004
41. R. Stryker, “The Future of Socio-economics and Society for Advancement of Socio-economics”, New-York, Hollingsworth press, 2002
42. S. Morse, “Indices and Indicators in Development”, London, Earthscan, 2002
43. W. Baer, “The Brazilian Economy: Growth and Development”, Houston, Greenwood, 2008
44. W.J. Baumol, “The Future of Economics”, Oxford, Blackwell, 2002

**İnternet resursları:**

45. “Azərbaycan 2020: gələcəyə baxış” inkişaf konsepsiyası, URL: *https://president.az/files/future_az.pdf*
46. “Elektron Hökümət xalqın gözü ilə...”, URL: *https://www.e-gov.az/az/news/read/154*
47. 2011-ci il üzrə “2008-2015-ci illərdə Azerbaycan Respublikasında yoxsuluğun azaldılması və davaml inkişaf Dövlət Proqramı”-ın icrası barədə, URL: *https://www.economy.gov.az/article/state-program-on-the-implementation/21508*
48. Azərbaycan Respublikasının Əmək Məcəlləsi, URL: *http://www.e-qanun.az/code/7*
49. http://hdr.undp.org/sites/default/files/hdr_2016_report_russian_web.pdf
50. http://ikisahil.com/post/news-52034
51. http://simsar.az/news/a-60115.html
52. http://www.bhm.az/az/news/230.html
53. http://www.xalqqazeti.com/az/news/economy/95367
54. http://www.ilo.org/global/about-the-ilo/newsroom/news/WCMS_615590/lang--en/index.htm
55. https://azertag.az/xeber/1152855
56. https://kayzen.az/blog/ekonomiks/1995/32.-fillips-%C9%99yrisi.html
57. https://president.az/files/future_az.pdf
58. https://translate.googleusercontent.com/translate_c?depth=1&hl=ru&rurl=translate.google.az&sl=en&sp=nmt4&tl=ru&u=https://www.bls.gov/bls/unemployment.htm&xid=17259,15700021,15700124,15700149,15700186,15700190,15700201&usg=ALkJrhj971Z7UrDademo90FFy-atRqOlNg
59. https://translate.googleusercontent.com/translate_c?depth=1&hl=ru&rurl=translate.google.az&sl=en&sp=nmt4&tl=ru&u=https://www.bls.gov/cps/&xid

=17259,15700021,15700124,15700149,15700186,15700190,15700201&usg=ALkJrhg0F-1zoJeUzPxgcZi-RjpOQJkMRw
60. https://www.economy.gov.az/article/state-program-on-the-implementation/21508
61. https://www.e-gov.az/az/news/read/154
62. https://www.e-gov.az/az/news/read/299
63. https://www.ilo.org/moscow/news/WCMS_483128/lang--ru/index.htm
64. https://www.semestr.ru/ks644

# ƏLAVƏLƏR

**Cədvəl 1: İşsizliyin formaları və xüsusiyyətləri**

| İşsizliyin formaları | Xüsusiyyətləri |
|---|---|
| İşsizliyin yaranma səbəbləri | |
| Friksion | Könüllü isi dəyişdirmənin müxtəlif amilləri ilə bağlıdır: daha əlverişli iş şəraiti və yüksək qazanc əldə etmək, daha nüfuzlu iş axtarışı ilə bağlı əməliyyatlar. |
| İnstitusional | Əmək bazarının quruluşundan törəyir, iş qüvvəsinin tələb və təklifinə təsir edən amillərdən yaranır |
| Könüllü | Bu hər hansı səbəbdən iş qabiliyyətli əhalinin işləmək istəməməsi zamanı baş verir |
| Struktur | elmi - texnoloji tərəqqinin və istehsalın təşkilinin təkmilləşdirilməsinin təsiri altında ictimai istehsalın strukturunda baş verən dəyişikliklər səbəbindən yaranır |
| Texnoloji | Əl əməyinin mexanikləşdirilməsi və avtomatlaşdırılması ilə yeni nəsil texnika və texnologiya keçid ilə bağlı baş verir |
| Tsiklik | Bu iqtisadi böhranın nəticəsi olaraq istehsal və sahibkarlıq fəaliyyətinin azalması dövründə iş qüvvəsinə tələbin kəskin azalması zamanı yaranır |
| Regional | Buregionalmənşəliolub və tarixi, demoqrafik, sosialvə psixolojihallarınkomplekstəsirialtında yaranır |
| İqtisadi | Bazar konyunkturu, rəqabət zamanı bir hissə istehsalçıların iflası zamanı yaranır |
| Mövsümi | Bu bəzi sektorlarda fəaliyyətin mövsümi xarakteri ilə balı olur |
| Marjinal | Əhalinin zəif müdafiə edilmiş qrupları arasında işsizlikdir |
| İşsizliyin müddəti | |
| Qısamüddətli | 4 aya qədər |
| Davamlı | 4-8 ay |
| Uzun müddətli | 8-18 ay |
| Durğunlu | 18 aydan artıq |
| İşsizliyin təzahürünün xarici forması | |
| Açıq | Bura iş axtaran bütün işsizlər daxildir |
| Gizli | Bura, iqtisadiyyatda faktiki olaraq işləyən kimi göstərilib, lakin həqiqətdə işləməyən işçilər daxildir, həmçinin əməyi zəruri, lazım olmayanlar daxildir |

**Mənbə:** T.Mirzəyev, 2006: s.133. (Cədvəl 1-in ardı).

## ŞƏKİLLƏRİN SİYAHISI

Şəkil1. 2017-ci ildə dünya üzrə işsizliyin vəziyyəti..............................................10

## QRAFİKLƏRİN SİYAHISI

Qrafik 1. Fillips əyrisi.............................................................................................23

## CƏDVƏLLƏRİN SİYAHISI

Cədvəl 1. İşsizliyin formaları və xüsusiyyətləri................................................94-95

Cədvəl 2. 2007-2019-ci illər üzrə işsizlik, zəif məşğulluq, işləyənlər arasında yoxsulluğun proqnozları və tendensiyaları...........................................................30

Cədvəl 3. Azərbaycanda məşğul və işsiz əhalinin illər üzrə sayı və struktur bölgüsü. Əmək bazarının əsas sosial-iqtisadi göstəriciləri.....................................38

Cədvəl 4. Azərbaycanda məşğul olanların iqtisadi fəaliyyət sahələri üzrə bölgüsü (min nəfərlə).........................................................................................................40

Cədvəl 5. Azərbaycanda işləyənlərin mülkiyyət növləri üzrə bölünməsi............. 42

Cədvəl 6. Azərbaycanda işləyənlərin mülkiyyət növləri üzrə bölünməsi..............44

Cədvəl 7. İqtisadi rayonlar üzrə məşğulların sayı (min nəfərlə)........................... 80

Cədvəl 8. İqtisadi rayonlar üzrə məşğulların sayı (min nəfərlə)........................... 82

Cədvəl 9. 2005-2016-cı illəri əhatə edən iqtisadi rayonlar üzrə işsiz əhalinin dinamikası (nəfərlə).........................................................................................83